# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

№ 1 (37)

Naxçıvan – 2024




H.ƏLİYEV

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

*Bülleten 2006-cı ildən etibarən ildə iki dəfə dərc edilir.*
*Rəsmi sayt: www.nsupremecourt.gov.az*


**Buraxılış üçün məsul şəxs:**
*S.İ.Bəktaşi*

**Redaktor:**
*Ə.K.Allahverdiyev*

**Redaksiya heyəti:**
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*S.Ş.Bəylərli*
*V.K.Quliyev*
*C.G.Bayramova*
*Y.F.Xəlilov*
*A.N.İmanova*

**Məsul katib:**
*G.Ə.Qurbanova*



**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 550-96-76*
*Faks: 544-61-80*


## M Ü N D Ə R İ C A T


*Zəfər seçkilərinin qalibi* ....................6

*Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı (2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair)* .................... **10**


## Yeni sənədlər, normativ aktlar


*Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*....................**15**

*Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu* ....................**17**

*"Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*....................**30**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*....................**31**

*Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*........... **52**

*Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)*..................................................................................**54**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ..................................................................................**55**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*..................................................................................**56**

*M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*..................................................................**57**

*Bir sıra məhkəmələrin sədrlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)*.................................................................**58**

*Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)*.................................................................**59**

*"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*..................................................................................**60**

*"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*..................................................**63**

*Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*......................................**65**

*“Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*................................**67**

## Məhkəmə fəaliyyəti

**Mülki kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* ........................................................................ **69**

**Kommersiya kollegiyasından**

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* .........................................................................**77**

**İnzibati kollegiyadan**

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* .........................................................................**78**

**Cinayət kollegiyasından**

*Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* .........................................................................**79**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı*.......................................................................................**89**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Hərbi xidmət əleyhinə olan inzibati xəta haqqında işlərə baxılmasının bəzi xüsusiyyətləri*..................................................................**104**

## Azad tribuna

*İnzibati icraat haqqında qanun və onun tətbiqinin bəzi məsələləri haqqında mülahizələr* ......................................................................... **116**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2023-cü ilin dekabr-2024-cü ilin iyun aylarında keçirilən tədbirlərin xülasəsi*.........................................................................................**127**

## Hakim studiyası

*“Hakim studiyası” televiziya verilişinin icmalı*................................**143**

## ZƏFƏR SEÇKİLƏRİNİN QALİBİ

*“Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm.”*

***İlham Əliyev***
*(2024-cü il tarixli Prezident seçkilərinin Andiçmə mərasimindəki nitqindən)*

Bu il fevralın 7-də keçirilən növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə Zəfər seçkiləri kimi yazıldı. Ölkəmizin suverenliyinin və ərazi bütövlüyünün tam bərpasından sonra Azərbaycanın dövlətçilik tarixində ilk dəfə seçkilər bütöv, suveren Azərbaycanın hər yerində keçirildi. Ölkə üzrə seçicilərin 76,43 faizinin səsvermədə iştirak etdiyi bu prezident seçkilərində Azərbaycan xalqı növbəti dəfə möhtərəm Prezident İlham Əliyevə etimad göstərərək, onu 92,12 faiz səslə prezident seçdi. Əlbəttə ki, bu qələbə Azərbaycan xalqının öz liderinə olan sonsuz etimadının, dövlət başçısının rəhbərliyi ilə son 20 ildə görülən işlərə, qazanılan nailiyyətlərə yüksək inamının bariz nümunəsidir. Ötən 20 il ərzində Azərbaycanı tarixin bütün dövrlərinin ən möhtəşəm və güclü dövləti səviyyəsinə yüksəltməyə müvəffəq olan liderin alternativsizliyi xalqın seçimi ilə bir daha sübut olundu.

Müstəqil Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyev 2003-cü ilin oktyabrında, prezident seçkiləri ərəfəsində Azərbaycan vətəndaşlarına tarixi müraciətində əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin dəqiq adını belə qeyd etmişdi: “... Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Nəticədə 2003-cü il oktyabrın 15-də keçirilən Prezident seçkilərində seçicilərin 76 faizindən çoxu İlham Əliyevin lehinə səs verərək onu Azərbaycan Respublikasının Prezidenti seçdi və bununla da ölkəmizin inkişafında yeni bir mərhələ başlandı. Prezident kimi fəaliyyətə başlayan cənab İlham Əliyev andiçmə mərasimində ona göstərilən etimada görə xalqa minnətdarlığını bildirdi, Heydər Əliyev siyasətinə sadiq qalacağını bir daha bəyan etdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

Müasir tariximizin möhtəşəm 20 ili kimi yadda qalan ötən dövrdə Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyevin inkişaf etdirərək yeni geosiyasi şərtlərə uyğunlaşdırdığı siyasət nəticəsində Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçdi. Cənab İlham Əliyevin ali dövlət vəzifəsində ilk günlərdən başlayaraq nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, milli maraqlara söykənən daxili və xarici siyasəti qısa müddətdə ona xalq arasında böyük rəğbət, sonsuz inam və etibar qazandırdı. Məhz bu keyfiyyətlərinə görə xalqımız 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi.

Prezident İlham Əliyev ali kürsüyə çıxdığı ilk gündən bəyan etmişdi ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışacaq. Dediyi sözə, verdiyi vədə sadiq qalaraq ölkəmizi dünyanın ən güclü dövlətlərindən birinə çevirdi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə siyasi sistemin təkmilləşdirilməsi, siyasi dialoq mühitinin yaxşılaşdırılması, demokratik təsisatların fəaliyyətinə geniş imkanların yaradılması, insan hüquq və azadlıqlarının, söz və mətbuat azadlığının təmin olunması, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi Azərbaycanın nüfuzunu dünya miqyasında artmasına, demokratik sütunlarının daha da möhkəmlənməsinə zəmin yaratdı. Məhz Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində bu gün Azərbaycan qlobal proseslərin mənfi təsirindən minimum itkilərlə çıxan azsaylı ölkələrdən biri olmaqla yanaşı, beynəlxalq əhəmiyyətli strateji, enerji, nəqliyyat, logistika və kommunikasiya qovşağına, investorların maraq mərkəzinə çevrilmişdir.

Ölkə başçısı tərəfindən aparılan uğurlu, qətiyyətli siyasət, həyata keçirilən dövlət proqramları və iqtisadi layihələr Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına təkan verməkdədir.

Prezident İlham Əliyev dövlətimizin başçısı kimi 20 illik fəaliyyəti dövründə xalqa verdiyi bütün vədləri tərəddüdsüz yerinə yetirmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev fevralın 14-də andiçmə mərasimində bununla bağlı demişdir: "*2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. ... Verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi. O vaxt və ondan sonrakı illərdə, o cümlədən 2018-ci ildə bax bu kürsüdən andiçmə mərasimində demişdim ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. O gündən cəmi 2 il yarım keçdi və Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir, 300-dən çox şəhər və kənd azad olunmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğalçılardan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək tarixi ədaləti bərpa etdik".*

Əsrə bərabər 20 ilin zirvəsində təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Bu gün Azərbaycan xalqı öz tarixinin ən şərəfli və qürurverici dövrünü yaşayır. Biz qalib xalqın nümayəndələri, qalib dövlətin vətəndaşlarıyıq. Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər və 1 günlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük Qayıdışa açdı. Şanlı Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində üçrəngli bayrağımız Qarabağın hər tərəfində dalğalandı və suverenliyimiz bərpa edildi. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Dünya hərb tarixində xüsusi yer tutan bu müharibə Prezident İlham Əliyevin daha bir keyfiyyətini – sərkərdəlik məharətini üzə çıxardı. Tarixi Zəfərdən sonra qaçqın və məcburi köçkün statusundan qurtulmuş soydaşlarımızın vaxtilə düşdükləri ağır yaşayış şəraitinin yaxşılaşdırılması və onların sosial problemlərinin həlli sahəsində tədbirlər həyata keçirilməklə qəsəbə və yaşayış kompleksi inşa edildi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqaməti işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin aparılması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasıdır. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin

dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir.

Zəfərin və Böyük Qayıdışın müəllifi olan İlham Əliyev bu gün də tarix yazmaqda davam edir. Heç də təsadüfi deyil ki, fevralın 7-də - Azərbaycan Respublikası prezidenti seçkilərində İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri məhz Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər. Bunun böyük rəmzi mənası var. İlham Əliyev andiçmə mərasimindəki nitqində səs vermək üçün niyə məhz Xankəndini seçdiyini belə bəyan etdi: *"... Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".*

07 fevral 2024-cü il tarixli prezident seçkilərində xalqımız bir daha öz taleyinə biganə qalmadığını, gələcək naminə düzgün seçim etdiyini, ən layiqli namizədə səs verdiyini sübuta yetirdi. İndi, həqiqətən də, Prezident İlham Əliyevin ölkəmizə böyük istedad və bacarıqla rəhbərlik etməsi, Heydər Əliyev siyasi kursunu, onun Azərbaycan naminə amallarını böyük ustalıqla davam etdirməsi hər birimizin qəlbini iftixarla döyündürür.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin ideya və uzaqgörən siyasi kursunun mahir davamçısı Cənab İlham Əliyevi prezident seçkilərində qələbə qazanması münasibətilə səmimi qəlbdən təbrik edir, dövlət başçısı kimi ona gələcək fəaliyyətində uğurlar diləyirik.

**Redaksiya heyəti**

**AZƏRBAYCAN RESPUBLİKASI ADINDAN**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun**
# QƏRARI
**2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinin təsdiq və rəsmən elan edilməsinə dair**

**13 fevral 2024-cü il** **Bakı şəhəri**

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu Fərhad Abdullayev (sədr), Sona Salmanova (məruzəçi-hakim), Humay Əfəndiyeva, Rövşən İsmayılov, Ceyhun Qaracayev, Rafael Qvaladze, İsa Nəcəfov və Kamran Şəfiyevdən (məruzəçi-hakim) ibarət tərkibdə, məhkəmə katibi Fəraid Əliyev və Vüqar Zeynalovun, maraqlı subyektin nümayəndələri Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun, sədr müavini Rövzət Qasımovun, katibləri Arifə Muxtarova və Mikayıl Rəhimovun, üzvləri Fuad Cavadov, Şaitdin Əliyev, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Ramiz İbrahimov, Validə Kazımova, İlham Məmmədov, Nizami Nadirxanlı, Qabil Orucov, Hüseyn Paşayev, Almas Qəhramanlı, Etibar Quliyev və İlkin Şahbazovun, ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Sevda Süleymanova və Fərid Əhmədovun, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti, hüquq üzrə fəlsəfə doktoru Nəsib Şükürov və İnsan hüquqları və informasiya hüququ kafedrasının professoru, hüquq elmləri doktoru Etibar Əliyevin iştirakı ilə, Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə və 130-cu maddəsinin VIII hissəsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş protokol və ona əlavə edilmiş sənədlər üzrə 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair xüsusi konstitusiya icraatı qaydasında konstitusiya işinə baxdı.

Hakimlər S.Salmanova və K.Şəfiyevin məruzələrini, maraqlı subyektin nümayəndəsi M.Pənahovun çıxışını, ekspertlər S.Süleymanova və N.Şükürovun rəylərini dinləyib, iş materiallarını öyrənərək Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

## MÜƏYYƏN ETDİ:

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin I hissəsinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 7 dekabr tarixli

Sərəncamına uyğun olaraq 2024-cü il fevralın 7-də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 108.2 və 203.3-cü maddələrinə müvafiq olaraq səsvermənin nəticələri haqqında dairə seçki komissiyalarının protokollarında olan bütün məlumatları ümumiləşdirərək, Azərbaycan Respublikası Prezidenti seçkiləri üzrə səsvermənin nəticələrinə dair 2024-cü il 11 fevral tarixli protokolu tərtib etmişdir. Həmin protokol Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli 10/36 saylı qərarı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsinə uyğun olaraq Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrini təsdiq və rəsmən elan edilməsi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim etmişdir.

Seçkilərin yekunlarına dair Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq ekspertləri cəlb etmiş, “Konstitusiya Məhkəməsi haqqında” Azərbaycan Respublikası Qanununun 56-cı maddəsinə əsasən Azərbaycan Respublikasının apellyasiya məhkəmələrindən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsindən, Azərbaycan Respublikasının Ali Məhkəməsindən və Azərbaycan Respublikasının Prokurorluğundan seçki hüquqlarının müdafiəsi ilə bağlı məlumatları tələb etmişdir.

Azərbaycan Respublikası Prezidenti seçkilərinin yekunlarına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş sənədlərdən göründüyü kimi, seçki qutularında 4 967 795 (dörd milyon doqquz yüz altmış yeddi min yeddi yüz doxsan beş) seçki bülleteni müəyyən edilmiş, bunlardan 9 828 (doqquz min səkkiz yüz iyirmi səkkiz) səs etibarsız hesab edilmişdir.

Etibarlı hesab edilmiş 4 957 967 (dörd milyon doqquz yüz əlli yeddi min doqquz yüz altmış yeddi) səs prezidentliyə namizədlər arasında aşağıdakı qaydada bölünmüşdür:

**Əliyev Fuad Ağasi oğlu** – lehinə 26 517 (iyirmi altı min beş yüz on yeddi) səs və ya 0.54 faiz;

**Əliyev İlham Heydər oğlu** – lehinə 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz;

**Həsənquliyev Qüdrət Müzəffər oğlu** – lehinə 85 411 (səksən beş min dörd yüz on bir) səs və ya 1.72 faiz;

**Musayev Elşad Nəbi oğlu** – lehinə 32 885 (otuz iki min səkkiz yüz səksən beş) səs və ya 0.66 faiz;

**Mustafa Fazil Qəzənfər oğlu** – lehinə 98 421 (doxsan səkkiz min dörd yüz iyirmi bir) səs və ya 1.99 faiz;

**Nurullayev Razi Qulaməli oğlu** – lehinə 39 643 (otuz doqquz min altı yüz qırx üç) səs və ya 0.80 faiz;

**Oruc Zahid Məhərrəm oğlu** – lehinə 107 632 (yüz yeddi min altı yüz otuz iki) səs və ya 2.17 faiz.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.12-ci maddəsinə görə, protokollar seçki komissiyasının həlledici səs hüquqlu üzvlərinin ümumi sayının ən azı 2/3-si tərəfindən imzalanır. Həmin Məcəllənin 28.2-ci maddəsinə əsasən, Mərkəzi Seçki Komissiyasının qərarları açıq səsvermə yolu ilə Mərkəzi Seçki Komissiyasının iclasında komissiya üzvlərinin 17-si və ya 18-i iştirak edərsə – azı 12 üzvün səs çoxluğu ilə qəbul edilir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə təqdim olunmuş səsvermənin nəticələri haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Mərkəzi Seçki Komissiyasının 18 üzvündən 18-i tərəfindən imzalanmışdır.

Ekspert S.Süleymanova bildirmişdir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələri baxımından düzgün tərtib edilmişdir və qanunvericiliyin tələblərinə uyğundur.

Ekspert N.Şükürovun rəyinə əsasən, Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu Azərbaycan Respublikası Seçki Məcəlləsinin müvafiq maddələrinin tələblərinə tam cavab verir.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə daxil olmuş məlumatlardan göründüyü kimi, seçki hüquqlarının müdafiəsi ilə bağlı Bakı Apellyasiya Məhkəməsində səkkiz, Sumqayıt Apellyasiya Məhkəməsində isə bir ərizəyə baxılmış və həmin ərizələr əsassız olduğundan təmin edilməmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin məlumatına görə, məhkəmə aktlarından verilmiş üç kassasiya şikayəti təmin olunmadan saxlanılmışdır. Gəncə, Şirvan, Şəki Apellyasiya Məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi seçki hüquqlarının müdafiəsi ilə bağlı hər hansı ərizənin daxil olmadığını bildirmişlər.

Azərbaycan Respublikası Prokurorluğunun məlumatına əsasən, seçki hüquqlarının pozulması ilə əlaqədar bir şikayət üzrə aparılmış araşdırma zamanı həmin şikayətdə irəli sürülmüş dəlillərin öz təsdiqini tapmadığı müəyyən edilmişdir.

Göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin nəticələrinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunu Azərbaycan Respublikası Seçki Məcəlləsinin 100.2, 100.12, 108.2 və 203.3-cü maddələrinin tələblərinə uyğun hesab edir.

Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlir ki, Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının protokolunda əks olunmuş nəticələr təsdiq edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinə əsasən, Azərbaycan Respublikasının Prezidenti səsvermədə iştirak edənlərin yarısından çoxunun səs çoxluğu ilə seçilir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinə müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidentliyinə namizədə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdikdə, o, Azərbaycan Respublikasının Prezidenti seçilmiş sayılır.

Qeyd olunduğu kimi, etibarlı hesab edilmiş seçici səslərindən 4 567 458 (dörd milyon beş yüz altmış yeddi min dörd yüz əlli səkkiz) səs və ya 92.12 faiz Əliyev İlham Heydər oğlunun lehinə verilmişdir.

Beləliklə, Azərbaycan Respublikası Konstitusiyasının 101-ci maddəsinin II hissəsinin və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.4-cü maddəsinin tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilməlidir.

Azərbaycan Respublikası Konstitusiyasının 102-ci maddəsini, 130-cu maddəsinin VIII və IX hissələrini, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 203.1-ci maddəsini, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 56, 62, 63, 65-67 və 69-cu maddələrini rəhbər tutaraq Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu

**QƏRARA ALDI:**

1. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinə dair Azərbaycan Respublikası Mərkəzi

Seçki Komissiyasının 2024-cü il 11 fevral tarixli protokolunda əks olunmuş nəticələr təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Prezidentliyinə namizəd Əliyev İlham Heydər oğlu Azərbaycan Respublikasının Prezidenti seçilmiş elan edilsin.

3. Qərar elan olunduğu andan qüvvəyə minir.

4. Qərar Azərbaycan Respublikasının rəsmi dövlət qəzetlərində və "Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı"nda dərc edilsin, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytında yerləşdirilsin.

5. Qərar qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv edilə, dəyişdirilə və ya rəsmi təfsir edilə bilməz.

**Sədr** **Fərhad Abdullayev**



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 (I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894, № 11, maddə 1203; 2022, № 6, maddə 582, № 11, maddələr 1239, 1240, № 12, maddə

1392; 2023, № 1, maddə 14, № 2, maddə 207, № 3, maddə 338, № 7, maddələr 896, 904; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1017-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 97-ci maddənin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

2. 98-ci maddə üzrə:

2.1. adında "işlərinə" sözü "yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

2.2. 1-ci hissədə "görülən işlərə hamilə və üç yaşınadək uşağı olan qadınların," sözləri "yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

2.3. 2-ci hissədə "görülən" sözü "yerinə yetirilən" sözləri ilə əvəz edilsin;

2.4. aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınlar (bu Məcəllənin 242-ci maddəsi nəzərə alınmaqla), üç yaşınadək uşağını təkbaşına böyüdən kişilər gecə vaxtı yerinə yetirilən işlərə yalnız onların yazılı razılığı ilə cəlb edilə bilərlər.".

3. 166-cı maddənin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri əlavə edilsin.

4. 242-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 242. Qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə və istirahət günlərində işə cəlb olunmasının, habelə ezamiyyətlərinin məhdudlaşdırılması**

1. Hamilə, 14 yaşınadək uşağı olan, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı olan qadınların gecə vaxtı yerinə yetirilən işlərə, iş vaxtından artıq işlərə, istirahət, iş günü hesab edilməyən bayram və digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yalnız onların yazılı razılığı ilə (hamilə və 3 yaşınadək uşağı olan qadınlara münasibətdə onların, habelə uşağın həyat və ya sağlamlığına təhlükə yaranmaması barədə həkim rəyi olduqda) yol verilir.

2. Bu maddənin 1-ci hissəsi 14 yaşınadək uşağı, həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağı övladlığa götürən qadınlara da şamil edilir.".

5. 254-cü maddə üzrə:

5.1. adında "işlərinə" sözü "vaxtı yerinə yetirilən işlərə" sözləri ilə əvəz edilsin;

5.2. 1-ci hissəyə "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515; 2019, № 7, maddələr 1198, 1200, № 12, maddə 1898; 2020, № 6, maddə 675, № 7, maddələr 832, 852, 856; 2021, № 6 (I kitab), maddə 541, № 7, maddə 711; 2022, № 5, maddələr 428, 436, № 8, maddə 828, № 12, maddə 1374; 2023, № 1, maddələr 23, 40, № 2, maddə 207, № 4, maddə 445) aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 7.0.8-1-ci maddə əlavə edilsin:

"7.0.8-1. cinayət təqibi üzrə qiyabi icraat – məhkəmə tərəfindən qəbul edilmiş cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar əsasında təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində cinayət təqibi üzrə məhkəməyədək, həmçinin birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraatdır;".

2. 53-cü maddə üzrə:

2.1. 53.6-cı maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Cinayət təqibi üzrə icraat dayandırıldıqdan sonra ibtidai araşdırmanın hərtərəfli, tam və obyektiv aparılması üçün prosessual hərəkətlərin həyata keçirilməsi zərurəti yarandıqda, cinayət təqibi üzrə icraat təzələnir və həmin prosessual hərəkətlər başa çatdırıldıqdan sonra yenidən dayandırılır.";

2.2. 53.7-ci maddəyə "əleyhinə" sözündən sonra ", terrorçuluq, terrorçuluğu maliyyələşdirmə" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda IV-I fəsil əlavə edilsin:

**"IV-I fəsil**

**Prosessual sənədlərin rəsmi qaydada verilməsi**

**Maddə 54-1. Prosessual sənədlərin çatdırılması**

54-1.1. Bu Məcəllənin 54-1.5-ci və 54-1.6-cı maddələrində müəyyən edilmiş hallar istisna olmaqla, prosessual sənədlər "Poçt haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sifarişli poçt göndərişi (məktubu) ilə çatdırılır. Zəruri hallarda prosessual sənədlərin çatdırılması təhqiqatçı və ya müstəntiq tərəfindən həyata keçirilə bilər, habelə təhqiqatçı, müstəntiq, prokuror və ya hakim tərəfindən təhqiqat orqanına, eləcə də cinayət prosesini həyata keçirən müvafiq orqan tərəfindən öz əməkdaşlarına həvalə edilə bilər.

54-1.2. Prosessual sənəd onu göndərən orqana qaytarılmalı olan, forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə, ünvan sahibinə şəxsən verilir. Hüquqi şəxsə ünvanlanmış prosessual sənəd müvafiq vəzifəli şəxsə qəbzə və ya sənədin kötüyünə imza etdirilməklə verilir. Prosessual sənədin rəsmi qaydada verilməsi cinayət prosesini həyata keçirən orqanda da həyata keçirilə bilər.

54-1.3. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxslər bunu həmin prosessual sənədi aldıqları vaxtdan bir gündən gec olmayaraq yerinə yetirməli və bu barədə cinayət prosesini həyata keçirən orqana xəbər verməlidirlər.

54-1.4. Prosessual sənədin çatdırılması vəzifəsi üzərinə düşən şəxs ünvan sahibini onun yaşadığı, yaxud işlədiyi yer üzrə tapmadıqda, həmin sənəd ünvan sahibi ilə birlikdə yaşayan yetkinlik yaşına çatmış ailə üzvlərindən birinə (onların razılığı ilə), onlar olmadıqda müvafiq icra hakimiyyəti orqanına, ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanına, yaxud onun işlədiyi yer üzrə müdiriyyətə verilir. Ünvan sahibinin əvəzinə prosessual sənədi qəbul etmiş şəxs qəbzdə və ya sənədin kötüyündə öz soyadını, adını, atasının adını, ünvan sahibinə münasibətini və ya tutduğu vəzifəni göstərməli və həmin sənədi mümkün olan ən qısa müddətdə ünvan sahibinə verməlidir.

54-1.5. "Elektron məhkəmə" informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə prosessual sənədlərin çatdırılması bu Məcəllənin 51-1-ci maddəsində müəyyən edilmiş qaydada həyata keçirilir.

54-1.6. Azərbaycan Respublikasının hüdudlarından kənarda olduğu üçün şəxsə prosessual sənədlərin bu Məcəllənin 54-1.1 – 54-1.5-ci maddələrində nəzərdə tutulmuş qaydada çatdırılması mümkün olmadıqda və şəxsin olduğu ölkə barədə etibarlı məlumatlar olduqda, prosessual sənədlər həmin şəxsə çatdırılması üçün müvafiq icra hakimiyyəti orqanı vasitəsilə Azərbaycan Respublikasının həmin ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna, yaxud cinayət işlərinə dair hüquqi yardım göstərilməsi qaydasında həmin ölkənin müvafiq səlahiyyətli orqanına göndərilir.

54-1.7. Tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan prosessual sənədlərin surətləri bu Məcəllənin 161.1.7-ci maddəsində nəzərdə tutulmuş qaydada həbs yerlərinin müdiriyyəti tərəfindən onlara çatdırılmalıdır.

54-1.8. Bu Məcəllənin 54-1.2-ci, 54-1.4-cü, 54-1.5-ci və 54-1.7-ci maddələrində, habelə prosessual sənədin şəxsə çatdırılması barədə yazılı məlumat cinayət prosesini həyata keçirən orqana daxil olduğu təqdirdə bu Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda prosessual sənəd rəsmi qaydada verilmiş hesab edilir.

**Maddə 54-2. Çağırış vərəqəsi**

54-2.1. Çağırış vərəqəsində aşağıdakı məlumatlar göstərilməlidir:

54-2.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, əlaqə məlumatları (indeks, telefon, faks və s.), təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, vəzifəsi və imzası;

54-2.1.2. çağırış vərəqəsinin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

54-2.1.3. çağırışa gəlmənin vaxtı (tarix və saat) və yeri;

54-2.1.4. şübhəli və ya təqsirləndirilən şəxsə münasibətdə şübhənin və ya ittihamın mahiyyəti;

54-2.1.5. bu Məcəllənin müvafiq maddələrinə istinad edilməklə çağırılan şəxsin prosessual hüquq və vəzifələrinin izahı;

54-2.1.6. çağırış vərəqəsi üzrə gəlməmənin nəticələri barədə məlumat, o cümlədən çağırılan şəxsin bu Məcəllənin 178.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar olduqda cinayət prosesini həyata keçirən orqana məcburi gətiriləcəyi barədə xəbərdarlıq;

54-2.1.7. təqsirləndirilən şəxsə onun barəsində bu Məcəllə ilə müəyyən edilmiş hallarda qiyabi icraatın açıla biləcəyi və qiyabi hökmün və ya məhkəmənin digər yekun qərarının çıxarıla biləcəyi barədə xəbərdarlıq,

habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatların cinayət prosesini həyata keçirən orqana göndərməli olduğu barədə məlumat.

54-2.2. Çağırış vərəqəsinin forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

54-2.3. Çağırış vərəqəsində vaxt müəyyən edilərkən çağırılan şəxsin cinayət prosesini həyata keçirən orqana vaxtında gələ bilmə imkanı nəzərə alınmalıdır.

54-2.4. Çağırılan şəxsin xahişi ilə çağırışın tarixi və vaxtı dəyişdirilə bilər.

54-2.5. Çağırılan şəxs çağırışa gəlmədikdə bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilə bilər. Çağırılan şəxs üzrlü səbəbdən çağırışa gələ bilmədikdə bu barədə dərhal cinayət prosesini həyata keçirən orqana məlumat verməli, çağırışa gəlməməsinə səbəb olan üzrlü halları təsdiq edən dəlilləri təqdim etməlidir. Bu halda cinayət prosesini həyata keçirən orqan çağırılan şəxsin iştirak edə biləcəyi tarix və vaxtı nəzərə almaqla yeni çağırış tarixi və vaxtı müəyyən edir.

54-2.6. Şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıla bilər. Bu halda çağırılan şəxsə çağırış vərəqəsinin bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məzmunu, o cümlədən çağırılan şəxsin hüquq və vəzifələri izah edilir və bu barədə protokol tərtib olunur. Şübhəli və ya təqsirləndirilən şəxs telefon, videokonfrans əlaqə sistemi və ya digər rabitə və telekommunikasiya vasitələrindən istifadə edilməklə çağırıldıqda həmin şəxs qabaqcadan xəbərdar olunmaqla onun səsinin qeyd edilməsi təmin olunmalı, bu protokollaşdırılmalı və müvafiq elektron daşıyıcı protokola əlavə edilməlidir.

54-2.7. Həbs yerlərində saxlanılan şübhəli və təqsirləndirilən şəxslər həbs yerinin müdiriyyəti vasitəsilə çağırılırlar.

54-2.8. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxslər onların qanuni nümayəndələri vasitəsi ilə çağırılırlar.

**Maddə 54-3. Qəbzin məzmunu**

54-3.1. Bu Məcəllənin 54-1.2-ci maddəsində nəzərdə tutulmuş qəbzdə aşağıdakılar göstərilməlidir:

54-3.1.1. cinayət prosesini həyata keçirən orqanın adı, ünvanı, təhqiqatçı, müstəntiq, prokuror və ya hakimin soyadı, adı, atasının adı, vəzifəsi;

54-3.1.2. prosessual sənədlərin verilməli olduğu şəxsin prosessual statusu, soyadı, adı, atasının adı, ünvanı, hüquqi şəxsin adı və yerləşdiyi ünvan;

54-3.1.3. prosessual sənədin adı;

54-3.1.4. prosessual sənədin verilmə vaxtı (tarix və saat), yeri, qəbul edən şəxsin soyadı, adı, atasının adı və imzası;

54-3.1.5. prosessual sənədin verilməməsinin səbəbləri;

54-3.1.6. ünvan sahibi olmadığı təqdirdə prosessual sənədin verildiyi şəxsin onu mümkün olan ən qısa müddətdə ünvan sahibinə vermək vəzifəsinə dair qeyd və onun imzası;

54-3.1.7. prosessual sənədin çatdırılması tapşırılmış şəxsin, yaxud rabitə orqanının nümayəndəsinin imzası.

**Maddə 54-4. Prosessual sənədləri qəbul etməkdən imtina**

Ünvan sahibi və ya digər şəxs prosessual sənədi qəbul etməkdən imtina etdikdə, onu təqdim edən şəxs ünvan sahibinin yaşadığı yer üzrə yerli özünüidarəetmə orqanı, müvafiq icra hakimiyyəti orqanı və ya iş yerinin müdiriyyətinin iştirakı ilə prosessual sənədin verilməməsinin səbəblərinə dair müvafiq qeydlər etdikdən sonra onu cinayət prosesini həyata keçirən orqana qaytarır. Bu halda prosessual sənəd rəsmi qaydada verilmiş hesab olunur.”.

4. 91.5.42-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 91.5.43-cü maddə əlavə edilsin:

“91.5.43. cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda:

91.5.43.1. çağırış vərəqəsini, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərarı, habelə cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarını bu Məcəllənin 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada almaq (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla);

91.5.43.2. cinayət təqibi üzrə qiyabi icraatda müdafiəçisi vasitəsilə təmsil olunmaq;

91.5.43.3. cinayət işinin materialları ilə tanış olmaq, istintaq və digər prosessual hərəkətlərin keçirilməsinə dair vəsatətlər vermək;

91.5.43.4. cinayət təqibi üzrə qiyabi icraat nəticəsində qəbul edilmiş qiyabi hökm və ya məhkəmənin digər yekun qərarı ilə bağlı bu Məcəllənin 467-17-ci maddəsində nəzərdə tutulmuş qaydada ərizə verərək, onun ləğv edilməsi və cinayət işinə yenidən baxılmasını tələb etmək.”.

5. 92-ci maddə üzrə:

5.1. aşağıdakı məzmunda 92.3.15-1-ci maddə əlavə edilsin:

“92.3.15-1. məhkəməyədək icraat zamanı cinayət təqibi qiyabi icraat qaydasında aparıldıqda;”;

5.2. 92.3.16-cı maddədə “Məcəllədə” sözü “Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində” sözləri ilə əvəz edilsin;

5.3. 92.4.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 92.4.9-cu maddə əlavə edilsin:

“92.4.9. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə prokurorun təqdimatına məhkəmədə baxılarkən – bu Məcəllənin 92.3.15-1-ci maddəsində nəzərdə tutulmuş halda.”.

6. 151-ci maddə üzrə:

6.1. adına, 151.4-cü maddəyə və 151.5-ci maddənin birinci cümləsinə “təqsirləndirilən” sözündən əvvəl “şübhəli və ya” sözləri əlavə edilsin;

6.2. 151.1-ci maddədə “Təqsirləndirilən” sözü “Şübhəli və ya təqsirləndirilən” sözləri ilə əvəz edilsin.

7. 214.3-cü maddənin ikinci cümləsində “226” rəqəmləri “227” rəqəmləri ilə əvəz edilsin.

8. 226-cı maddə ləğv edilsin.

9. 272.2-ci maddədə “226” rəqəmləri “54-1 – 54-4” rəqəmləri ilə əvəz edilsin.

10. 278-ci maddə üzrə:

10.1. adında, 278.1-ci və 278.3-cü maddələrdə “Təqsirləndirilən” sözü “Şübhəli və ya təqsirləndirilən” sözləri ilə əvəz edilsin;

10.2. 278.2-ci maddədə “Təqsirləndirilən” sözü “Şübhəli və ya təqsirləndirilən” sözləri ilə əvəz edilsin və həmin maddəyə “olmadıqda” sözündən sonra “, yaxud şübhəli” sözləri əlavə edilsin;

10.3. 278.4-cü maddəyə “təqsirləndirilən” sözündən əvvəl “şübhəli və ya” sözləri əlavə edilsin.

11. Aşağıdakı məzmunda 290.3.3-1-ci maddə əlavə edilsin:

“290.3.3-1. cinayət təqibi üzrə qiyabi icraata xitam vermək və ibtidai istintaqın aparılması üçün cinayət işini öz göstərişləri ilə müstəntiqə qaytarmaq;”.

12. 299-cu maddə üzrə:

12.1. 299.9.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“299.9.2. cinayət təqibi ilə bağlı bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsinə mane olmamaq şərtilə böyük ictimai təhlükə törətməyən cinayətin törədilməsində təqsirləndirilən şəxs ona qarşı irəli sürülmüş ittihama məhkəmədə onun iştirakı olmadan baxılması barədə vəsatət qaldırdıqda;”;

12.2. aşağıdakı məzmunda 299.9.3-cü maddə əlavə edilsin:

“299.9.3. bu Məcəllənin 467-13.1-ci maddəsində nəzərdə tutulmuş halda.”.

13. 301-ci maddə üzrə:

13.1. 301.2.10-cu maddədə “qanunla işə qiyabi baxılmasına yol verildiyi” sözləri “bu Məcəllənin 51-2-ci və 311.2-ci maddələrində nəzərdə tutulmuş” sözləri ilə əvəz edilsin;

13.2. 301.5-ci maddənin ikinci cümləsində "226-cı maddəsində" sözləri "54-1 – 54-4-cü maddələrində" sözləri ilə əvəz edilsin.

14. 311.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"311.2. Təqsirləndirilən şəxsin iştirakı olmadan məhkəmə baxışına yalnız bu Məcəllənin 299.9.2-ci və 299.9.3-cü maddələrində nəzərdə tutulmuş hallarda yol verilir.".

15. 317.1-ci maddənin birinci cümləsində "226.1 – 226.3-cü" sözləri "54-1 – 54-4-cü" sözləri ilə əvəz edilsin.

16. 442.2.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 442.2.3-cü maddə əlavə edilsin:

"442.2.3. cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə vəsatət və təqdimatlara.".

17. 446-cı maddə üzrə:

17.1. adına, 446.1-ci maddənin birinci abzasına, 446.2.4-cü, 446.2.5-ci və 446.2.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

17.2. aşağıdakı məzmunda 446.1.2-2-ci maddə əlavə edilsin:

"446.1.2-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması üçün müstəntiqin əsaslandırılmış vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı;";

17.3. 446.2.6-cı maddəyə və 446.4-cü maddənin birinci cümləsinə "edilməsinin" sözündən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılmasının" sözləri əlavə edilsin;

17.4. 446.3-cü maddəyə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması," sözləri əlavə edilsin.

18. 447-ci maddə üzrə:

18.1. adına, 447.1-ci və 447.5 – 447.7-ci maddələrə "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

18.2. 447.3-cü maddədə "və ya prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi" sözləri ", prosessual məcburiyyət tədbirinin tətbiq edilməsi və ya cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri ilə əvəz edilsin.

19. 448-ci maddə üzrə:

19.1. adına və 448.1-ci maddənin birinci abzasına "tətbiq edilməsi" sözlərindən sonra ", cinayət təqibi üzrə qiyabi icraatın açılması" sözləri əlavə edilsin;

19.2. 448.1.3-1-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 448.1.3-2-ci maddə əlavə edilsin:

“448.1.3-2. cinayət təqibi üzrə qiyabi icraatın açılması və ya bundan imtina edilməsi barədə.”;

19.3. 448.4-cü maddəyə “tətbiq edilməsinə” sözlərindən sonra “, cinayət təqibi üzrə qiyabi icraatın açılmasına” sözləri əlavə edilsin;

19.4. aşağıdakı məzmunda 448.6-2-ci maddə əlavə edilsin:

“448.6-2. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surətinin göndərilməsi bu Məcəllənin 467-13.11-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.”;

19.5. 448.8-ci maddəyə “edilməsinə” sözündən sonra “, cinayət təqibi üzrə qiyabi icraatın açılmasına” sözləri, “edilməsinin” sözündən sonra “, cinayət təqibi üzrə qiyabi icraatın açılmasının” sözləri əlavə edilsin.

20. 454-cü maddəyə “tətbiq edilməsi” sözlərindən sonra “, cinayət təqibi üzrə qiyabi icraatın açılması” sözləri əlavə edilsin.

21. 466.6-cı maddənin ikinci cümləsində “226” rəqəmləri “227” rəqəmləri ilə əvəz edilsin.

22. Aşağıdakı məzmunda LIV-II fəsil əlavə edilsin:

**“LIV-II fəsil**

**Cinayət təqibi üzrə qiyabi icraat**

**Maddə 467-12. Cinayət təqibi üzrə qiyabi icraatın xüsusiyyətləri**

467-12.1. Cinayət təqibi üzrə qiyabi icraat bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş ümumi qaydalara uyğun olaraq aparılır.

467-12.2. Cinayət təqibi üzrə qiyabi icraat aparıldıqda bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquqlar cinayət prosesini həyata keçirən orqan tərəfindən təmin edilməlidir.

467-12.3. Məhkəməyədək qiyabi icraat yalnız ibtidai istintaq şəklində aparılır.

467-12.4. Barəsində cinayət təqibi üzrə qiyabi icraat aparılan təqsirləndirilən şəxsə dair cinayət işi ayrıca icraata ayrılır.

467-12.5. Yetkinlik yaşına çatmayan şəxslər barəsində cinayət təqibi üzrə qiyabi icraatın aparılmasına yol verilmir.

**Maddə 467-13. Cinayət təqibi üzrə qiyabi icraatın açılması**

467-13.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100–119, 137, 144–145, 178, 179, 182, 193-1, 204, 205, 206, 206-1, 208, 214–219-1, 228, 274–283-1, 308–314-3, 318, 318-1, 319 və 324-cü maddələri, eləcə də həmin maddələrlə yanaşı eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə həmin Məcəllənin digər maddələri ilə ittiham olunan təqsirləndirilən şəxsin Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan və ya məhkəmədən gizləndiyi və ya çağırışa gəlməkdən qəsdən boyun qaçırdığı

üçün cinayət prosesində şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda onun barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

467-13.2. Təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada cinayət prosesini həyata keçirən orqana çağırılması nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqandan gizlənən və ya çağırışa gəlməkdən qəsdən boyun qaçıran şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də bu Məcəllə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş qaydada verilməsi (ekstradisiyası) üçün tədbirlər görülür.

467-13.3. Cinayət prosesini həyata keçirən orqan təqsirləndirilən şəxsin bu Məcəllənin 54-1 – 54-4-cü maddələrində nəzərdə tutulmuş qaydada çağırılmasını həyata keçirdikdə, eyni zamanda barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə onu məlumatlandırır, habelə həmin icraatda özünün seçimi əsasında müdafiəçi vasitəsilə təmsil olunmaq hüququndan istifadə etmək istədiyi halda, müdafiəçisi barədə məlumatları cinayət prosesini həyata keçirən orqana göndərməli olduğunu bildirir.

467-13.4. Bu Məcəllənin 467-13.2-ci maddəsində nəzərdə tutulmuş tədbirlər nəticə vermədikdə, cinayət prosesini həyata keçirən orqan təqsirsizlik prezumpsiyasına riayət etməklə, bu Məcəllənin 54-2.1-ci maddəsində nəzərdə tutulmuş məlumatları (çağırış vərəqəsinin verilməli olduğu şəxsin ünvanı istisna olmaqla) ictimai televiziya və radio vasitəsilə yayımlayır və rəsmi internet səhifəsində dərc etdirir.

467-13.5. Təqsirləndirilən şəxs cinayət təqibi üzrə icraatın hər hansı mərhələsində şəxsən iştirak etdikdən sonra istintaq və ya məhkəmədən gizləndikdə, onun bu Məcəllənin 467-13.4-cü maddəsində nəzərdə tutulmuş qaydada məlumatlandırılması tələb edilmir və həmin şəxs cinayət təqibinin qiyabi icraat qaydasında aparılmasından məlumatlı hesab olunur.

467-13.6. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur. Vəsatətə bu Məcəllənin 442 – 454-cü maddələrində müəyyən edilmiş qaydada baxılır.

467-13.7. Təqsirləndirilən şəxsin özünün seçdiyi müdafiəçi barədə məlumat olmadıqda, cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılmasında müdafiəçinin iştirakı cinayət prosesini həyata keçirən

orqan tərəfindən təmin edilir. Təqsirləndirilən şəxsə verilməli olan prosessual sənədlərin surətləri müdafiəçiyə təqdim edilir.

467-13.8. Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı, habelə apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələ məhkəmənin öz təşəbbüsü ilə və ya ittiham tərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin qərarı ilə həll edilir.

467-13.9. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər.

467-13.10. Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə məsələyə baxılarkən məhkəmə tərəfindən aşağıdakı hallar nəzərə alınır:

467-13.10.1. təqsirləndirilən şəxsin bu Məcəllədə nəzərdə tutulmuş qaydada çağırılması, olduğu yerin müəyyən edilməsi və cinayət prosesini həyata keçirən orqanın sərəncamına verilməsi üçün görülən tədbirlər;

467-13.10.2. təqsirləndirilən şəxsin hüquqi yardım almaq və müdafiə hüququnun təmin edilməsi;

467-13.10.3. təqsirləndirilən şəxsin bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş qaydada axtarışı və verilməsi (ekstradisiyası) üçün görülmüş tədbirlər.

467-13.11. Cinayət təqibi üzrə qiyabi icraatın açılması məsələsi ilə bağlı məhkəmə qərarının surəti, həmin qərar çıxarıldıqdan sonra 3 gündən gec olmayaraq vəsatəti vermiş şəxsə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora, təqsirləndirilən şəxsin müdafiəçisinə və təqsirləndirilən şəxsə (istintaqdan və ya məhkəmədən gizlənməsi müəyyən edildiyi hallar istisna olmaqla) məhkəmə tərəfindən göndərilir.

**Maddə 467-14. Məhkəməyədək icraat zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

467-14.1. Müstəntiq tərəfindən ittiham aktı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə müstəntiq dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir və bu barədə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verir. Cinayət işinə ittiham aktı ilə birlikdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən baxılarkən təqsirləndirilən şəxs könüllü gəldikdə və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildikdə prokuror dərhal bu Məcəllənin 290.3.3-1-ci maddəsində nəzərdə tutulmuş qərarı qəbul edir.

467-14.2. Bu Məcəllənin 467-14.1-ci maddəsində nəzərdə tutulmuş qərar çıxarıldığı vaxtdan cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada davam etdirilir.

467-14.3. Təqsirləndirilən şəxs könüllü gəldiyi və ya cinayət prosesini həyata keçirən orqanın sərəncamına verildiyi gün müstəntiq təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-14.4-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bu barədə protokol tərtib edir və onu bu Məcəllənin 284 – 286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış edir.

467-14.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxs və onun müdafiəçisi təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi barədə vəsatət verə bilər. Vəsatətə bu Məcəllənin 287.2-ci maddəsində nəzərdə tutulmuş qaydada və müddətdə baxılır.

467-14.5. Bu Məcəllənin 467-14.4-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya müstəntiqin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər.

**Maddə 467-15. Məhkəmə icraatı zamanı cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi**

467-15.1. Məhkəmə hökm və ya digər yekun qərar çıxarmaq üçün müşavirə otağına gedənədək təqsirləndirilən şəxs könüllü gəldikdə və ya məhkəmənin sərəncamına verildikdə məhkəmə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar qəbul edir. Həmin qərar qəbul edildikdən sonra məhkəmə icraatı bu Məcəllə ilə müəyyən edilmiş ümumi qaydada aparılır.

467-15.2. Cinayət təqibi üzrə qiyabi icraata xitam verilməsi haqqında qərar çıxarıldıqdan sonra məhkəmə təqsirləndirilən şəxsə bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş hüquq və vəzifələrini, o cümlədən bu Məcəllənin 467-15.3-cü maddəsinə uyğun olaraq vəsatət vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir və onun bu Məcəllənin 284–286-cı maddələrində nəzərdə tutulmuş qaydada cinayət işinin materialları ilə tanış olmasını təmin edir.

467-15.3. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində təqsirləndirilən şəxsin, onun müdafiəçisinin və dövlət ittihamçısının məhkəməyə aşağıdakılar barədə vəsatət vermək hüququ vardır:

467-15.3.1. təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlərin keçirilməsi;

467-15.3.2. cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması.

467-15.4. Bu Məcəllənin 467-15.3-cü maddəsində nəzərdə tutulmuş vəsatət əsasında və ya məhkəmənin öz təşəbbüsü ilə cinayət təqibi üzrə qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə, əlavə istintaq və digər prosessual hərəkətlər aparıla, habelə cinayət işinin baxılmasına xitam verilməsi və onun hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarılması haqqında qərar qəbul edilə bilər.

**Maddə 467-16. Qiyabi hökm və ya digər yekun qərarın çıxarılması**

467-16.1. Qiyabi hökm və ya digər yekun qərar bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi qaydada çıxarılır və icra edilir.

467-16.2. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs Azərbaycan Respublikasının hüdudlarından kənarda olduqda qiyabi hökmün və ya digər yekun qərarın icra olunması üçün bu Məcəllədə və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş tədbirlər görülür.

**Maddə 467-17. Qanuni qüvvəyə minmiş qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi**

467-17.1. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir.

467-17.2. Təqdimatın daxil olduğu vaxtdan 10 gün müddətində məhkəmə hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında iclas təyin edir. Məhkəmənin iclasında barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs, müdafiəçi və prokurorun iştirakı məcburidir.

467-17.3. Məhkəmə barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə vermək hüququnu izah edir, bunu məhkəmə iclasının protokoluna daxil edir, barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxsə və onun müdafiəçisinə 10 gün müddətində cinayət işinin materialları ilə tanış olmaq üçün şərait yaradır. Cinayət işinin həcminin böyüklüyü ilə əlaqədar barəsində qiyabi hökm və ya digər yekun

qərar çıxarılmış şəxsin və ya onun müdafiəçisinin vəsatəti əsasında həmin müddət 30 günədək uzadılır.

467-17.4. Cinayət işinin materialları ilə tanışlıq başa çatdığı vaxtdan 48 saat ərzində barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verməzsə, hakim qiyabi hökmün və ya digər yekun qərarın icrası barədə göstəriş verir və qiyabi hökm və ya digər yekun qərar ümumi qaydada icra olunur.

467-17.5. Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs və ya onun müdafiəçisi qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə ərizə verdikdə, həmin qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi barədə qərar qəbul edilir və yeni məhkəmə baxışının keçirilməsi məqsədilə bu Məcəllənin 298 – 307-ci maddələrində nəzərdə tutulmuş tədbirlər görülür.”.

23. Aşağıdakı məzmunda 519.4-cü maddə əlavə edilsin:

“519.4. Qiyabi hökm və ya digər yekun qərar qanuni qüvvəyə mindikdən sonra barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs könüllü gəldikdə və ya cəzanı icra edən orqanın sərəncamına verildikdə qiyabi hökm və ya digər yekun qərar çıxarmış məhkəmə cəzanı icra edən orqanın təqdimatı əsasında qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi məsələsinə baxır.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 22 dekabr 2023-cü il

§

**“Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1061-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-1.2-ci maddəsinin birinci cümləsində və 54-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.2. həmin Məcəllənin 54-1.4-cü və 54-4-cü maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

1.3. həmin Məcəllənin 54-1.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 54-1.2-ci maddəsinin birinci cümləsinə uyğun olaraq, cinayət mühakimə icraatında prosessual sənədin verilməsi barədə qəbzin formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. həmin Məcəllənin 54-2.2-ci maddəsinə uyğun olaraq, cinayət prosesini həyata keçirən orqana çağırış vərəqəsinin formasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22

dekabr tarixli 1061-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 yanvar tarixli 2448 nömrəli Fərmanı) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. beşinci abzasda "131-1.4-cü maddəsində" sözləri "54-1.2-ci maddəsinin birinci cümləsində, 54-2.2, 131-1.4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. doqquzuncu abzasa "438.3" rəqəmlərindən əvvəl "54-1.6," rəqəmləri əlavə olunsun və həmin abzasda "müvafiq icra hakimiyyəti orqanları"nın" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin;

3.3. səkkizinci – iyirmi ikinci abzaslar müvafiq olaraq doqquzuncu – iyirmi üçüncü abzaslar hesab olunsun və aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 54-1.4-cü və 54-4-cü maddələrinin birinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;".

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 26 yanvar 2024-cü il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4,

maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016, № 11, maddələr 1761, 1763, № 12, maddə 2047; 2017, № 2, maddə 155, № 4, maddə 523, № 5, maddələr 706, 750, № 11, maddələr 1935, 1975; 2018, № 5, maddə 879, № 8, maddə 1672, № 11, maddələr 2209, 2225, № 12 (I kitab), maddələr 2524, 2534; 2019, № 1, maddə 23, № 5, maddələr 792, 812, № 7, maddə 1197, № 12, maddələr 1897, 1907; 2020, № 7, maddə 832, № 11, maddə 1333; 2021, № 4, maddə 309, № 7, maddələr 711, 713, № 8, maddə 894, № 12, maddə 1346; 2022, № 6, maddə 580, № 8, maddə 828; 2023, № 1, maddələr 19, 23, 40, № 2, maddə 200, № 6, maddə 742, № 7, maddə 892, № 8 (I kitab), maddə 1111; Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1008-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 4.6-cı maddədə "Kommersiya mübahisələri, həmçinin ailə" sözləri "Ailə" sözü ilə əvəz edilsin.

2. 29-cu maddə üzrə:

2.1. adında "münsiflər" sözü "arbitraj" sözü ilə əvəz edilsin;

2.2. mətnində "münsiflər" sözü "arbitraj" sözü ilə əvəz edilsin və həmin maddədən ", işdə iştirak edən şəxslərin yazılı razılığı ilə" sözləri çıxarılsın.

3. 73.3-cü maddə ləğv edilsin.

4. 74.2-ci maddədə, 167.1.5-ci maddədə və 183-cü maddənin üçüncü cümləsində "münsiflər" sözü "arbitraj" sözü ilə əvəz edilsin.

5. 85.1-ci maddəyə "şəxslər" sözündən sonra ", o cümlədən arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi" sözləri əlavə edilsin.

6. 86-cı maddə üzrə:

6.1. 86.1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi ərizəni arbitrajın yeri üzrə kommersiya məhkəməsinə, arbitrajın yeri müəyyənləşdirilməmişdirsə və ya xarici ölkədədirsə, yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq kommersiya məhkəməsinə də verə bilərlər.";

6.2. 86.2-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi tərəfindən sübutların təmin edilməsi haqqında ərizənin verilməsinə həmçinin bu Məcəllənin 479-cu və 480-ci maddələrinin tələbləri tətbiq edilir.".

7. 87-ci maddə üzrə:

7.1. 87.3-cü maddəyə "şəxslər" sözündən sonra ", həmçinin arbitraj icraatının tərəfləri və ya ərizənin arbitraj məhkəməsi tərəfindən verildiyi halda arbitraj məhkəməsi" sözləri əlavə edilsin;

7.2. 87.5-ci maddəyə "məhkəməyə" sözündən sonra ", həmçinin ərizə arbitraj icraatının tərəfləri və ya arbitraj məhkəməsi tərəfindən verildikdə, arbitraj məhkəməsinə" sözləri, "və işdə iştirak edən şəxslərə" sözlərindən sonra "və ya arbitraj icraatının tərəfləri və yaxud arbitraj məhkəməsinə" sözləri əlavə edilsin.

8. 104.4.6-cı maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 104.4.7-ci maddə əlavə edilsin:

"104.4.7. arbitraj icraatı zamanı məlum olan hallar barədə – arbitrlər.".

9. 108-ci maddə üzrə:

9.1. 108.1.5-ci maddəyə "verildikdə" sözündən sonra "(arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizələr istisna olmaqla)" sözləri əlavə edilsin;

9.2. 108.1.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 108.1.10 – 108.1.14-cü maddələr əlavə edilsin:

"108.1.10. arbitraja münasibətdə yardım və nəzarət funksiyalarının yerinə yetirilməsi ilə bağlı ərizələr verildikdə;

108.1.11. müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizələr verildikdə;

108.1.12. arbitraj məhkəmələrinin qərarlarının ləğv edilməsi ilə bağlı ərizələr verildikdə;

108.1.13. yerli arbitraj məhkəmələrinin qərarlarının məcburi icrasının təmin edilməsi ilə bağlı ərizələr verildikdə;

108.1.14. xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası ilə bağlı ərizələr verildikdə.".

10. 120-ci maddənin birinci cümləsindən "və ya iddiaya qarşı mübahisə etmiş" və "və ya dövlətin" sözləri çıxarılsın.

11. 153.2.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

"153.2.3. məhkəmə, eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair arbitraj məhkəməsinin qərarının tanınmasından və ya məcburi icrasının təmin edilməsindən imtina etdiyi hallar istisna olmaqla, arbitraj məhkəməsinin qanuni qüvvəyə minmiş qərarı olarsa;".

12. 157-ci maddə üzrə:

12.1. 157.1-ci maddəyə "şəxslərin" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinin" sözləri əlavə edilsin;

12.2. 157.2-ci maddəyə "cavabdehin" sözündən sonra ", arbitraj mübahisəsi tərəfinin" sözləri əlavə edilsin;

12.3. 157.3-cü maddəyə "gedişində" sözündən sonra ", habelə mübahisənin arbitraj məhkəməsi tərəfindən həll edilməsi üçün arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı" sözləri əlavə edilsin;

12.4. 157.4-cü maddənin birinci cümləsinə "verilənədək" sözündən sonra "və ya arbitraj icraatının başlanılmasına qədər" sözləri, üçüncü cümləsinə "verilərsə" sözündən sonra "və ya arbitraj icraatı başlanarsa" sözləri əlavə edilsin;

12.5. aşağıdakı məzmunda 157.8-ci və 157.9-cu maddələr əlavə edilsin:

"157.8. Arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə verilən məhkəmə belə ərizəni vermiş arbitraj mübahisəsi tərəfindən uyğun təminatın verilməsini tələb edə bilər. Təminat məhkəmənin mülahizəsinə əsasən bank qarantiyası formasında və ya təminat üçün müəyyən edilmiş pul məbləğinin notariusun depozit hesabına qoyulması yolu ilə təqdim edilə bilər. Belə təminatın təqdim edilməməsi müvəqqəti təminat tədbirinin tətbiqi barədə ərizənin rədd edilməsi üçün əsasdır.

157.9. Arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizəyə həmçinin bu Məcəllənin 479-cu maddəsində müəyyən edilmiş tələblər tətbiq edilir.".

13. 158-ci maddə üzrə:

13.1. 158.1.1-ci maddəyə "cavabdehdə" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfində" sözləri, "cavabdehə" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinə" sözləri əlavə edilsin;

13.2. 158.1.2-ci maddəyə "cavabdehə" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinə" sözləri əlavə edilsin;

13.3. 158.3.1-ci maddəyə "cavabdehin" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinin" sözləri əlavə edilsin;

13.4. 158.4-cü maddəyə "Cavabdehin" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinin" sözləri əlavə edilsin;

13.5. 158.6-cı maddəyə "şəxslər" sözündən sonra "və ya arbitraj mübahisəsində maraqlı şəxslər" sözləri əlavə edilsin.

14. 159-cu maddə üzrə:

14.1. 159.3-cü maddəyə "şəxslərə" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinə" sözləri əlavə edilsin;

14.2. 159.4.2-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 159.4.3-cü maddə əlavə edilsin:

"159.4.3. arbitraj icraatının başlanılmasına qədər və ya arbitraj icraatı zamanı müvəqqəti təminat tədbirinin tətbiqi haqqında ərizə bu Məcəllənin 479-cu maddəsində müəyyən edilmiş tələblərə cavab vermədikdə.";

14.3. 159.5-ci maddədə "159.4.1-ci və 159.4.2-ci" sözləri "159.4.1 – 159.4.3-cü" sözləri ilə əvəz edilsin.

15. 161-ci maddə üzrə:

15.1. 161.1-ci maddəyə "şəxsin" sözündən sonra "və ya arbitraj mübahisəsi tərəfinin" sözləri əlavə edilsin;

15.2. 161.2-ci və 161.3-cü maddələr müvafiq olaraq 161.3-cü və 161.4-cü maddələr hesab edilsin və aşağıdakı məzmunda 161.2-ci maddə əlavə edilsin:

"161.2. Arbitraj mübahisəsi tərəfləri müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsas olmuş hallarda baş vermiş əhəmiyyətli dəyişikliklər, habelə arbitraj icraatının başa çatması və mübahisəni mahiyyəti üzrə həll edən yekun arbitraj qərarının çıxarılması barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi əsasında müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi barədə qərardad qəbul edə bilər.";

15.3. 161.3-cü maddənin ikinci cümləsinə "İşdə iştirak edən şəxslər" sözlərindən sonra "və ya arbitraj mübahisəsi tərəfləri" sözləri əlavə edilsin.

16. 162-ci maddə üzrə:

16.1. 162.1-ci maddəyə "şəxslərin," sözündən sonra "arbitraj mübahisəsi tərəflərinin," sözləri əlavə edilsin;

16.2. 162.2-ci maddənin ikinci cümləsinə "şəxslər" sözündən sonra "və ya arbitraj mübahisəsinin tərəfləri" sözləri əlavə edilsin;

16.3. aşağıdakı məzmunda 162.5-ci maddə əlavə edilsin:

"162.5. Arbitraj mübahisəsi tərəfləri müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsas olmuş hallarda baş vermiş əhəmiyyətli dəyişikliklər, habelə arbitraj icraatının başa çatması və mübahisəni mahiyyəti üzrə həll edən yekun arbitraj qərarının çıxarılması barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi əsasında müvəqqəti təminat tədbirinin ləğvi, habelə müvəqqəti təminat tədbirinin nə zaman qüvvədən düşəcəyi barədə qərardad qəbul edir.".

17. 164-cü maddənin mətni 164.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 164.2-ci maddə əlavə edilsin:

"164.2. Müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsasların olmadığı sonradan müəyyən edilərsə, arbitraj mübahisəsində maraqlı şəxs məhkəmə tərəfindən təyin edilmiş müvəqqəti təminat tədbirlərinin tətbiqi nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini bu tədbirlərin tətbiq edilməsi üçün məhkəməyə ərizə vermiş tərəfdən məhkəmə qaydasında tələb edə bilər.".

18. 255.0.7-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 255.0.8-ci maddə əlavə edilsin:

"255.0.8. arbitraj qərarının ləğv edilməsi üçün müraciət edilən məhkəmənin arbitraj məhkəməsinə arbitraj icraatını yenidən başlamaq və ya arbitraj məhkəməsinin mövqeyinə əsasən, arbitraj qərarının ləğv edilməsinə əsas olan halları aradan qaldıracaq digər hərəkətləri etmək imkanı verməyi məqsədəuyğun hesab etdiyi hallarda.".

19. 259.0.5-ci maddədə "münsiflər məhkəməsində baxılması üçün müqavilə" sözləri "arbitraj məhkəməsində baxılması üçün arbitraj sazişi" sözləri ilə, "cavabdeh" sözü "tərəflərdən hər hansı biri" sözləri ilə əvəz edilsin və həmin maddəyə "olarsa" sözündən sonra ", yaxud belə etiraz məhkəmə baxışı zamanı daxil olarsa, o şərtlə ki, tərəflər işə baxılmasına qədər etirazın edilməsinin ondan asılı olmayan səbəblərə görə mümkün olmadığını əsaslandırsın" sözləri əlavə edilsin.

20. 261.0.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"261.0.6. eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair məhkəmənin arbitraj məhkəməsinin qərarının tanınmasından və ya məcburi icrasının təmin edilməsindən imtina etdiyi hallar istisna olmaqla, arbitraj məhkəməsinin qanuni qüvvəyə minmiş qərarı olarsa;".

21. 47-ci fəslin adında "və arbitrajların qətnamələrinin icrası və tanınması" sözləri "qətnamələrinin tanınması və icrası" sözləri ilə əvəz edilsin.

22. 462-ci maddə üzrə:

22.1. adında "və arbitrajların qətnamələrinin icrası və tanınması" sözləri "qətnamələrinin tanınması və icrası" sözləri ilə əvəz edilsin;

22.2. mətnindən "və arbitrajlarının" sözləri çıxarılsın və həmin maddədə "icra edilə və tanına" sözləri "tanına və icra edilə" sözləri ilə əvəz edilsin.

23. 463-cü maddənin mətnindən "və arbitrajlarının" və "arbitraj məhkəmələrinin qətnamələri," sözləri çıxarılsın.

24. 464-cü maddə üzrə:

24.1. adında "və arbitraj qətnamələrinin icrası və tanınması" sözləri "qətnamələrinin tanınması və icrası" sözləri ilə əvəz edilsin;

24.2. mətnində "dövlət məhkəmələri və arbitrajlarının qətnamələrinin məcburi qaydada icra olunması və tanınması" sözləri "dövlətlərin məhkəmələrinin qətnamələrinin tanınması və məcburi qaydada icra olunması" sözləri ilə əvəz edilsin.

25. 465-ci maddə üzrə:

25.1. adında "və arbitrajlarının qətnamələrini məcburi qaydada icra etməkdən və tanımaqdan" sözləri "qətnamələrini tanımaqdan və məcburi qaydada icra etməkdən" sözləri ilə əvəz edilsin;

25.2. 465.2-ci maddənin birinci və ikinci cümlələrində "məcburi icrası və tanınması" sözləri "tanınması və məcburi icrası" sözləri ilə əvəz edilsin.

26. 50-ci fəslin adı aşağıdakı redaksiyada verilsin:

**"Fəsil 50**

**XARİCİ ARBİTRAJ MƏHKƏMƏLƏRİNİN QƏRARLARININ TANINMASI VƏ İCRASI".**

27. 474-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası qaydası "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası, "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu və bu fəslin müddəaları ilə tənzimlənir.".

28. Aşağıdakı məzmunda 474-1-ci maddə əlavə edilsin:

**"Maddə 474-1. Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası barədə ərizələrə baxan məhkəmə**

Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası barədə ərizələrə Azərbaycan Respublikasının Ali Məhkəməsi baxır.".

29. 475-ci və 476-cı maddələr aşağıdakı redaksiyada verilsin:

**"Maddə 475. Xarici arbitraj məhkəməsinin qərarının tanınması və icrası barədə ərizə**

475.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

475.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

475.2.1. ərizənin verildiyi məhkəmənin adı;

475.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

475.2.3. qərarı qəbul etmiş xarici arbitraj məhkəməsinin tərkibi;

475.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə etmişdirsə);

475.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

475.2.6. arbitraj məhkəməsi qərarının tanınması və icrası tələbi;

475.2.7. əlavə edilən sənədlərin siyahısı.

475.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

475.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

475.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar;

475.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

475.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

475.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

475.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

475.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

475.4.7. ərizənin surəti.

**Maddə 476. Xarici arbitraj məhkəməsinin qərarını tanımaqdan və ya icra etməkdən imtina**

476.1. Xarici arbitraj məhkəməsinin qərarının tam və ya qismən tanınmasından və ya icra edilməsindən yalnız aşağıdakı hallarda imtina edilə bilər:

476.1.1. əleyhinə qərar çıxarılmış tərəf tanınma və ya icra haqqında ərizəyə baxan məhkəməyə aşağıdakı sübutları təqdim etdikdə:

476.1.1.1. arbitraj sazişinin tərəflərindən birinin ona münasibətdə tətbiq edilən qanunvericiliyə uyğun olaraq həmin sazişin bağlandığı vaxtda fəaliyyət qabiliyyəti olmayan şəxs olması və ya arbitraj sazişinin tərəflərin həmin sazişə tətbiq etdikləri qanunvericiliyə və ya sazişdə belə göstəriş olmadıqda arbitraj qərarının çıxarıldığı dövlətin qanunvericiliyinə əsasən etibarsız olması barədə;

476.1.1.2. əleyhinə qərar çıxarılmış tərəfin arbitrin təyin edilməsi və ya arbitraj icraatı haqqında müvafiq qaydada xəbərdar edilməməsi və ya başqa səbəblərdən ona öz etiraz və sübutlarını təqdim etmək imkanının yaradılmaması barədə;

476.1.1.3. qərarın tərəflərin arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılması və yaxud qərarın arbitraj sazişinin və ya iddia tələbinin hədlərindən kənara çıxan məsələləri əhatə etməsi barədə (arbitraj sazişi və ya iddia tələbi ilə əhatə olunan məsələlər üzrə qərarlar bu saziş və ya iddia tələbi ilə əhatə olunmayan məsələlər üzrə qərarlardan ayrıla bildikdə, arbitraj sazişi və ya iddia tələbi ilə əhatə olunan məsələlər üzrə qərarları ehtiva edən hissələr tanına və icraya yönəldilə bilər);

476.1.1.4. arbitraj məhkəməsinin tərkibinin və ya arbitraj icraatının tərəflərin razılaşmasına və ya belə razılaşma olmadıqda arbitrajın keçirildiyi yerin qanunvericiliyinə uyğun olmaması barədə;

476.1.1.5. qərarın tərəflər üçün məcburi hüquqi qüvvəyə minməməsi və ya qərarın çıxarıldığı və ya qanunvericiliyinə uyğun olaraq çıxarıldığı dövlətin məhkəməsi tərəfindən ləğv edilməsi və ya icrasının dayandırılması barədə;

476.1.2. məhkəmə aşağıdakı halları müəyyən etdikdə:

476.1.2.1. mübahisənin Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən arbitrajda həll edilə bilməməsini;

476.1.2.2. arbitraj qərarının tanınmasının və icrasının Azərbaycan Respublikasının Konstitusiyasına və ya publik qaydaya, yəni xarakterinə görə imperativ, universal və xüsusi ictimai əhəmiyyətə malik olan, Azərbaycan Respublikasının siyasi, iqtisadi və hüquqi quruluşunun əsasını təşkil edən fundamental hüquqi əsaslara (prinsiplərə) zidd olduğunu.

476.2. Bu Məcəllənin 476.1.1.5-ci maddəsində göstərilən məhkəməyə arbitraj qərarının ləğvi haqqında ərizə verilmişdirsə, arbitraj qərarının tanınması və ya icra edilməsi üçün müraciət edilən məhkəmə zəruri hesab etdiyi təqdirdə öz qərarının çıxarılmasını təxirə sala və arbitraj qərarının tanınması və ya icrası barədə ərizə vermiş tərəfin vəsatəti ilə digər tərəfdən uyğun təminatın təqdim edilməsini tələb edə bilər. Təminat məhkəmənin mülahizəsinə əsasən bank qarantiyası formasında və ya təminat üçün müəyyən edilmiş pul məbləğinin notariusun depozit hesabına qoyulması yolu ilə təqdim edilə bilər.

476.3. Arbitraj qərarının tanınması və ya icrası haqqında ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyəti yoxdur.

476.4. Xarici arbitraj məhkəməsinin qərarının tanınması və icraya yönəldilməsi haqqında ərizəyə onun məhkəməyə daxil olduğu gündən 3 (üç) ay müddətində baxılır.

476.5. Məhkəmə arbitraj məhkəməsinin qərarının tam və ya qismən tanınması və icrası və ya bundan imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin qərarının tam və ya qismən tanınması və icrası haqqında qərar əsasında icra vərəqəsi verilir.”.

30. 477-ci maddə ləğv edilsin.

31. Aşağıdakı məzmunda beşinci bölmə əlavə edilsin:

**“Beşinci bölmə**

**ARBİTRAJA MÜNASİBƏTDƏ YARDIM VƏ NƏZARƏT FUNKSİYALARININ YERİNƏ YETİRİLMƏSİ İLƏ BAĞLI İŞLƏR ÜZRƏ İCRAAT**

**Fəsil 51**

**ARBİTRAJA MÜNASİBƏTDƏ YARDIM FUNKSİYALARININ YERİNƏ YETİRİLMƏSİ İLƏ BAĞLI İŞLƏR ÜZRƏ İCRAAT**

**Maddə 478. Arbitraja münasibətdə məhkəmənin yardım funksiyaları və ərizənin verilməsi**

478.1. Tərəflər arasında digər razılıq yoxdursa, məhkəmələr arbitraja münasibətdə aşağıdakı yardım funksiyalarını yerinə yetirirlər:

478.1.1. arbitrin təyin edilməsi ilə bağlı məsələlərin həlli;

478.1.2. arbitrə etiraz edilməsi ilə bağlı məsələlərin həlli;

478.1.3. arbitrin səlahiyyətlərinə (mandatına) xitam verilməsi ilə bağlı məsələlərin həlli;

478.1.4. müvəqqəti təminat tədbirlərinin tətbiqi;

478.1.5. sübutların təmin edilməsinə dair yardım.

478.2. Məhkəmənin yardım funksiyalarının yerinə yetirilməsi ilə bağlı "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada və hallarda arbitraj sazişinin tərəfi, yaxud arbitraj məhkəməsi müraciət edə bilər.

478.3. Bu Məcəllənin 478.1.2-ci və 478.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda ərizə müraciət edən şəxsin müraciətə əsas verən halları bildiyi və ya bilməli olduğu gündən 30 (otuz) gün ərzində verilir.

478.4. Bu Məcəllənin 478.1.1 – 478.1.5-ci maddələrində göstərilən yardım funksiyalarına münasibətdə ərizə arbitrajın yeri üzrə Azərbaycan Respublikası ərazisində kommersiya məhkəməsinə, bu Məcəllənin 478.1.4-cü və 478.1.5-ci maddələrində göstərilən yardım funksiyalarına münasibətdə isə arbitrajın yeri müəyyənləşdirilməmişdirsə və ya xarici ölkədədirsə, yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq kommersiya məhkəməsinə verilir.

478.5. Sübutların təmin edilməsinə dair yardım üzrə işlərdə ərizə həmçinin müvafiq prosessual hərəkətlərin yerinə yetirilməli olduğu yer üzrə kommersiya məhkəməsinə verilə bilər.

478.6. Tərəflərin razılığı olduğu təqdirdə, beynəlxalq arbitraja münasibətdə arbitrajın yeri müəyyənləşdirilmədikdə və arbitraj mübahisəsi tərəflərindən azı birinin sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu yer və ya tərəf sahibkarlıq fəaliyyəti ilə məşğul olmadıqda, həmin tərəfin adətən yaşadığı yer (tərəf fiziki şəxsdirsə) və ya daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yer (tərəf hüquqi şəxsdirsə) Azərbaycan Respublikası ərazisində yerləşdikdə, bu Məcəllənin 478.1.1 – 478.1.3-cü maddələrində qeyd edilən yardım funksiyalarına münasibətdə ərizə yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq kommersiya məhkəməsinə verilir.

**Maddə 479. Ərizənin forması və məzmunu**

479.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

479.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

479.2.1. ərizənin verildiyi məhkəmənin adı;

479.2.2. arbitrajın yeri;

479.2.3. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

479.2.4. mübahisəyə baxan arbitraj məhkəməsinin tərkibi (əgər arbitraj məhkəməsi təşkil olunmuşdursa);

479.2.5. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə edirsə);

479.2.6. məhkəməyə müraciət etmək üçün əsas olan hallar;

479.2.7. müraciət edənin xahişi;

479.2.8. əlavə edilən sənədlərin siyahısı.

479.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

479.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

479.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar (bu Məcəllənin 480.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla);

479.4.2. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

479.4.3. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

479.4.4. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

479.4.5. arbitraj sazişi xarici dildədirsə, bu sənədin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

479.4.6. ərizənin surəti.

**Maddə 480. Ərizəyə baxılması qaydası və nəticələri**

480.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən 30 (otuz) gün ərzində (bu Məcəllənin 478.1.1 – 478.1.3-cü maddələrində göstərilən yardım funksiyalarına münasibətdə) bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş birinci instansiya məhkəməsi tərəfindən işə baxılması qaydalarına uyğun olaraq baxılır.

480.2. Bu Məcəllənin 478.1.4-cü maddəsində müəyyən edilmiş yardım funksiyalarına dair ərizələrə bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllənin 13-cü fəslində müəyyən edilmiş qaydada baxılır.

480.3. Bu Məcəllənin 478.1.5-ci maddəsində müəyyən edilmiş yardım funksiyalarına dair ərizələrə bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllənin 85 – 87-ci maddələrinin tələblərinə uyğun olaraq baxılır.

480.4. Arbitraj mübahisəsinin tərəfləri məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər. Lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

480.5. Tərəflər arasında digər razılaşma yoxdursa və müvəqqəti təminat tədbirləri barəsində əvvəlcədən məlumat verilməsi belə tədbirlərin tətbiqinin məqsədinə xələl gətirə bilərsə, məhkəmə müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarı bu tədbirlərin yönəldiləcəyi tərəfə xəbər vermədən qəbul edə bilər.

480.6. Məhkəmə işə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq ərizəçinin tələblərinin təmin edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir.

480.7. İşin həllinə dair məhkəmənin qərarı bu Məcəllə ilə müəyyən edilmiş qaydada qəbul edilir. Bu Məcəllənin 478.1.1 – 478.1.3-cü və 478.1.5-ci maddələrində nəzərdə tutulmuş məsələlər üzrə məhkəmə qərarlarından şikayət verilə bilməz. Bu Məcəllənin 478.1.4-cü maddəsində nəzərdə tutulmuş məsələlər üzrə məhkəmə qərarlarından bu Məcəllə müəyyən edilmiş qaydada və müddətdə apellyasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

**Fəsil 52**

**YERLİ ARBİTRAJ MƏHKƏMƏLƏRİNİN QƏRARLARINDAN VERİLMİŞ ŞİKAYƏTLƏR ÜZRƏ İCRAAT**

**Maddə 481. Arbitraj məhkəməsinin qərarından məhkəməyə şikayət verilməsi**

481.1. Arbitraj icraatının tərəfləri arbitraj məhkəməsinin qərarının ləğv edilməsi haqqında məhkəməyə ərizə verə bilərlər.

481.2. Arbitraj məhkəməsinin qərarının ləğv edilməsi haqqında ərizə "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş müddətlər ərzində arbitrajın yeri üzrə kommersiya məhkəməsinə verilir.

**Maddə 482. Ərizənin forması və məzmunu**

482.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

482.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

482.2.1. ərizənin verildiyi məhkəmənin adı;

482.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu

halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

482.2.3. qərarı qəbul etmiş arbitraj məhkəməsinin tərkibi;

482.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə edirsə);

482.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

482.2.6. müraciət edən şəxsin arbitraj məhkəməsinin qərarını aldığı tarix;

482.2.7. müraciət edən şəxsin tələbi və onu əsaslandırdığı hallar;

482.2.8. əlavə edilən sənədlərin siyahısı.

482.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

482.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

482.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar;

482.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

482.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

482.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

482.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

482.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

482.4.7. ərizənin surəti.

482.5. Ərizənin bu Məcəllənin 482-ci maddəsi ilə müəyyən olunmuş formasına və məzmununa riayət edilmədikdə, yaxud bu Məcəllənin 152.1.2-ci, 152.1.3-cü, 152.1.5-ci və 152.1.9-cu maddələri ilə müəyyən edilmiş əsaslar olduqda hakim ərizəni və ona əlavə olunmuş sənədləri geri qaytarır. Ərizənin qaytarılması həmin nöqsanlar aradan qaldırıldıqdan sonra ümumi qaydada yenidən məhkəməyə müraciət etməyə mane olmur.

**Maddə 483. Arbitraj qərarının ləğvi üçün əsaslar**

483.1. Arbitraj qərarı məhkəmə tərəfindən aşağıdakı hallarda tam və ya qismən ləğv edilə bilər:

483.1.1. ərizəni verən tərəf aşağıdakı sübutları təqdim etdikdə:

483.1.1.1. arbitraj sazişinin tərəflərindən birinin ona münasibətdə tətbiq edilən qanunvericiliyə uyğun olaraq həmin sazişin bağlandığı vaxtda fəaliyyət qabiliyyəti olmayan şəxs olması və ya arbitraj sazişinin tərəflərin

həmin sazişə tətbiq etdikləri qanunvericiliyə və ya sazişdə bu barədə göstəriş olmadıqda Azərbaycan Respublikasının qanunvericiliyinə görə etibarsız olması barədə;

483.1.1.2. ərizəni verən tərəfin arbitrin təyin edilməsi və ya arbitraj icraatı haqqında müvafiq qaydada xəbərdar edilməməsi və ya başqa səbəblərdən ona öz etiraz və sübutlarını təqdim etmək imkanının yaradılmaması barədə;

483.1.1.3. qərarın arbitraj sazişində nəzərdə tutulmayan və ya onun şərtlərinə aid olmayan mübahisə üzrə çıxarılması, yaxud qərarın arbitraj sazişinin və ya iddia tələbinin hədlərindən kənara çıxan məsələləri əhatə etməsi barədə (arbitraj sazişini və ya iddia tələbini əhatə edən məsələlər üzrə qərarlar həmin sazişin və ya iddia tələbinin əhatə etmədiyi məsələlər üzrə qərarlardan ayrıla bilərsə, yalnız arbitraj sazişi və ya iddia tələbi ilə əhatə olunmayan məsələlər üzrə qərarları ehtiva edən hissələr ləğv edilə bilər);

483.1.1.4. arbitraj məhkəməsinin tərkibinin və ya arbitraj icraatının tərəflərin razılaşmasına və ya belə razılaşma olmadıqda, "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olmaması barədə;

483.1.2. məhkəmə aşağıdakıları müəyyən etdikdə:

483.1.2.1. Azərbaycan Respublikasının qanunvericiliyinə görə mübahisənin arbitrajda həll edilə bilməməsini;

483.1.2.2. arbitraj qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və ya publik qaydaya zidd olduğunu.

**Maddə 484. Ərizəyə baxılma qaydası və nəticələri**

484.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən 30 (otuz) gün ərzində bu fəsil ilə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş birinci instansiya məhkəməsi tərəfindən işə baxılması qaydalarına uyğun olaraq baxılır.

484.2. İşə baxan məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə prosesin hazırlıq mərhələsində tərəflərdən və ya tərəflərə iş materiallarının təqdim edilmədiyi hallarda daimi arbitraj təşkilatından və ya arbitraj işinin materiallarını saxlamaq səlahiyyəti olan qurumdan ləğv edilməsi barədə ərizə verilmiş arbitraj qərarına aid iş materiallarını tələb edə bilər.

484.3. İşdə iştirak edən şəxslər məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər. Lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

484.4. Məhkəmə işə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq arbitraj məhkəməsinin qərarının ləğv edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir. Arbitraj qərarının ləğvi haqqında ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyəti yoxdur.

484.5. İşə baxılma nəticəsində məhkəmə arbitraj məhkəməsinin qərarının tam və ya qismən ləğv edilməsi və ya ləğv edilməsindən imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır.

484.6. Arbitraj qərarı ləğv edildikdə, arbitraj icraatının tərəfləri arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmamışdırsa və arbitraj sazişinin etibarsızlığı arbitraj qərarını ləğv edən qərar ilə müəyyən edilməmişdirsə, arbitraj sazişi qüvvədə qalır. Bu halda arbitraj icraatının tərəfləri müvafiq mübahisənin həll olunması üçün yenidən arbitraj məhkəməsinə müraciət edə bilərlər.

484.7. Arbitraj məhkəməsinin qərarının ləğv edilməsi və ya ləğv edilməsindən imtina barədə məhkəmə qərarlarından bu Məcəllə ilə müəyyən edilmiş qaydada və müddətdə apellyasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

**Maddə 485. Arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının ləğv edilməsi barədə ərizəyə baxılması**

485.1. Arbitraj icraatının tərəfləri “Arbitraj haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının ləğv edilməsi üçün arbitrajın yeri üzrə kommersiya məhkəməsinə ərizə ilə müraciət edə bilərlər.

485.2. Ərizə arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının alındığı gündən 30 (otuz) gün ərzində verilə bilər.

485.3. Məhkəmə tərəfindən ərizəyə baxılanadək arbitraj məhkəməsi mübahisənin həllinə dair qərar qəbul etdikdə, arbitraj icraatının başa çatması ilə əlaqədar ərizə baxılmamış saxlanılır. Bu halda müraciət edən tərəf arbitraj məhkəməsinin qərarının ləğv edilməsi və ya məcburi icrasının təmin edilməsi barədə işə baxılması zamanı bu Məcəllənin 485-ci maddəsində nəzərdə tutulmuş ərizəsinin əsasını təşkil edən hallara istinad etmək hüququnu itirmir.

485.4. İşə baxılması nəticəsində məhkəmə arbitraj məhkəməsinin öz səlahiyyəti haqqında ilkin qərarının ləğv edilməsi və ya ləğv edilməsindən imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin səlahiyyətli olmaması barədə məhkəmənin qəbul etdiyi qərardan apellyasiya instansiya məhkəməsinə şikayət verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

**Fəsil 53**

**YERLİ ARBİTRAJ MƏHKƏMƏSİNİN QƏRARININ MƏCBURİ İCRASININ TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI İŞLƏR ÜZRƏ İCRAAT**

**Maddə 486. Yerli arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi barədə məhkəməyə müraciət edilməsi**

486.1. Yerli arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi məsələsinə maraqlı tərəfin ərizəsi əsasında baxılır.

486.2. Yerli arbitraj məhkəməsinin qərarı arbitraj qərarında müəyyən edilmiş müddət ərzində və ya belə müddət müəyyən edilmədikdə, arbitraj qərarının çıxarıldığı gündən 3 (üç) ay ərzində könüllü icra edilmədikdə, arbitraj qərarının məcburi icrasının təmin edilməsi barədə məhkəməyə müraciət edilə bilər.

486.3. Yerli arbitraj məhkəməsinin qərarı məhkəmə tərəfindən bu Məcəllədə müəyyən edilmiş qaydada ləğv edilmişdirsə, bu qərarın məcburi icrasının təmin edilməsi barədə ərizə verilmiş məhkəmə ərizəni qəbul etməkdən imtina edir.

486.4. Ərizə borclunun yaşadığı (hüquqi şəxsin olduğu) yer üzrə, borclunun yaşadığı yer (hüquqi şəxsin olduğu yer) məlum olmadıqda isə əmlakının olduğu yer üzrə kommersiya məhkəməsinə verilir. Arbitraj icraatının tərəflərinin razılığı ilə ərizə arbitrajın keçirildiyi yer üzrə və ya ərizəni təqdim etmiş tərəfin yaşadığı (hüquqi şəxsin olduğu) yer üzrə kommersiya məhkəməsinə verilə bilər.

486.5. Ərizə arbitraj qərarının könüllü icrası müddətinin bitdiyi tarixdən 3 (üç) ildən gec olmayaraq verilə bilər.

**Maddə 487. Ərizənin forması və məzmunu**

487.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

487.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

487.2.1. ərizənin verildiyi məhkəmənin adı;

487.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

487.2.3. qərarı qəbul etmiş arbitraj məhkəməsinin tərkibi;

487.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə etmişdirsə);

487.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

487.2.6. arbitraj məhkəməsi qərarının məcburi icrasının təmin edilməsi tələbi;

487.2.7. əlavə edilən sənədlərin siyahısı.

487.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

487.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

487.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar;

487.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

487.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

487.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

487.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

487.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

487.4.7. ərizənin surəti.

**Maddə 488. Ərizəyə baxılma qaydası və nəticələri**

488.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən 30 (otuz) gün ərzində bu fəsildə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla, bu Məcəllədə nəzərdə tutulmuş birinci instansiya məhkəməsi tərəfindən işə baxılması qaydalarına uyğun olaraq baxılır.

488.2. İşə baxan məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə prosesin hazırlıq mərhələsində tərəflərdən və ya tərəflərə iş materiallarının təqdim edilmədiyi hallarda daimi arbitraj təşkilatından və ya arbitraj işinin materiallarını saxlamaq səlahiyyəti olan qurumdan məcburi icrasının təmin edilməsi barədə ərizə verilmiş arbitraj qərarına aid iş materiallarını tələb edə bilər.

488.3. Arbitraj icraatının tərəfləri məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

488.4. Məhkəmə işə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq arbitraj qərarının məcburi icrasının təmin edilməsindən imtina edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir. Yerli arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsinə dair ərizəyə baxarkən məhkəmənin arbitraj məhkəməsinin qərarına mahiyyəti üzrə yenidən baxmaq səlahiyyəti yoxdur.

488.5. Məhkəmə yalnız bu Məcəllənin 483.1-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə arbitraj məhkəməsinin qərarının məcburi icrasından imtina edə bilər.

488.6. Eyni məhkəmənin icraatında həm arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi, həm də həmin qərarın ləğv edilməsi barədə iş vardırsa, həmin işlər bu Məcəllənin 169.4-cü maddəsinə uyğun olaraq bir icraatda birləşdirilir.

488.7. Müxtəlif məhkəmələrin icraatında arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi və həmin qərarın ləğv edilməsi barədə işlər vardırsa, arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi barədə işi qəbul etmiş məhkəmə digər məhkəmədə iş həll edilənədək iş üzrə icraatı bu Məcəllənin 254.1.4-cü maddəsinə uyğun olaraq dayandırır.

488.8. Yerli arbitraj məhkəməsinin qərarının bu Məcəllənin 483-cü maddəsinin müddəalarına uyğun olaraq ləğv edilməsi barədə məhkəməyə müraciət edilmişdirsə, bu arbitraj qərarının ləğvi üçün irəli sürülmüş əsaslar arbitraj qərarının məcburi icrasının təmin edilməsi barədə müraciət edilən məhkəmə tərəfindən yenidən nəzərdən keçirilə bilməz.

488.9. İşə baxılma nəticəsində məhkəmə arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi və ya bundan imtina barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin qərarının tam və ya qismən məcburi icrasının təmin edilməsi haqqında qərar əsasında icra vərəqəsi verilir.

488.10. Arbitraj məhkəməsinin qərarının məcburi icrasının təmin edilməsi və ya bundan imtina barədə məhkəmə qərarlarından bu Məcəllə ilə müəyyən edilmiş qaydada və müddətdə apellyasiya şikayəti verilə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı qətidir.

**Fəsil 54**

**MÜVƏQQƏTİ TƏMİNAT TƏDBİRLƏRİNİN TƏTBİQİ BARƏDƏ ARBİTRAJ MƏHKƏMƏLƏRİNİN QƏRARLARININ TANINMASI VƏ İCRASI**

**Maddə 489. Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə məhkəməyə müraciət edilməsi**

489.1. Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası məsələsinə maraqlı tərəfin ərizəsi əsasında baxılır.

489.2. Təminatın təqdim edilməsi məsələsi üzrə arbitraj məhkəməsi tərəfindən qərar çıxarılmamışdırsa və ya belə qərarın çıxarılması üçüncü şəxslərin hüquqlarının qorunması üçün zəruridirsə, müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərarların tanınması və icrası haqqında ərizə verilən məhkəmə belə ərizəni vermiş arbitraj icraatı tərəfindən uyğun təminatın verilməsini tələb edə bilər. Təminat məhkəmənin mülahizəsinə əsasən bank qarantiyası formasında və ya təminat üçün müəyyən edilmiş pul məbləğinin notariusun depozit hesabına qoyulması yolu ilə təqdim edilə bilər.

489.3. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarın tanınması və ya icra olunması üçün müraciət etmiş arbitraj icraatı tərəfi həmin tədbirlər

arbitraj məhkəməsi tərəfindən ləğv edildikdə, icrası dayandırıldıqda və ya dəyişdirildikdə dərhal bu barədə məhkəməyə məlumat verməlidir.

**Maddə 490. Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə ərizələrə baxan məhkəmə**

Arbitraj məhkəmələrinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarlarının tanınması və icrası barədə ərizələrə yurisdiksiyası Bakı şəhərini əhatə edən müvafiq apellyasiya məhkəməsi baxır.

**Maddə 491. Ərizənin forması və məzmunu**

491.1. Ərizə məhkəməyə yazılı şəkildə verilir.

491.2. Ərizədə aşağıdakılar göstərilməlidir:

491.2.1. ərizənin verildiyi məhkəmənin adı;

491.2.2. arbitraj sazişinin tərəflərinin soyadı, adı, atasının adı (hüquqi şəxsə münasibətdə adı) və yaşadıqları (hüquqi şəxslərin olduqları) yer, olduğu halda – telefon nömrələri, o cümlədən mobil telefon nömrələri, elektron poçt ünvanı;

491.2.3. qərarı qəbul etmiş arbitraj məhkəməsinin tərkibi;

491.2.4. daimi arbitraj təşkilatının adı və olduğu yer (əgər arbitraj prosesini daimi arbitraj təşkilatı idarə edirsə);

491.2.5. arbitraj məhkəməsi qərarının tarixi və yeri;

491.2.6. arbitraj məhkəməsi qərarının tanınması və məcburi icrası tələbi;

491.2.7. əlavə edilən sənədlərin siyahısı.

491.3. Ərizə onu təqdim edən şəxs (şəxslər) və ya onun nümayəndəsi tərəfindən imzalanır. Nümayəndə tərəfindən verilən ərizəyə onun səlahiyyətlərini təsdiq edən sənəd əlavə edilməlidir.

491.4. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

491.4.1. ərizənin cavabdeh tərəfindən alındığını təsdiq edən sübutlar (bu Məcəllənin 493.3-cü maddəsinin müddəaları nəzərə alınmaqla);

491.4.2. arbitraj məhkəməsinin qərarı və ya onun notariat qaydasında təsdiq edilmiş surəti və yaxud arbitraj icraatı daimi arbitraj təşkilatı tərəfindən idarə edildikdə, arbitraj qərarının həmin icraatı idarə edən daimi arbitraj təşkilatı tərəfindən təsdiq edilmiş nüsxəsi;

491.4.3. arbitraj sazişi və ya onun notariat qaydasında təsdiq edilmiş surəti, yaxud bu mümkün olmadıqda, arbitraj sazişinin bağlandığını təsdiqləyən hər hansı sənəd;

491.4.4. müraciətin əsaslılığını təsdiq edən sənədlər;

491.4.5. dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd;

491.4.6. arbitraj məhkəməsinin qərarı və ya arbitraj sazişi xarici dildədirsə, bu sənədlərin Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi;

491.4.7. ərizənin surəti.

**Maddə 492. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınmasından və ya icrasından imtina edilməsi üçün əsaslar**

492.1. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj məhkəmələrinin qərarlarının tanınmasından və ya icrasından aşağıdakı hallarda imtina edilə bilər:

492.1.1. əleyhinə belə qərar çıxarılmış tərəfin müraciəti ilə məhkəmə aşağıdakı hallardan birini müəyyən etdikdə:

492.1.1.1. bu Məcəllənin 476.1.1.1 – 476.1.1.4-cü maddələrində qeyd olunan əsaslardan birinin mövcudluğunu (bu Məcəllənin 476.1.1.2-ci maddəsinə münasibətdə "Arbitraj haqqında" Azərbaycan Respublikası Qanununun 27.3-cü maddəsində göstərilən hal istisna olmaqla);

492.1.1.2. müvəqqəti təminat tədbirləri ilə bağlı təminatın verilməsi barədə arbitraj məhkəməsinin qərarının icra olunmadığını;

492.1.1.3. arbitraj məhkəməsi tərəfindən və ya müvafiq səlahiyyətin olduğu təqdirdə ərazisində arbitrajın keçirildiyi, yaxud qanunvericiliyi əsasında müvəqqəti təminat tədbirlərinin tətbiq olunduğu dövlətin məhkəməsi tərəfindən müvəqqəti təminat tədbirlərinin ləğv olunduğunu və ya icrasının dayandırıldığını;

492.1.2. məhkəmə aşağıdakı hallardan birini müəyyən etdikdə:

492.1.2.1. məhkəmənin öz səlahiyyətlərinə və tədbirin icrasının məqsədlərinə uyğunlaşdırmaq üçün müvəqqəti təminat tədbirinin mahiyyətini dəyişdirmədən həmin tədbirdə dəyişiklik edə bildiyi hallar istisna olmaqla, təminat tədbirinin məhkəmənin səlahiyyətlərinə uyğun olmadığını;

492.1.2.2. bu Məcəllənin 476.1.2.1-ci və 476.1.2.2-ci maddələrində qeyd olunan əsaslardan hər hansı birinin müvəqqəti təminat tədbirinin tanınmasına və icrasına tətbiq olunduğunu.

**Maddə 493. Ərizəyə baxılma qaydası və nəticələri**

493.1. Ərizəyə onun məhkəməyə daxil olduğu gündən sonra təxirə salınmadan baxılır.

493.2. İşə baxan məhkəmə işdə iştirak edən şəxslərin vəsatəti ilə prosesin hazırlıq mərhələsində tərəflərdən və ya tərəflərə iş materiallarının təqdim edilmədiyi hallarda daimi arbitraj təşkilatından və ya arbitraj işinin materiallarını saxlamaq səlahiyyəti olan qurumdan tanınması və icrası barədə ərizə verilmiş arbitraj qərarına aid iş materiallarını tələb edə bilər.

493.3. Müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə arbitraj qərarının tanınması və icrasına dair qərarın qəbul edilməsi barədə əvvəlcədən məlumat

verilməsi belə tədbirlərin tətbiqinin məqsədinə xələl gətirə biləcəyi hallar istisna olmaqla, məhkəmə müvəqqəti təminat tədbirlərinin yönələcəyi tərəfə arbitraj qərarının tanınması və icrasına dair qərar qəbul edilməmişdən əvvəl xəbər verməlidir.

493.4. Arbitraj icraatının tərəfləri məhkəmə iclasının vaxtı və yeri haqqında xəbərdar edilirlər, lakin onların gəlməmələri işə baxılmasına mane olmur.

493.5. Məhkəmə ərizəyə baxarkən irəli sürülən tələb və etirazların əsaslandırıldığı sübutları araşdıraraq arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrasından imtina edilməsi üçün əsasların olub-olmadığını müəyyən edir.

493.6. Tanınma və ya icra haqqında ərizəyə baxan məhkəmə qərar qəbul edərkən müvəqqəti təminat tədbirlərinin mahiyyətini araşdırmamalıdır.

493.7. İşə baxılma nəticəsində məhkəmə arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası və ya tanınma və icradan imtina edilməsi barədə bu Məcəllə ilə müəyyən edilmiş qaydada qərar çıxarır. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərar qəbul edən məhkəmə müvəqqəti təminat tədbirinin mahiyyətini dəyişdirmədən müvəqqəti təminat tədbirlərini öz səlahiyyətlərinə və tədbirin icrasının məqsədlərinə uyğunlaşdıra bilər.

493.8. Məhkəmə işə onun iştirakı olmadan baxılmış arbitraj icraatının tərəfinə qəbul edilmiş qərar barədə dərhal xəbər verir.

**Maddə 494. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərarın icra edilməsi**

494.1. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrasına dair qərar dərhal qüvvəyə minir və icra edilir.

494.2. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərar icra edilməsi üçün aidiyyəti orqanlara göndərilir və ya həmin qərar əsasında icra vərəqəsi verilir. Qərar və ya icra vərəqəsinin təsdiq olunmuş surəti aidiyyəti orqana təqdim edilməsi üçün ərizəçinin tələbi ilə ona verilə bilər.

494.3. Müvəqqəti təminat tədbirlərinin yönəldiyi arbitraj icraatının tərəfinin müvəqqəti təminat tədbirləri ilə müəyyən edilmiş qadağaları pozduğu hallarda dövlətin xeyrinə aşağıdakı miqdarda cərimələr tutulur:

494.3.1. qiymətləndirilən iddialar üzrə - iddia qiymətinin 50 faizinədək miqdarda;

494.3.2. qiymətləndirilməyən iddialar üzrə - iki yüz iyirmi manat.

**Maddə 495. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərarın qüvvədən düşməsi**

Arbitraj icraatının tərəfləri arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının arbitraj məhkəməsi tərəfindən ləğv edilməsi, icrasının dayandırılması və ya dəyişdirilməsi barədə məhkəməyə dərhal məlumat verməlidirlər. Məhkəmə bu halları qiymətləndirdikdən sonra öz mülahizəsi əsasında arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası barədə qərarın ləğvi və ya müvəqqəti təminat tədbirinin bir növünün digəri ilə əvəz edilməsi barədə qərar qəbul edir.

**Maddə 496. Arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirinin tətbiqi barədə qərarının tanınması və icrası nəticəsində vurulmuş zərərin ödənilməsi**

Müvəqqəti təminat tədbirlərinin tətbiqi üçün əsasların olmadığı sonradan müəyyən edilərsə, arbitraj icraatında maraqlı şəxs arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının tanınması və icrası nəticəsində vurulmuş zərərin əvəzinin (arbitraj məhkəməsi tərəfindən bu barədə qərar qəbul edilməmişdirsə), habelə arbitraj məhkəməsinin müvəqqəti təminat tədbirlərinin tətbiqi barədə qərarının məhkəmə tərəfindən tanınması və icrasına dair etirazla əlaqədar çəkilmiş xərclərin ödənilməsini bu qərarın tanınması və icrası üçün məhkəməyə ərizə vermiş tərəfdən məhkəmə qaydasında tələb edə bilər.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 26 dekabr 2023-cü il

§

## Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və

sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar.

Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 30 dekabr 2023-cü il

§

**Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)**

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, aşağıdakı hakimlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

...

**hərbi məhkəmələr üzrə:**

**Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi**
Orucəliyev Abil Elmar oğlu

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

**Babək Rayon Məhkəməsi**
İsmayıl Günay Mikayıl qızı

**Naxçıvan Şəhər Məhkəməsi**
Əliyeva Gülsüm Kamal qızı

...

2. Bu Sərəncam 2024-cü il fevralın 3-dən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 30 yanvar 2024-cü il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 14-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 50.2-ci maddəyə "habelə" sözündən sonra "Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş hallarda şəxsin valideynlik hüquqlarından məhrum edilməsi və ya valideynlik hüquqlarının məhdudlaşdırılması üçün," sözləri əlavə edilsin;

1.2. 355-1.1-ci maddədə "və ya müvafiq icra hakimiyyəti orqanı" sözləri ", müvafiq icra hakimiyyəti orqanı və ya prokuror" sözləri ilə əvəz edilsin;

1.3. 355-3.2-ci maddənin birinci cümləsinə "törətmiş şəxsin" sözlərindən sonra ", prokuror tərəfindən verilən ərizəyə isə həmçinin prokurorun" sözləri əlavə edilsin;

1.4. 357.2-ci maddənin ikinci cümləsində, 403.3-cü və 423.3-cü maddələrdə "və 306-cı" sözləri ", 306-cı və 355-1.1-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 65-ci maddə üzrə:

2.1.1. 65.2-ci maddəyə "orqanının," sözündən sonra "prokurorun," sözü və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən müvafiq icra hakimiyyəti orqanının iştirakı təmin edilməlidir.";

2.1.2. 65.4-cü maddəyə "işinə" sözündən sonra "prokurorun iştirakı olmadan" sözləri əlavə edilsin;

2.2. 68.4-cü maddəyə "qohumları," sözündən sonra "prokuror," sözü əlavə edilsin.

**Maddə 3.** "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 10, maddə 836 (Cild I) 12.1-ci maddəsində "və ya müvafiq icra hakimiyyəti orqanı" sözləri ", müvafiq icra hakimiyyəti orqanı və ya prokuror" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 29 mart 2024-cü il

§

**Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13) 231-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Adına və 231.4-cü maddəyə "məhdudlaşdırılması" sözündən sonra ", borclunun əmlakı üzərinə həbs qoyulması" sözləri əlavə edilsin.

2. 231.3-cü maddə üzrə:

2.1. birinci cümlədə "məsələləri, habelə" sözləri vergül işarəsi ilə əvəz edilsin və həmin cümləyə "məhdudlaşdırılması" sözündən sonra ", borclunun əmlakı üzərinə həbs qoyulması məsələləri" sözləri əlavə edilsin;

2.2. üçüncü cümlədə "məsələsinə" sözü ", borclunun əmlakı üzərinə həbs qoyulması məsələlərinə" sözləri ilə əvəz edilsin;

2.3. dördüncü cümlədən "habelə" sözü çıxarılsın və həmin cümləyə "məhdudlaşdırılması" sözündən sonra ", borclunun əmlakı üzərinə həbs qoyulması" sözləri əlavə edilsin.

3. Aşağıdakı məzmunda 231.3-1-ci maddə əlavə edilsin:

"231.3-1. Məhkəmə borclunun əmlakı üzərinə həbs qoyulması haqqında təqdimata onun daxil olduğu vaxtdan 5 iş günü müddətində, qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi haqqında ərizələrə və icra üzrə icraatın dayandırılması, borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında təqdimatlara onların daxil olduğu vaxtdan 10 iş günü müddətində baxır.".

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 29 mart 2024-cü il

§

## M.K.Həsənovun Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, 132-ci maddəsinin II hissəsinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Müşfiq Kamil oğlu Həsənov vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.
2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Sahibə Qafarova**
*Azərbaycan Respublikası Milli Məclisinin sədri*
Bakı şəhəri, 5 aprel 2024-cü il

§

## Bir sıra məhkəmələrin sədrlərinin, məhkəmə kollegiyaları sədrlərinin və birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

...

1.2. Yusifəli Süleyman oğlu Qurbanov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

1.3. Səxavət Şahhüseyn oğlu Bəylərli Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri təyin edilsin;

1.4. Əli Kərim oğlu Allahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

...

**hərbi məhkəmələr üzrə:**

1.11. Polad Vəli oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri təyin edilsin;

...

**Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:**

1.13. Mehrab Fərmayıl oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Culfa Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.14. Zülfüqar Əziz oğlu Əhmədov Naxçıvan Muxtar Respublikası Kəngərli Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.15. Gülnar Xanlar qızı Səfərəliyeva Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin sədri təyin edilsin;

1.16. Hüseyn Nadir oğlu Zülfüqarov Naxçıvan Muxtar Respublikası Sədərək Rayon Məhkəməsinin sədri təyin edilsin;

...

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 8 aprel 2024-cü il

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (Çıxarış)

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

ağır cinayətlər məhkəmələri üzrə:

Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi

Kərimov Arzuyar Sadıq oğlu

...

2. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

...

Elnur Heydər oğlu Hüseynov Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin hakimi təyin edilsin;

...

Qabil Neymət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikası Naxçıvan Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin hakimi təyin edilsin;

...

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 13 may 2024-cü il

§

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 86-cı maddə üzrə:

1.1.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 86. Məhkəmələrin fəaliyyətinin təşkili";

1.1.2. birinci hissəyə "artırılması" sözündən sonra "(Məhkəmə-Hüquq Şurasının müraciətinə əsasən)" sözləri əlavə edilsin;

1.1.3. ikinci hissənin birinci cümləsində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin və həmin cümlədən "məhkəmə qərarlarının icrası," sözləri çıxarılsın;

1.1.4. ikinci hissənin ikinci cümləsində "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin və həmin cümlədən ", hakim öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda isə hakimin vəzifələrinin icrasını müvəqqəti olaraq digər müvafiq məhkəmənin hakimlərindən birinə" sözləri çıxarılsın;

1.1.5. üçüncü hissədə "Müvafiq icra hakimiyyəti orqanı Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə birlikdə" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin;

1.1.6. dördüncü hissə ləğv edilsin;

1.2. 87-ci maddə üzrə:

1.2.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Maddə 87. Məhkəmələrin fəaliyyətinə dair statistika";

1.2.2. ikinci hissədə "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin;

1.2.3. üçüncü hissədə "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin və həmin hissədən ", bu barədə Məhkəmə-Hüquq Şurasını məlumatlandırır" sözləri çıxarılsın;

1.3. 88-ci maddə üzrə:

1.3.1. dördüncü hissədən ", işçilərinin əmək haqqını" sözləri çıxarılsın və həmin hissədə "isə strukturunu, ştat cədvəlini, xərc smetasını, işçilərin əmək haqqını" sözləri "strukturunu, ştat cədvəlini Məhkəmə-Hüquq Şurası, xərc smetasını isə" sözləri ilə əvəz edilsin;

1.3.2. beşinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Məhkəmə aparatı işçilərinin peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilməsi Məhkəmə-Hüquq Şurasının müraciəti əsasında həyata keçirilir.";

1.4. 91-ci maddədən "və müvafiq icra hakimiyyəti orqanı", "və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi" sözləri çıxarılsın və həmin maddədə "keçirirlər" sözü "keçirir" sözü ilə əvəz edilsin;

1.5. 93-cü maddənin birinci hissəsindən "yaşı 30-dan aşağı olmayan," sözləri çıxarılsın;

1.6. 97-1-ci maddə üzrə:

1.6.1. birinci hissənin birinci cümləsində "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin və həmin cümlədən ", habelə müvafiq icra hakimiyyəti orqanının müraciəti olduqda, tədris fəaliyyətində və ya birinci və apellyasiya instansiyası məhkəmələrində bu Qanunun 86-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılmasında iştirak etmək üçün həmin quruma" sözləri çıxarılsın;

1.6.2. birinci hissənin ikinci cümləsində "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin;

1.6.3. ikinci hissədən "və ya müvafiq icra hakimiyyəti orqanına" sözləri çıxarılsın;

1.6.4. aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin: "Birinci instansiya məhkəməsinin hakimi öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda, Məhkəmə-Hüquq Şurası həmin məhkəməyə digər müvafiq məhkəmənin hakimini onun razılığı ilə 1 ilədək müddətə ezam edə bilər.";

1.7. 107-ci maddənin ikinci hissəsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin;

1.8. 112-ci maddə üzrə:

1.8.1. birinci hissənin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Bu Qanunla müəyyən edilmiş səbəblər və intizam məsuliyyətinə cəlb edilmə əsaslarının əlamətləri olduqda Məhkəmə-Hüquq Şurası öz təşəbbüsü ilə intizam icraatını başlamalı, Ali Məhkəmənin, apellyasiya məhkəmələrinin və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədrləri isə intizam icraatının başlanılması barədə Məhkəmə-Hüquq Şurasına müraciət etməlidirlər.";

1.8.2. altıncı hissə ləğv edilsin;

1.8.3. üçüncü – beşinci hissələr müvafiq olaraq dördüncü – altıncı hissələr hesab edilsin və aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

“Məhkəmə-Hüquq Şurası öz təşəbbüsü ilə birinci, apellyasiya və kassasiya instansiyaları məhkəmələrinin hakimləri haqqında intizam icraatına başlayır.”;

1.9. 112-1-ci maddənin ikinci hissəsinə “maddəsinin” sözündən sonra “ikinci hissəsinin” sözləri əlavə edilsin;

1.10. 114-cü maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“Bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 6-cı, 7-ci, 8-ci (hakimin başqa dövlətin vətəndaşlığını qəbul etməsi və ya digər dövlət qarşısında öhdəlik götürməsi hallarında), 10-cu və ya 11-ci bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda hakimin səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi üçün Məhkəmə-Hüquq Şurası öz təşəbbüsü ilə intizam icraatına başlayır, Ali Məhkəmənin sədri isə intizam icraatının başlanılması haqqında Məhkəmə-Hüquq Şurasına müraciət edir.

İntizam icraatı nəticəsində bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 6-cı, 7-ci, 8-ci (hakimin başqa dövlətin vətəndaşlığını qəbul etməsi və ya digər dövlət qarşısında öhdəlik götürməsi hallarında), 10-cu və ya 11-ci bəndlərində nəzərdə tutulmuş əsasların mövcudluğu müəyyən edildikdə, habelə bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 12-ci bəndində nəzərdə tutulmuş əsas olduqda, Məhkəmə-Hüquq Şurası hakimin səlahiyyətlərinə xitam verilməsi barədə müvafiq icra hakimiyyəti orqanına təklif verilməsi haqqında qərar qəbul edir. Hakimin səlahiyyətlərinə onu təyin etmiş orqan tərəfindən vaxtından əvvəl xitam verilir.
Bu Qanunun 113-cü maddəsinin ikinci hissəsinin 1-ci, 3–5-ci, 8-ci (hakimin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi halında) və ya 9-cu bəndlərində nəzərdə tutulmuş əsaslar olduqda hakimin səlahiyyətlərinə Məhkəmə-Hüquq Şurası tərəfindən vaxtından əvvəl xitam verilir.”.

Maddə 2. Bu Qanun 2024-cü il iyunun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 29 mart 2024-cü il

§

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 114-cü maddəsinin ikinci hissəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2. Məhkəmə-Hüquq Şurasının təklifləri nəzərə alınaraq, "Elektron məhkəmə" informasiya sistemi üzərində sahiblik və istifadə hüquqları Azərbaycan Respublikasının Ədliyyə Nazirliyindən Məhkəmə-Hüquq Şurasına ötürülsün.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. normativ hüquqi aktların "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununa və bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. həmin Qanundan və bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi "Elektron məhkəmə" informasiya sistemi üzərində sahiblik və istifadə hüquqlarının Məhkəmə-Hüquq Şurasına ötürülməsi tam başa çatanadək həmin informasiya sisteminin sahibi və operatoru funksiyalarının icrasından irəli gələn hüquq və vəzifələrin həyata keçirilməsini davam etdirsin.

5. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin:

5.1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanunu və bu Fərmanın 2-ci hissəsi nəzərə alınmaqla, Məhkəmə-Hüquq Şurası Aparatının strukturunun təkmilləşdirilməsi ilə bağlı zəruri tədbirləri həyata keçirsin;

5.2. həmin Qanundan və bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün tədbirlər görsün.

6. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi və məhkəmə islahatlarının həyata keçirilməsinə dair tədbirlər barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 1 dekabr tarixli 30 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 12, maddə 744 (Cild I) 7-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 7.1-ci və 7.9-cu bəndlərdə “hissəsində” sözü “hissəsinin birinci cümləsində” sözləri ilə əvəz edilsin;

6.2. 7.5-ci bənddən “ikinci hissəsinin ikinci cümləsində (yalnız birinci instansiya məhkəmələrində həmin maddədə qeyd edilən sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılması üzrə),” və “, 97-1-ci maddəsinin birinci hissəsinin birinci cümləsində (yalnız birinci instansiya məhkəmələrinə münasibətdə) və ikinci hissəsində, 107-ci maddəsinin ikinci hissəsində” sözləri çıxarılsın;

6.3. 7.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

“7.6. həmin Qanunun 64-cü maddəsinin ikinci hissəsində, 80-ci maddəsinin ikinci hissəsinin birinci cümləsində, 86-cı maddəsinin birinci hissəsində və 88-ci maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir;”.

7. Bu Fərmanın 1-ci və 6-cı hissələri 2024-cü il iyunun 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 20 may 2024-cü il

§

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 14-cü və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13; Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli, 29 mart tarixli 1110-VIQD nömrəli və 1113-VIQD nömrəli qanunları) 350.4-cü maddəsində "3 gün müddətində" sözləri "dərhal" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1110-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11.1-ci maddədə "keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi" sözləri "keçmələri" sözü ilə əvəz edilsin;

2.2. 65.5-ci, 161.4-cü, 162.3-cü, 163.3-cü və 166.2-1-ci maddələrdə "qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən" sözləri "məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən" sözləri ilə əvəz edilsin;

2.3. 68.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"68.6. Valideynlik hüquqlarının məhdudlaşdırılması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

2.4. 118.20-ci maddədə "3 gün müddətində" sözləri "dərhal" sözü ilə əvəz edilsin;

2.5. 164.5-ci maddədə "akt qeydi üzrə" sözləri "vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında" sözləri ilə əvəz edilsin və həmin maddəyə "şəxs" sözündən sonra ", yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları" sözləri əlavə edilsin;

2.6. 171.1-ci maddənin birinci cümləsində "şəxsən yazılı ərizə verirlər" sözləri "ərizə ilə müraciət edirlər" sözləri ilə əvəz edilsin;

2.7. 171.2-ci və 178.2-ci maddələr ləğv edilsin;

2.8. 180.1-ci maddəyə “nikahın pozulmasını” sözlərindən sonra “bu Məcəllənin 23.3-cü maddəsinə uyğun olaraq “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən, habelə” sözləri əlavə edilsin;

2.9. 183-cü maddənin birinci cümləsinə “qeydə alınması” sözlərindən sonra “(qeydiyyat bu Məcəllənin 23.3-cü maddəsinə əsasən “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)” sözləri əlavə edilsin.

**Maddə 3.** “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.0.3-cü maddəyə “qeydiyyatı” sözündən sonra “, habelə şəhadətnamələrin verilməsi” sözləri əlavə edilsin;

3.2. 12-ci maddə üzrə:

3.2.1. adına “qeydiyyatı” sözündən sonra “, habelə şəhadətnamələrin verilməsi” sözləri əlavə edilsin;

3.2.2. 12.2-ci maddənin birinci abzasına və 12.3-cü maddəyə “qeydə alınması” sözlərindən sonra “(qeydiyyat “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)” sözləri əlavə edilsin;

3.2.3. 12.2.2-ci maddədə “qeydiyyat” sözü “qeydə alınması (qeydiyyat “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)” sözləri ilə əvəz edilsin;

3.3. 13-cü maddənin adına “qeydə alınması” sözlərindən sonra “və ilkin şəhadətnamələrin verilməsi” sözləri əlavə edilsin;

3.4. 16.3-cü maddə üzrə:

3.4.1. birinci abzasa “qeydiyyatına” sözündən sonra “, habelə şəhadətnamələrin verilməsinə” sözləri əlavə edilsin;

3.4.2. aşağıdakı məzmunda 16.3.3-1-ci maddə əlavə edilsin:

| | |
|---|---|
| 16.3.3-1.məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının qeydə alınmasına (qeydiyyat “Elektron məhkəmə” informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindənçıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə) görə (qətnamədə dövlət rüsumunun tərəflərdən hansının ödəməli olduğu göstərilmədikdə birinci müraciət etmiş tərəfdən) | 15 ABŞ dolları |

3.4.3. 16.3.4-cü maddəyə "qeydə alınmasına" sözlərindən sonra "(qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə)" sözləri əlavə edilsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 21 may 2024-cü il

§

**"Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 68.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 68.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında"

Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "68.4-1-ci maddəsində" sözləri "68.4-1, 68.6-cı maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.3-1-ci məndə "65.5," rəqəmlərindən sonra "68.6," rəqəmləri əlavə edilsin;

3.3. 2.4-cü bənddən "68.6," rəqəmləri çıxarılsın;

3.4. 2.4-1-ci bənddən "179," rəqəmləri çıxarılsın;

3.5. 2.4-2-ci bəndə "163.2" rəqəmlərindən sonra ",179" rəqəmləri əlavə edilsin;

3.6. 2.11-ci bənddə "155.5, 178.2-ci" sözləri "155.5-ci" sözləri ilə əvəz edilsin;

3.7. 2.18-ci bənddən "rayon (şəhər)" sözləri çıxarılsın.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*
Bakı şəhəri, 6 iyun 2024-cü il



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2023-cü ildə 3935 mülki işə baxılmaqla nəticə verilmişdir. 2022-ci ildə isə həmin məhkəmələr tərəfindən 2861 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2022-ci illə müqayisədə 2023-cü ildə 37,54% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 155 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 155 mülki işdən 145 işə apellyasiya qaydasında baxılaraq 71 qətnamə və 27 qərardad dəyişdirilmədən saxlanılmış, 11 qətnamə dəyişdirilmiş, 30 qətnamə və 6 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 10 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 45 iş
- əmək mübahisələri – 6 iş
- mənzil mübahisələri – 7 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr – 2 iş
- torpaq mübahisələri – 7 iş
- müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, məcburi bağlanması – 1 iş

- müqavilənin etibarsız hesab edilməsi – 5 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 32 iş
- mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr – 9 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 6 iş
- xüsusi icraat işləri üzrə - 1 iş
- şərəf və ləyaqətin müdafiəsi üzrə mübahisələr – 1 iş
- müvəqqəti təminat tədbirləri ilə bağlı mübahisələr – 2 iş
- digər mülki işlər – 21 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2023-cü ildə baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2022-ci illə müqayisədə 2023-cü ildə apellyasiya şikayətlərinin sayı 27,05% artmışdır. Belə ki, 2022-ci ildə birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 122 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2022-ci illə müqayisədə 2023-cü ildə aşağı olmuşdur. Belə ki, 2022-ci ildə rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 2861 qətnamə və qərardaddan 0,94%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2023-cü ildə məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 3935 qətnamə və qərardaddan 1,19%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2022-ci ildə 99,06%, 2023-cü ildə isə 98,81% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2023-cü ildə apellyasiya qaydasında baxılan qərarların 32,41%-nin ləğv və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2022 və 2023-cü illərə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2022-ci ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | | Qərardadlar | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilib | Ləğv edilərək | | | | Ləğv edilmişdir | Dəyişdirilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxlanılıb | İş aidiyyəti üzrə 1-ci ins. məhk. göndərilib | İşin icraatına xitam verilib | | | |
| Naxçıvan | **42** | **5** | **23** | | **3** | | **1** | **3** | | | 7 |
| Babək | **22** | **8** | **7** | **2** | **1** | | | | | | 4 |
| Şərur | **29** | **3** | **7** | **1** | **3** | **2** | | **2** | | | 11 |
| Şahbuz | **9** | | **4** | **1** | **1** | | | **1** | **1** | | 1 |
| Kəngərli | **5** | **1** | **4** | | | | | | | | |
| Culfa | **8** | **2** | **4** | | **1** | | | | | | 1 |
| Ordubad | **7** | | **2** | **1** | **1** | **2** | | | | | 1 |
| **YEKUN** | **122** | **19** | **51** | **5** | **10** | **4** | **1** | **6** | **1** | | **25** |

2023-cü ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | | Qərardadlar | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilib | Ləğv edilərək | | | | Ləğv edilmişdir | Dəyişdirilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxlanılıb | İş aidiyyəti üzrə 1-ci ins. məhk. göndərilib | İşin icraatına xitam verilib | | | |
| Naxçıvan | **64** | **7** | **30** | **5** | **6** | **2** | **2** | **1** | **1** | | 10 |
| Babək | **18** | **2** | **8** | **1** | **1** | | | | **1** | | 5 |
| Şərur | **41** | **1** | **20** | **3** | **7** | | | **2** | **1** | | 7 |
| Şahbuz | **6** | | **1** | **1** | | | | **2** | **1** | | 1 |
| Kəngərli | **3** | | **1** | | | | | | **1** | | 1 |
| Culfa | **9** | | **6** | | | | | **1** | | | 2 |
| Ordubad | **11** | | **4** | | **3** | **1** | | **1** | **1** | | 1 |
| Sədərək | **3** | | **1** | **1** | **1** | | | | | | |
| **YEKUN** | **155** | **10** | **71** | **11** | **18** | **3** | **2** | **7** | **6** | | **27** |

Apellyasiya qaydasında 2023-cü ildə ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon Məhkəməsi, ən yüksək göstəriciyə isə Culfa Rayon Məhkəməsi malikdir. Belə ki, 2023-cü ildə *Ordubad Rayon Məhkəməsində* çıxarılan 245 qərardan 5 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,45%-i ləğv edildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 97,55% olduğu halda, *Culfa Rayon Məhkəməsində* çıxarılan 326 məhkəmə aktından 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan məhkəmə aktlarının 0,31%-i ləğv edildiyinə görə məhkəmə aktlarının sabitliyi üzrə göstərici 99,69% təşkil etmişdir.

*Kəngərli Rayon Məhkəməsi* tərəfindən 2023-cü ildə çıxarılan 290 qətnamə və qərardaddan 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,34%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,66% təşkil etmişdir.

*Babək Rayon Məhkəməsi* tərəfindən 2023-cü ildə çıxarılan 545 qətnamə və qərardaddan 2 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,55%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,45% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2023-cü ildə çıxarılan 993 qətnamə və qərardaddan 12 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,31%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,69% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2023-cü ildə çıxarılan 274 qətnamə və qərardaddan 3 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,46%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,54% təşkil etmişdir.

*Naxçıvan Şəhər Məhkəməsi* tərəfindən 2023-cü ildə çıxarılan 1144 qətnamə və qərardaddan 16 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,49%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,51% təşkil etmişdir.

Sədərək Rayon Məhkəməsi tərəfindən 2023-cü ildə çıxarılan 118 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,69%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,31% təşkil etmişdir.

2022-ci ildə isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Kəngərli Rayon Məhkəməsi* – 100% (238 qətnamə və qərardaddan ləğv ediləni və dəyişdiriləni olmamışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 100% (96 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- *Culfa Rayon Məhkəməsi* – 99,48% (194 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,52%-i ləğv edilmişdir);
- *Babək Rayon Məhkəməsi* – 99,32% (442 qətnamə və qərardaddan 3 qətnamə, yəni 0,68%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 99,15% (820 qətnamə və qərardaddan 7 qətnamə, yəni 0,85%-i ləğv edilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 98,82% (677 qətnamə və qərardaddan 8 qətnamə, yəni 1,18%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Ordubad Rayon Məhkəməsi* – 97,97% (197 qətnamə və qərardaddan 4 qətnamə, yəni 2,03%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 97,97% (197 qətnamə və qərardaddan 3 qətnamə və 1 qərardad, yəni 2,03%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2022 və 2023-cü illərə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Naxçıvan şəhər, Şərur, Kəngərli, Ordubad və Sədərək rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi 2022-ci illə müqayisədə aşağı düşmüş, Babək, Culfa və Şahbuz rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, ötən ildə olduğu kimi 2023-cü ildə də ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2022-ci ildə 820 mülki işə, 2023-cü ildə isə 1144 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 993 iş (2022-ci ildə 677 işə baxılmışdır);
- *Babək Rayon Məhkəməsi* – 545 iş (2022-ci ildə 442 işə baxılmışdır);
- *Culfa Rayon Məhkəməsi* – 326 iş (2022-ci ildə 194 işə baxılmışdır);
- *Kəngərli Rayon Məhkəməsi* – 290 iş (2022-ci ildə 238 işə baxılmışdır);
- *Şahbuz Rayon Məhkəməsi* – 274 iş (2022-ci ildə 197 işə baxılmışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 245 iş (2022-ci ildə 197 işə baxılmışdır);

- *Sədərək Rayon Məhkəməsi* – 118 iş (2022-ci ildə 96 işə baxılmışdır).

Göründüyü kimi 2022-ci illə müqayisədə 2023-cü ildə ümumilikdə muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükü artmışdır.

*Məhkəmələr üzrə "nikahın ləğvi" tələbinə dair işlər üzrə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 66 iş qalıq qalmış, 2023-cü ildə 225 mülki iş, ümumilikdə 291 mülki iş icraata daxil olmuşdur. 160 mülki iş üzrə qətnamə çıxarılaraq 159 mülki iş üzrə iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 28 qərardad çıxarılmaqla 5 iş üzrə iddia baxılmamış saxlanılmış, 23 iş üzrə icraata xitam verilmişdir. 40 mülki iş üzrə ərizə geri qaytarılmış, 63 iş 2024-cü ilə qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 75 iş qalıq qalmış, 2023-cü ildə 153 mülki iş, ümumilikdə 228 mülki iş icraata daxil olmuşdur. Mülki işlər üzrə 119 qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 28 qərardad çıxarılmaqla 13 iş üzrə iddia baxılmamış saxlanılmış, 15 iş üzrə icraata xitam verilmişdir. 14 mülki iş üzrə ərizə geri qaytarılmış, 67 iş 2024-cü ilə qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 29 iş qalıq qalmış, 2023-cü ildə 108 mülki iş, ümumilikdə 137 mülki iş icraata daxil olmuşdur. 80 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 20 qərardad çıxarılmaqla 5 iş üzrə iddia baxılmamış saxlanılmış, 15 iş üzrə icraata xitam verilmişdir. 6 mülki iş üzrə ərizə geri qaytarılmış, 31 iş 2024-cü ilə qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 23 iş qalıq qalmış, 2023-cü ildə 52 mülki iş, ümumilikdə 75 mülki iş icraata daxil olmuşdur. 46 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 6 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 5 iş üzrə icraata xitam verilmişdir. 5 mülki iş üzrə ərizə geri qaytarılmış, 18 iş 2024-cü ilə qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 17 iş qalıq qalmış, 2023-cü ildə 53 mülki iş, ümumilikdə 70 mülki iş icraata daxil olmuşdur. 37 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 2 iş üzrə iddia baxılmamış saxlanılmış, 3 iş üzrə icraata xitam verilmişdir. 3 mülki iş üzrə ərizə geri qaytarılmış, 25 iş 2024-cü ilə qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 17 iş qalıq qalmış, 2023-cü ildə 46 mülki iş, ümumilikdə 63 mülki iş icraata daxil olmuşdur. 31 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin

kateqoriya işlər üzrə 10 qərardad çıxarılmaqla 3 iş üzrə iddia baxılmamış saxlanılmış, 7 iş üzrə icraata xitam verilmişdir. 3 mülki iş üzrə ərizə geri qaytarılmış, 19 iş 2024-cü ilə qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 16 iş qalıq qalmış, 2023-cü ildə 52 mülki iş, ümumilikdə 68 mülki iş icraata daxil olmuşdur. 30 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 14 qərardad çıxarılmaqla 6 iş üzrə iddia baxılmamış saxlanılmış, 8 iş üzrə icraata xitam verilmişdir. 9 mülki iş üzrə ərizə geri qaytarılmış, 15 iş 2024-cü ilə qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2022-ci ildən 2023-cü ilə 4 iş qalıq qalmış, 2023-cü ildə 30 mülki iş, ümumilikdə 34 mülki iş icraata daxil olmuşdur. 9 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 4 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 3 iş üzrə icraata xitam verilmişdir. 2 mülki iş üzrə ərizə geri qaytarılmış, 19 iş 2024-cü ilə qalıq qalmışdır.

2023-cü ildə məhkəmələr tərəfindən "nikahın ləğvi" tələbinə dair 79 iş üzrə (12,60%) icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Sədərək Rayon Məhkəməsi – 23,08% (13 işdən 3 işin icraatına xitam verilib).

- Şahbuz Rayon Məhkəməsi – 18,18% (44 işdən 8 işin icraatına xitam verilib);

- Kəngərli Rayon Məhkəməsi - 17,07% (41 işdən 7 işin icraatına xitam verilib);

- Babək Rayon Məhkəməsi – 15% (100 işdən 15 işin icraatına xitam verilib);

- Naxçıvan Şəhər Məhkəməsi - 12,23% (188 işdən 23 işin icraatına xitam verilib);

- Şərur Rayon Məhkəməsi - 10,20% (147 işdən 15 işin icraatına xitam verilib).

- Culfa Rayon Məhkəməsi – 9,62% (52 işdən 5 işin icraatına xitam verilib);

- Ordubad Rayon Məhkəməsi – 7,14% (42 işdən 3 işin icraatına xitam verilib).

2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 26 kassasiya şikayəti verilmiş, həmin şikayətlərə mahiyyəti üzrə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 16 qətnaməsi və 4 qərardadı dəyişdirilmədən saxlanılmış, 4 qətnaməsi və 1 qərardadı ləğv edilmiş, 1 iş üzrə kassasiya şikayətindən imtina qəbul edilərək işin kassasiya instansiyasında icraatına xitam verilmişdir.

Beləliklə, 2023-cü ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 96,77% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈

## ***KOMMERSİYA KOLLEGİYASINDAN***

### Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili

2023-cü ildə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 406 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 9 iş 2022-ci ildən cari ilə qalıq qalmış, 397 iş isə 2023-cü ildə daxil olmuşdur.

Kommersiya mübahisələrinə dair işlərdən 203 işə mahiyyəti üzrə baxılmaqla 190 iş üzrə iddia təmin edilmiş, 6 iş üzrə iddia tələbi rədd edilmiş, 2 iddia baxılmamış saxlanılmış, 5 işin icraatına xitam verilmişdir. 82 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 1 iş aidiyyəti üzrə göndərilmiş, kommersiya mübahisələri üzrə 120 iş isə 2024-cü ilə qalıq qalmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 2,67 dəfə artmışdır. Belə ki, 2022-ci ildə həmin məhkəmənin icraatına kommersiya mübahisələrinə dair 152 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2023-cü ildə daxil olan işlərin böyük əksəriyyətini vergi ödəmələri barədə mübahisələr üzrə (198 iş - yəni 48,77%), hüquqi şəxslər və fərdi sahibkarlıq subyektləri arasında yaranan mübahisələr üzrə (179 iş - yəni 44,09%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin məhkəmə aktlarından verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında 20 işə apellyasiya qaydasında baxılaraq 2 qətnamə və 11 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qətnamə dəyişdirilmiş, 2 qətnamə və 4 qərardad isə ləğv edilmişdir. 2022-ci illə (12 iş) müqayisədə 2023-cü ildə (20 iş) kollegiyada baxılan kommersiya mübahisələrinə dair işlərin sayı artmışdır.

2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasında baxılan kommersiya mübahisələri üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasına 3 kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə mahiyyəti üzrə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının 2 qətnaməsi dəyişdirilmədən saxlanılmış, 1 qətnaməsi ləğv edilmişdir.

Beləliklə, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kommersiya kollegiyasının sabitlik göstəricisi 95% təşkil etmişdir.

***İNZİBATİ KOLLEGİYADAN***

## Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili

2023-cü ildə Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 1800 inzibati mübahisələrə dair iş olmuş, onlardan 78 iş 2022-ci ildən cari ilə qalıq qalmış, 1722 iş isə 2023-cü ildə daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 1061 işə mahiyyəti üzrə baxılmaqla 196 iş üzrə iddia tələbi təmin edilmiş, 26 iş üzrə iddia tələbi rədd edilmiş, 839 işin icraatına xitam verilmişdir. 101 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 638 iş isə 2024-cü ilə qalıq qalmışdır.

2022-ci illə müqayisədə 2023-cü ildə Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatına daxil olan inzibati mübahisələrə dair işlərin sayı 5 dəfə artmışdır. Belə ki, 2022-ci ildə həmin məhkəmənin icraatına inzibati mübahisələrə dair 352 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2023-cü ildə daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (1619 iş - yəni 89,94%) və mübahisələndirmə haqqında (127 iş - yəni 7,06%) iddia tələbinə dair işlər təşkil etmişdir.

2023-cü ildə Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 58 apellyasiya şikayəti verilmiş, apellyasiya şikayətlərinə baxılaraq 16 qərar və 23 qərardad dəyişdirilmədən saxlanılmış, 6 qərar və 7 qərardad ləğv edilmiş, 6 iş üzrə apellyasiya şikayətinin icraatına xitam verilmişdir.

Müqayisə üçün qeyd edək ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə 2022-ci ildə kollegiyada 43 apellyasiya şikayətinə baxılmışdır.

Beləliklə 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasına 19 kassasiya şikayəti verilmiş, kassasiya şikayətlərinə baxılaraq 2 qərar və 8 qərardad dəyişdirilmədən saxlanılmış, 3 qərar və 1 qərardad ləğv edilmiş, 1 qərar və 3 qərardaddan verilmiş kassasiya şikayəti mümkün sayılmamış, 1 iş qalıq qalmışdır

Beləliklə, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati kollegiyasının sabitlik göstəricisi 93,10% təşkil etmişdir.

***CİNAYƏT KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2023-cü ilin yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan məhkəmələr tərəfindən 2023-cü ildə 269 nəfərin barəsində 237 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2022-ci ildə həmin məhkəmələr tərəfindən 82 nəfərin barəsində 76 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2023-cü ildə baxılmış 225 cinayət işi üzrə 257 nəfərin barəsində ittiham hökmləri çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri qəsd* obyektinə görə qruplaşdırdıqda 2022 və 2023-cü illərə dair göstəricilər aşağıdakı kimi olmuşdur:






Diaqramdan göründüyü kimi 2022-ci ildən fərqli olaraq 2023-cü ildə həyat və sağlamlıq əleyhinə, insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları əleyhinə, mülkiyyət əleyhinə, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, idarəetmə qaydası əleyhinə, hərbi xidmət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər artmış, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar və ədalət mühakiməsi əleyhinə olan cinayətlər üzrə göstəricilər dəyişməmişdir. 2022-ci ildən fərqli olaraq 2023-cü ildə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə dair iş daxil olmamış, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə, ictimai təhlükəsizlik əleyhinə, ictimai mənəviyyat əleyhinə, ekoloji və sair cinayətlərə dair işlər daxil olmuşdur.

2022 və 2023-cü illərdə məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:







Diaqramlardan da göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum edilənlər 2022-ci ildə məhkum edilmiş şəxslərin 50%-ni, 2023-cü ildə isə məhkum olunanların 36,19%-ni təşkil etmiş, yəni 2022-ci illə müqayisədə 2023-cü ildə cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 13,81% azalmış, azadlıqdan məhrum etmə ilə bağlı

olmayan cəzaların həcmi isə əksinə 13,81% artmışdır (ümumilikdə götürüldükdə).

2022 və 2023-cü illərdə baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:






Diaqramlardan göründüyü kimi 2022-ci ildən fərqli olaraq 2023-cü ildə Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində, Naxçıvan Şəhər Məhkəməsində, Culfa Rayon Məhkəməsində, Şərur Rayon Məhkəməsində, Babək Rayon Məhkəməsində və Kəngərli Rayon Məhkəməsində baxılmış cinayət işlərinin sayı artmış, ötən ildən fərqli olaraq 2023-cü ildə Ordubad, Sədərək və Şahbuz Rayon Məhkəmələrinin icraatına cinayət işləri daxil olmuşdur.

2023-cü ildə birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 29 hökm dəyişdirilmədən saxlanılmış, 15 hökm dəyişdirilmiş, 1 hökm isə ləğv edilmişdir.

Dəyişdirilən və ləğv edilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2023-cü ildə çıxardıqları bütün hökmlərin 7,11%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 92,89% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2022-ci ildə birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 94,59% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2023-cü ildə 477 işə (materiala) baxılmışdır. 2022-ci illə müqayisədə bu göstərici 3,67 dəfə artmışdır (həmin dövrdə 130 işə baxılmışdır).

2023-cü ildə xüsusi icraat qaydasında həll edilən işlərdən 168 iş (35,22%) həbs qətimkan tədbirinin seçilməsi, 27 iş (5,66%) həbsdə saxlama müddətinin uzadılması, 104 iş (21,80%) telefon danışıqlarına qulaq asma, 4 iş (0,84%) cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi, 44 iş (9,22%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 2 iş (0,42%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 3 iş (0,63%) məhkumluğun vaxtından əvvəl götürülməsi, 50 iş (10,48%) maliyyə əməliyyatları barədə məlumatların ələ keçirilməsi, 5 iş (1,05%) ev dustaqlığı, 5 iş (1,05%) şəxsin ekspertizadan keçirilməsi və ya tibb müəssisəsinə yerləşdirilməsi üçün onun tibb müəssisəsinə çatdırılması, 13 iş (2,73%) texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması, 8 iş (1,68%) binaya, o cümlədən yaşayış yerlərinə, hasarlanmış tikinti obyektlərinə, qurğu və ya torpaq sahələrinə daxil olma və onlara baxış keçirilməsi, 5 iş (1,05%) cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması, 21 iş (4,40%) hökmün və ya məhkəmənin digər

yekun qərarının icrasına dair başqa məsələlərin həll edilməsi, 1 iş (0,21%) hökmün və ya məhkəmənin digər yekun qərarının icrası zamanı şübhələrin və anlaşılmazlıqların həll edilməsi ilə əlaqədar və 17 iş (3,56%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2022 və 2023-cü illərin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:






Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2023-cü ildə 1088 nəfərin barəsində 1086 inzibati xəta haqqında işə baxılmışdır. Bunlardan 12 nəfərin barəsində 12 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2022-ci illə müqayisədə 2023-cü ildə baxılan inzibati xəta haqqında işlərin və inzibati xəta törətmiş şəxslərin sayı 3,4 dəfə artmışdır (2022-ci ildə 321 nəfərin barəsində 318 inzibati xəta haqqında işə baxılmışdır).

2023-cü ildə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 414 nəfərə (38,05%) inzibati həbs, 325 nəfərə (29,87%) inzibati cərimə, 35 nəfərə (3,22%) inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 35 nəfərə (3,22%) inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması, 9 nəfərə (0,83%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 258 nəfərin (23,71%) barəsində 258 inzibati xəta haqqında işin icraatına xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayətlər üzrə 9 qərar dəyişdirilmədən saxlanılmış, 3 qərar ləğv edilərək inzibati xəta haqqında iş üzrə icraata xitam verilmişdir.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2022 və 2023-cü illərə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:






Göründüyü kimi 2022-ci illə müqayisədə 2023-cü ildə birinci instansiya məhkəmələri tərəfindən baxılan sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 2,4 dəfə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3,36 dəfə, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 11,25 dəfə, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 10,26%, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3,82 dəfə, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3,88 dəfə artmış, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 3,85%, hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 16,33% azalmışdır. Ötən ildən fərqli olaraq 2023-cü ildə muxtar respublika məhkəmələrinin icraatına siyasi, sosial və əmək hüquqları əleyhinə olan, ticarət qaydaları əleyhinə olan, əhalinin sanitariya-gigiyena və sanitariya-

epidemioloji salamatlığı qaydaları əleyhinə olan və digər inzibati xətalar haqqında işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2022 və 2023-cü illərə dair göstəriciləri aşağıdakı diaqramda təsvir olunduğu kimi olmuşdur:




2023-cü ildə muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 71 apellyasiya şikayəti verilmişdir.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin 4, Naxçıvan Şəhər Məhkəməsinin 20, Babək Rayon Məhkəməsinin 3, Culfa Rayon Məhkəməsinin 2, Şərur Rayon Məhkəməsinin 5, Kəngərli Rayon Məhkəməsinin 1 qərarından və Culfa Rayon Məhkəməsinin 1 qərardadından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərardad və qərarlar dəyişdirilmədən saxlanılmış, Naxçıvan Şəhər Məhkəməsinin 1, Şərur Rayon Məhkəməsinin 2 və Kəngərli Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar dəyişdirilmiş, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin 1, Naxçıvan Şəhər Məhkəməsinin 26, Şərur Rayon Məhkəməsinin 1, Babək Rayon

Məhkəməsinin 2 və Ordubad Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar ləğv edilmişdir.

Beləliklə muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2023-cü ildə inzibati xətalara dair işlər üzrə çıxarılan qərarlardan 3,22%-i ləğv edildiyindən və dəyişdirildiyindən qərarların sabitlik göstəricisi 96,78% təşkil etmişdir.

2023-cü ildə baxılmış işlər üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının qərarlarından Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 18 cinayət işi üzrə kasasiya şikayəti verilmiş, həmin işlərdən 17 qərar dəyişdirilmədən saxlanılmış, 1 qərar dəyişdirilmişdir.

Beləliklə, 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 98.28% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈≈≈



# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

***İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı***

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarların icmalı dərc olunur. Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

***1. Vinter və başqaları Birləşmiş Krallığa qarşı [BP]*** **– ərizələr № 66069/09, 130/10 və 3896/10** - 09.07.2013-cü il tarixli qərar [BP]

**Maddə 3**

**Ləyaqəti alçaldan rəftar**

**Qeyri-insani rəftar**

Şəxsin yalnız sağalmaz xəstəliyə düçar olduğu və ya fəaliyyət qabiliyyətini ciddi surətdə itirdiyi təqdirdə azadlığa buraxılmaq imkanına malik olmaqla ömürlük həbs cəzası alması: *pozuntu baş verib*.

*Faktlar* – İngiltərə və Uelsdə adam öldürməyə görə məcburi ömürlük həbs cəzası təyin olunur. Cinayət işləri üzrə ədalət mühakiməsi haqqında 2003-cü il tarixli Qanun qüvvəyə minənə qədər nazir məcburi ömürlük həbs cəzası almış məhbuslar üçün tarif müddətini, yəni xüsusi icazə əsasında vaxtından əvvəl azadlığa buraxılmaq hüququ əldə etmək üçün cəzanın çəkilməli olan minimum müddətini təyin etmək səlahiyyətinə malik idi. Qanun qüvvəyə mindikdən sonra hazırda bu səlahiyyət birinci instansiya məhkəməsinin hakimi tərəfindən həyata keçirilir. Əvvəlki praktikaya uyğun olaraq tarif müddətləri nazir tərəfindən təyin olunmuş məhbuslar həmin müddətə yenidən baxılması üçün Yüksək Məhkəməyə müraciət edə bilərlər.

Hər üç ərizəçi adam öldürməyə görə məhkum edildikdən sonra barələrində "həmişəlik həbs qərarı" çıxarılmışdı. Bu qərar o demək idi ki, onların cinayətləri o qədər ciddi sayılır ki, nazir müstəsna halların (praktiki olaraq sağalmaz xəstəlik və ya fəaliyyət qabiliyyətinin ciddi surətdə itirilməsi hallarının) mövcud olduğu qənaətinə gələrək mərhəmət mülahizələri əsasında azadetmə qərarı çıxarmaqdan ibarət diskresion səlahiyyətini həyata keçirməsə, onlar ömürlərinin sonunadək həbsxanada qala bilərlər. Birinci

ərizəçi cənab Vinter barəsində həmişəlik həbs qərarı birinci instansiya məhkəməsinin hakimi tərəfindən 2003-cü il tarixli Qanun əsasında çıxarılmış və Apellyasiya Məhkəməsi tərəfindən bu əsaslara görə qüvvədə saxlanılmışdı ki, cənab Vinter əvvəllər adam öldürməyə görə məhkum olunub. İkinci və üçüncü ərizəçilərin barəsində həmişəlik həbs qərarları əvvəlki praktikaya uyğun olaraq nazir tərəfindən qəbul edilmiş və Yüksək Məhkəmə 2003-cü il tarixli Qanun əsasında bu qərarlara yenidən baxdıqdan sonra öz qərarlarında onları təsdiq etmiş, onun qərarları isə sonradan apellyasiya icraatında qüvvədə saxlanılmışdı. İkinci ərizəçi cənab Bamberin işində qeyd edilmişdi ki, qətllər öncədən düşünülüb və çoxsaylı qurbanları əhatə edib; üçüncü ərizəçi cənab Murun işində isə bu amillər, eləcə də cinsi ehtirasları təmin etmək motivləri mövcud idi.

Avropa Məhkəməsinə ərizələrində ərizəçilər şikayət etdilər ki, həmişəlik həbs qərarlarının tətbiqi o deməkdir ki, onların cəzaları faktiki olaraq müddətlərinin azaldılması mümkün olmayan cəzalardır, bu isə Konvensiyanın 3-cü maddəsinin pozuntusudur.

17 yanvar 2012-ci il tarixli qərarında (148 saylı Məlumat bülleteninə bax) Məhkəmənin Palatası üç səsə qarşı dörd səslə belə hesab etdi ki, Konvensiyanın 3-cü maddəsinin pozuntusu baş verməyib, çünki ərizəçilərin cəzaları qeyri-insani və ya ləyaqəti alçaldan rəftar təşkil etmir. Konkret olaraq, ərizəçilər həbsdə saxlanılmalarının davam etdirilməsinin artıq qanuni cəzalandırma məqsədlərinə xidmət etmədiyini sübuta yetirməyiblər. Palata həmçinin bu faktı vurğuladı ki, ərizəçilərin barəsindəki həmişəlik həbs qərarları ya son dövrlərdə birinci instansiya məhkəməsinin hakimi tərəfindən qəbul edilib (cənab Vinterin işində), ya da son dövrlərdə həmin qərara Yüksək Məhkəmə tərəfindən yenidən baxılıb (cənab Bamberlə cənab Murun işlərində).

*Hüquqi məsələlər* – Maddə 3: Böyük Palata Palatanın bu rəyi ilə razılaşdı və onu təsdiq etdi ki, açıq-aydın qeyri-mütənasib cəza Konvensiyanın 3-cü maddəsini pozmuş olacaq, hərçənd ki, bu meyara uyğun gələn hallar yalnız "nadir və unikal hallardır". Hazırkı işdə ərizəçilər həmişəlik həbs qərarlarının açıq-aydın qeyri-mütənasib cəza təşkil etdiyini iddia etməyiblər; əvəzində onlar bildiriblər ki, cəza müddətlərinə yenidən baxılmasını nəzərdə tutan prosessual tələbin olmaması qəddar rəftar təşkil edir və bu rəftar, Palata tərəfindən müəyyən edildiyi kimi, onların həbsdə saxlanılmasının davam etdirilməsinə qanuni cəzalandırma məqsədləri ilə daha haqq qazandırmağın mümkün olmadığı andan deyil, həmin qərarın qəbul edildiyi andan başlayıb.

Məhkəmə xatırlatdı ki, konkret cinayətlərə görə həbs cəzalarının müvafiq müddəti barədə qərar verməkdə iştirakçı dövlətlərə müəyyən qiymətləndirmə sərbəstliyi verilməlidir və onlar xüsusilə ağır cinayətlərə görə yetkinlik yaşına çatmış cinayətkarlara ömürlük həbs cəzası təyin etməkdə də sərbəst olmalıdırlar. Lakin yetkinlik yaşına çatmış şəxsə müddətinin azaldılması mümkün olmayan ömürlük həbs cəzasının təyin olunması 3-cü maddə üzrə məsələni meydana çıxara bilər. Konkret işdə ömürlük həbs cəzasının müddətinin azaldılması mümkün olmayan cəza olub-olmadığını müəyyənləşdirərkən Məhkəmə onu aydınlaşdırmağa çalışır ki, ömürlük azadlıqdan məhrum edilmiş məhbusun azadlığa buraxılma perspektivinə malik olduğunu söyləmək olarmı? Milli qanunvericilikdə ömürlük həbs cəzasının başqa cəza ilə əvəzlənməsi, yüngülləşdirilməsi, bu cəzaya xitam verilməsi və ya məhbusun şərti azadlığa buraxılması məqsədi ilə bu cəzaya yenidən baxılması imkanı nəzərdə tutulubsa, bu, həmin cəzanın 3-cü maddənin tələblərinə uyğun olması üçün yetərlidir.

Ömürlük həbs cəzasının 3-cü maddəyə uyğun hesab edilməsi üçün azad edilmə perspektivi və cəzaya yenidən baxılması imkanı mövcud olmalıdır ki, bunun da bir sıra səbəbləri var. Birincisi, aydın məsələdir ki, həbslə cəzalandırma üçün qanuni əsaslar olmadıqda məhbus həbsdə saxlanıla bilməz. Lakin həbsə haqq qazandıran əsaslar arasında balans statik (durğun) olmaya da bilər və cəzaçəkmənin gedişində dəyişə bilər. Bu amilləri və ya dəyişiklikləri yalnız cəzaçəkmənin müəyyən məqamında davamlı həbsə haqq qazandıran əsaslara yenidən baxılması yolu ilə düzgün qiymətləndirmək olar. İkincisi, əgər məhbus azadlığa buraxılması üçün hər hansı perspektiv olmadan və barəsindəki ömürlük həbs cəzasına yenidən baxılması imkanı olmadan həbsdə saxlanılarsa, bu halda o, həbsxanada nə edirsə-etsin, islah istiqamətində nə qədər müstəsna irəliləyişə nail olursa-olsun, cinayətinə görə günahını heç vaxt yuya bilməməsi riski mövcud olar. Üçüncüsü, dövlət şəxsə ən azı nə vaxtsa yenidən azadlığa çıxma şansı vermədən onu məcburi qaydada azadlıqdan məhrum etsəydi, bu, insan ləyaqətinə hörmət edilməsi tələbinə zidd olardı. Bundan başqa, hazırda Avropa hüququnda və beynəlxalq hüquqda bu prinsip açıq-aydın dəstəklənir ki, bütün məhbusların, o cümlədən ömürlük həbs cəzası çəkənlərin islah olunmasına imkan yaradılmalı və islaha nail olunduqda onların azadlığa çıxma perspektivi olmalıdır.

Müvafiq olaraq, 3-cü maddə cəzanın çəkilməli müddətinin azaldılmasının mümkünlüyünü nəzərdə tutan maddə kimi şərh olunmalıdır, yəni dövlət orqanlarının məhbusun həyatında hər hansı mühüm dəyişikliyin və cəzaçəkmənin gedişində islah istiqamətində irəliləyişin baş verib-

verməditini nəzərdən keçirə bilmələri üçün cəza müddətinə yenidən baxılmalıdır, bunların baş verməsi isə o deməkdir ki, həbsdə saxlanılmanın bundan sonra da davam etdirilməsi qanuni cəzalandırma məqsədlərinə xidmət edə bilməz. Yenidən baxmanın hansı formada (icra, yoxsa məhkəmə hakimiyyəti tərəfindən) aparılmalı olduğunu təyin etmək və ya nə zaman həyata keçirilməli olduğunu müəyyənləşdirmək Məhkəmənin vəzifəsi olmasa da, Məhkəmənin sərəncamında olan müqayisəli hüquqla beynəlxalq hüququn materialları göstərir ki, ömürlük həbs cəzası təyin edildikdən sonra cəza müddətinə iyirmi beş ildən gec olmamaqla, daha sonra isə mütəmadi dövriliklə yenidən baxılmasını təmin edən müəyyən mexanizmin nəzərdə tutulması açıq-aydın dəstəklənir. Daxili qanunvericilikdə bu cür yenidən baxma imkanı nəzərdə tutulmayıbsa, ömürlük həbs cəzası Konvensiyanın 3-cü maddəsinin standartlarına cavab verməyəcək. Nəhayət, baxmayaraq ki, zəruri yenidən baxma cəzanın təyin edilməsindən müəyyən müddət keçdikdən sonra baş verən, gələcək zamana aid olan hadisədir, ömürlük həbs cəzası almış məhbus cəza müddətinə yenidən baxılması nöqteyi-nəzərindən ittiham hökmündə yer alan hüquqi şərtlərin 3-cü maddənin tələblərinə cavab vermədiyi barədə şikayət vermək üçün gözləməyə və cəzasının qeyri-müəyyən miqdarda illərini çəkməyə məcbur edilməməlidir. Barəsində həmişəlik həbs qərarı çıxarılmış məhbus cəzaçəkmənin başlanğıcında bunları bilmək hüququna malikdir ki, azadlığa buraxılması məsələsinə baxılması üçün nə etməlidir, bu məsələyə hansı şərtlərlə baxılacaq, o cümlədən cəza müddətinə nə zaman yenidən baxılacaq və ya yenidən baxma üçün nə zaman müraciət etməlidir. Müvafiq olaraq, həmişəlik həbs cəzasına yenidən baxılması üçün daxili qanunvericilikdə hər hansı mexanizm və ya imkan nəzərdə tutulmayıbsa, bu əsasa görə həmin cəzanın 3-cü maddəyə zidd olması məsələsi sonrakı mərhələ olan azadlıqdan məhrumetmə cəzasının çəkilməsi mərhələsində deyil, artıq həmişəlik həbs cəzasının təyin edildiyi andan meydana çıxmış olur.

Hökumət Məhkəmə qarşısında iddia etdi ki, 2003-cü il tarixli Qanunun məqsədi ömürlük həbs cəzaları ilə bağlı qərarların qəbulu prosesindən icra hakimiyyətini kənarlaşdırmaq idi və nazirin əvvəllər mövcud olmuş 25 ildən sonra cəza müddətinə yenidən baxma səlahiyyətinin ləğv edilməsinin səbəbi də məhz bu idi. Lakin Məhkəmə hesab etdi ki, 25 ildən sonra cəza müddətinə yenidən baxılmasını tamamilə ləğv etməkdənsə, həmin yenidən baxmanın məhkəmə sistemi tərəfindən həyata keçirilməsinin qanunvericilikdə nəzərdə tutulması daha ardıcıl mövqe olardı.

Məhkəmə həmçinin bu qənaətə gəldi ki, İngiltərə və Uelsin cari qanunvericiliyində ömürlük həbs cəzası almış məhbusların azadlığa buraxılması perspektivi ilə bağlı aydınlıq yoxdur. 1997-ci il tarixli Qanunun 30-cu maddəsi ədliyyə nazirinə istənilən məhbusu, o cümlədən həmişəlik həbs cəzası çəkənləri azad etmək səlahiyyəti versə də, həbsxanada cəzaçəkmə haqqında əmrin müvafiq müddəalarında nəzərdə tutulub ki, məhbus yalnız sağalmaz xəstəliyə düçar olduqda və ya fiziki cəhətdən fəaliyyət qabiliyyətini itirdikdə onun azadlığa buraxılması barədə qərar çıxarıla bilər. Bunlar olduqca məhdudlaşdırıcı şərtlər idi və Məhkəmənin rəyinə görə, mərhəmət mülahizələrinə görə bu cür azadetmə *Kafkarisin işində* nəzərdə tutulmuş "azadlığa buraxılma perspektivi" demək deyildi.

Buna görə də, 30-cu maddənin geniş çərçivəli şərhi ilə həbsxanada cəzaçəkmə haqqında əmrdə verilən tam siyahının şərtləri arasındakı bu ziddiyyəti, eləcə də həmişəlik həbs cəzası almış məhbusların cəza müddətinə yenidən baxılmasını nəzərdə tutan mexanizmin olmamasını nəzərə alaraq, Məhkəmə əmin deyil ki, Konvensiyanın 3-cü maddəsinin məqsədləri üçün hazırda ərizəçilərin ömürlük həbs cəzalarını müddətinin azaldılması mümkün olan cəza hesab etmək olardı. Beləliklə, bu məsələdə hər üç ərizəçi barəsində həmin maddənin tələbləri yerinə yetirilməyib.

Bununla belə, Məhkəmə vurğuladı ki, ərizəçilərin işində pozuntunun müəyyən edilməsi faktı onlar üçün dərhal azadlığa buraxılma perspektivi yaradan fakt kimi başa düşülməməlidir. Onların azad edilməli olub-olmaması, məsələn, bu amillərdən asılıdır: onların həbsdə saxlanılmasının davam etdirilməsinə qanuni cəzalandırma məqsədləri ilə hələ də haqq qazandırmaq olarmı və onların cəmiyyət üçün təhlükəli olduqlarına görə həbsdə qalmasına əsas varmı? Bu suallar bu işdə cavablandırılmalı suallar deyil və Məhkəmədə bunlarla bağlı hər hansı arqument irəli sürülməyib.

*Nəticə*: pozuntu baş verib (bir səsə qarşı on altı səslə).

Maddə 41: Pozuntunun müəyyən edilməsi faktının özü birinci ərizəçinin məruz qaldığı hər hansı mənəvi ziyana görə yetərincə ədalətli kompensasiya təşkil edir. Digər ərizəçilər tərəfindən heç bir kompensasiya tələbi irəli sürülməyib.

≈≈≈

***2.* Driza Albaniyaya qarşı (Driza v. Albania), ərizə № 33771/02**
13.11.2007-ci il tarixli qərar [IV Bölmə]

**6-cı maddə**

*Mülki proses*

**6-cı maddənin 1-ci bəndi**

*Məhkəməyə müraciət hüququ*

*Ədalətli məhkəmə araşdırması hüququ*

Yekun məhkəmə qərarlarına məhkəmə nəzarəti qaydasında yenidən baxılması və Ali Məhkəmənin qərəzliliyi; mülkiyyət hüquqlarının bərpası üçün çıxarılmış məhkəmə qərarlarının və inzibati qərarların icra olunmaması: *pozuntular baş verib.*

**13-cü maddə**

*Səmərəli hüquqi müdafiə vasitələri*

Adekvat prosedurların və qanunvericilik bazasının olmaması səbəbindən ərizəçilərin məhkəmələr və inzibati orqanlar tərəfindən çıxarılmış kompensasiya qərarlarının icrasına nail ola bilməməsi: *pozuntular baş verib.*

**46-cı maddə**

**46-cı maddənin 2-ci bəndi**

*Məhkəmə qərarının icrası*

*Ümumi xarakterli tədbirlər*

Ölkənin hüquq sistemindəki nöqsanlar ucbatından mülkiyyət hüquqlarının bərpası və (və ya) ziyanın kompensasiyası barədə məhkəmələr və inzibati orqanlar tərəfindən çıxarılmış qərarların icrasına ərizəçilərin nail ola bilməməsi: *qərara alındı ki, cavabdeh dövlət pozuntuları aradan qaldırmaq üçün müvafiq qanunvericilik, inzibati və büdcə tədbirlərini həyata keçirməlidir.*

[Bu hüquqi icmal həmçinin *Ramazi və başqaları Albaniyaya qarşı* (*Ramadhi and Others v. Albania*) iş üzrə qərarı (ərizə № 38222/02, 13 noyabr 2007-ci il) əhatə edir]

*Faktlar* – Bu iki iş keçmiş kommunist rejimi dövründə ərizəçilərin atalarının torpaq sahəsinin müsadirə olunması ilə əlaqədar olaraq "Mülkiyyət hüquqlarının bərpası (restitusiya) və kompensasiya haqqında" 1993-cü il tarixli Qanun ("Mülkiyyət haqqında Qanun") əsasında onlara kompensasiya təyin edilməsi barədə qərarların icrasına ərizəçilərin nail ola bilməməsinə aiddir.

*Drizanın işində* ərizəçi atasının mülkiyyətinin (torpaq sahəsinin) milliləşdirilməsinin qanunsuz elan edilməsi və restitusiya (mülkiyyət hüquqlarının bərpası) barədə məhkəmə qərarının çıxarılmasına nail olmuşdu.

Dövlət orqanları mülkiyyəti ərizəçiyə qaytarmaq iqtidarında olmadıqlarına görə onun əvəzinə ərizəçiyə iki başqa torpaq sahəsinin ayrılması barədə qərar çıxarıldı və bu qərar Mülkiyyətin restitusiyası və kompensasiya məsələləri üzrə komissiya tərəfindən təsdiq edildi. Lakin ərizəçi torpaq sahələrinə sahiblik edə bilmədi, çünki həmin sahələr üçüncü şəxslər tərəfindən tutulmuşdu. Mübahisəli torpaq sahələri üzərində ərizəçinin mülkiyyət hüququnun tanınması barədə qərarın etibarsız elan edilməsi üçün ərizəçiyə qarşı iki məhkəmə işi qaldırıldı. Birinci iş üzrə icraatda ərizəçinin nisbətən kiçik torpaq sahəsi ilə əlaqədar tələbləri Ali Məhkəmə kollegiyalarının plenar iclası tərəfindən rədd edildi və yuxarıda qeyd edilən Komissiyanın ərizəçinin xeyrinə çıxardığı qərarı təsdiq etmiş Ali Məhkəmənin inzibati işlər üzrə kollegiyasının qanuni qüvvəyə minmiş qərarından həmin torpaq sahəsinin faktiki sahibinin məhkəmə nəzarəti qaydasında verdiyi şikayət təmin edildi. İkinci iş üzrə icraatda Ali Məhkəmənin mülki işlər üzrə kollegiyası Komissiyanın ərizəçinin xeyrinə çıxardığı qərarı ləğv etmiş rayon məhkəməsinin qərarını qüvvədə saxladı və belə əsas gətirdi ki, Komissiya bu qərarı qəbul edərkən səlahiyyətlərinin hüdudlarını aşıb. Yekunda ərizəçiyə kompensasiya təyin olundu, amma həmin kompensasiya ödənilmədi.

*Ramazi və başqalarının işində* ərizəçilər konkret olaraq torpaq sahəsinin onlara qaytarılması və ziyana görə kompensasiya ödənilməsi barədə Mülkiyyətin restitusiyası və kompensasiya məsələləri üzrə komissiyanın qərar çıxarmasına nail olmuşdular. Onların torpaq üzərində sahiblik hüququnu həyata keçirmələrinə maneə yaradılmadı, amma kompensasiya ala bilmədilər. Ərizəçilər digər torpaq sahəsi ilə bağlı daha bir iş qaldırdılar. Rayon məhkəməsi işə baxdıqdan sonra ərizəçilərdən üçü son nəticədə torpaq komissiyasının onların mülkiyyət hüquqlarını təsdiqləyən qərar qəbul etməsinə nail olsalar da, yerli hakimiyyət orqanları torpaq sahələrini üçüncü şəxslərə verdilər.

*Hüquqi məsələlər* – **6-cı maddənin 1-ci bəndi:** *Drizanın işi*: Ərizəçi qanuni qüvvəyə minmiş məhkəmə qərarının məhkəmə nəzarəti qaydasında yenidən baxılaraq ləğv edilməsindən şikayət etdi, həmçinin qeyd etdi ki, işə Ali Məhkəmə kollegiyalarının plenar iclasında baxılarkən qərəzsizlik tələbinə riayət edilməyib və dövlət orqanları qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icrasını təmin etməyiblər.

a) Hüquqi müəyyənlik prinsipinə riayət edilib-edilməməsi məsələsi: Qanuni qüvvəyə minmiş məhkəmə qərarına yenidən baxılmasına yol verməklə və işi iki paralel məhkəmə prosesində araşdırmaqla Ali Məhkəmə işə mahiyyəti üzrə baxıldıqdan sonra çıxarılmış və qanuni qüvvəyə minmiş

məhkəmə qərarını ləğv etmişdi, halbuki *res judicata* (yekun qərar çıxarılmaqla həll olunmuş işə təkrarən baxılmasının yolverilməzliyi) prinsipi bu qərara şamil olunurdu.

b) Qərəzsizlik tələbinə riayət edilib-edilməməsi məsələsi: İşə məhkəmə nəzarəti qaydasında yenidən baxılması Ali Məhkəmə sədrinin təşəbbüsü ilə həyata keçirilmişdi və həmin sədr bundan öncə artıq ərizəçinin əleyhinə qərar çıxarmışdı. Sədr həmçinin işə məhkəmə nəzarəti qaydasında yenidən baxılması üçün onun qaldırdığı vəsatətə baxmış və ərizəçinin xeyrinə çıxarılan məhkəmə qərarının ləğvi barədə qərar qəbul etmiş Ali Məhkəmənin hakimlər heyətinin tərkibinə daxil idi. Bu praktika "subyektiv qərəzsizlik" prinsipinə zidd idi, çünki bir şəxs eyni işdə həm vəsatət qaldıran tərəf, həm də hakim qismində çıxış edə bilməzdi. Ali Məhkəmə kollegiyalarının plenar iclasının obyektiv qərəzsizliyi də şübhə altında idi, belə ki, bu işin həllində iştirak etmiş hakimlərdən üçü vəsatətin təmin olunması məsələsinə baxmış və sonradan işi mahiyyəti üzrə həll etmişdilər, digər üç hakim isə artıq öncə rəylərini ifadə etdikləri məsələ barəsində yenidən qərar çıxarmalı idilər.

c) Yekun məhkəmə qərarlarının icra edilməməsi: Mülkiyyət hüquqlarının bərpası barədə qanuni qüvvəyə minmiş qərarların icra olunmaması məsələsi, Avropa Məhkəməsi tərəfindən öncə verilmiş göstərişlərə baxmayaraq, Albaniyada açıq-aşkar problem olaraq qalır. Ali Məhkəmənin qərarlarının icrası üçün dövlət orqanlarının zəruri tədbirlər görməyə qadir olmaması bu işdə 6-cı maddənin 1-ci bəndinin müddəalarını hər cür səmərəlilikdən məhrum edib.

*Nəticə*: pozuntular baş verib (yekdilliklə).

*Ramazi və başqalarının işi*: Yekun məhkəmə qərarlarının icra edilməməsi: Rayon məhkəməsi ərizəçilərin tələblərinə yenidən baxılması barədə torpaq komissiyasına göstəriş verdikdən sonra torpaq komissiyası konkret olaraq üç torpaq sahəsi üzərində ərizəçilərin mülkiyyət hüquqlarını tanımışdı. Amma sonradan bu torpaq sahələri üçüncü şəxslərin mülkiyyətinə verildi. Beləliklə, üç ərizəçinin mülkiyyət hüquqları həllini tapmayıb və dövlət orqanları rayon məhkəməsinin qərarının icrasını təmin etməyiblər.

*Nəticə*: pozuntu baş verib (yekdilliklə).

**Maddə 13:** *Drizanın işi*: Hökumət ilkin əmlakın mülkiyyətçiyə qaytarılması mümkün olmayan hallarda kompensasiya tələblərinə baxılması üçün adekvat proseduru təmin etməyib. Konkret olaraq əmlakın qiymətləndirilməsi üçün xüsusi orqanlar yaradılmayıb və ya bu məqsəd üçün müvafiq vasitələr hazırlanmayıb. Ərizəçilərin hüquqlarının bərpası ilə bağlı

mübahisələrin həllini təmin edən sistemin ləngidilmədən və ya kifayət qədər tezliklə yaradılacağını düşünmək üçün əsas da yoxdur.

*Nəticə*: 1 saylı Protokolun 1-ci maddəsi ilə birgə götürülməklə 13-cü maddənin pozuntusu baş verib (yekdilliklə).

*Ramazi və başqalarının işi*: Yekun qərarların məhkəmə və ya inzibati orqan tərəfindən qəbul edilməsindən asılı olmayaraq, milli qanunvericiliyə və Konvensiyaya əsasən onların icrası təmin olunmalıdır. Lakin Komissiyanın ərizəçilərin xeyrinə çıxardığı qərarların icrası üçün heç bir tədbir görülməyib. Ölkədə Komissiyanın qərarlarının icrasını tənzimləyən qanunvericilik yox idi, konkret olaraq, bu qərarlardan şikayət verilməsinin müddətləri və ya onların məcburi qaydada icrasını təmin etmək üçün hər hansı hüquqi müdafiə vasitələri nəzərdə tutulmamışdı. Müvafiq kompensasiya formalarının və üsullarının müəyyən edilməsi vəzifəsi Nazirlər Şurasının üzərinə düşürdü, o isə hələ bu məsələyə dair təfsilatlı qayda və metodları hazırlamamışdı. Ərizəçilərin xeyrinə çıxarılmış qərarlar 11 ildən artıq müddət ərzində icra olunmayıb, Hökumət isə müvafiq tədbirlərin təxirə salınmadan görüləcəyini təsdiq edən heç bir sübut təqdim etməyib.

*Nəticə*: 6-cı maddənin 1-ci bəndi ilə birgə götürülməklə 13-cü maddənin pozuntusu baş verib (yekdilliklə).

Hər iki işdə 1 saylı Protokolun 1-ci maddəsinə riayət edilib-edilməməsi məsələsi: Məhkəmələrin və (və ya) inzibati orqanların ərizəçilərin xeyrinə çıxardıqları qərarların icrasının dövlət orqanları tərəfindən uzun illər ərzində təmin edilməməsi onların öz mülkiyyətindən maneəsiz istifadə hüququna müdaxilə təşkil edib və Hökumət həmin müdaxiləyə haqq qazandıran inandırıcı izahat təqdim etməyib. Qanuni qüvvəyə minmiş və icrası məcburi olan məhkəmə qərarının icrasının təmin etmək dövlətin vəzifəsidir və bu vəzifənin yerinə yetirilməməsinə vəsait çatışmazlığı ilə haqq qazandırıla bilməz.

*Nəticə*: pozuntular baş verib (yekdilliklə).

Hər iki işdə 46-cı maddəyə riayət edilib-edilməməsi məsələsi: Albaniyanın hüquq sistemində müşahidə edilən nöqsanlar o deməkdir ki, indiyədək fərdlərin bütöv bir kateqoriyası onlara kompensasiya təyin edilməsi barədə məhkəmələrin və komissiyaların qərarlarının icra olunmaması nəticəsində öz mülkiyyətindən maneəsiz istifadə hüququndan məhrum olub. Artıq Avropa Məhkəməsinin icraatında onlarla belə şikayət var. Şikayətlərin sayının durmadan artması dövlətin Konvensiya üzrə məsuliyyətini ağırlaşdıran amildir və Konvensiya sisteminin gələcək səmərəliliyinə təhlükə yaradır.

Buna görə də Albaniyaya təklif olundu ki, Mülkiyyət haqqında Qanuna uyğun olaraq kompensasiyaların təyin olunması qarşısındakı maneələri aradan qaldırsın və təxirə salmadan müvafiq qanunverici, inzibati və büdcə tədbirlərinin həyata keçirilməsini, o cümlədən mülkiyyətin qiymətləndirilməsi üçün planların hazırlanmasını və zəruri vəsaitlərin ayrılmasını təmin etsin.

**Maddə 41:** *Drizanın işi*: Nisbətən kiçik torpaq sahəsinə gəlincə, Albaniya ərizəçiyə 1.650 kvadrat metr sahəsi olan torpaq sahəsini qaytarmalı və 50.000 avro ödəməlidir, hüquqların bu yolla bərpası həyata keçirilmədikdə isə, maddi və mənəvi ziyanın kompensasiyası üçün 280.000 avro ödəməlidir. O, həmçinin nisbətən böyük torpaq sahəsinə görə ərizəçiyə onun məruz qaldığı maddi və mənəvi ziyanın kompensasiyası üçün 500.000 avro ödəməlidir.

*Ramazi və başqalarının işi*: Albaniya birinci üç ərizəçiyə 30.500 kvadrat metrlik torpaq sahəsini qaytarmalı və maddi və mənəvi ziyanın kompensasiyası üçün onlara birlikdə 25.000 avro ödəməlidir. Hüquqların bu yolla bərpası həyata keçirilmədikdə isə, maddi və mənəvi ziyanın kompensasiyası üçün 120.000 avro ödənilməlidir. 5.500 kvadrat metrlik torpaq sahəsinə və mağazalara gəlincə, onlarla əlaqədar maddi və mənəvi ziyanın kompensasiyası üçün ərizəçilərə birlikdə 64.000 avro təyin edildi.

≈ ≈ ≈

***3.* Katikaridis (Katikaridis) və başqaları Yunanıstana qarşı – ərizə № <u>19385/92</u>** 15.11.1996 tarixli qərar

**1 saylı Protokolun 1-ci maddəsi**

**1 saylı Protokolun 1-ci maddəsinin birinci hissəsi**

**Mülkiyyətdən məhrumetmə**

Magistral yolun yaxşılaşdırılmasından ərizəçilərin yararlanmalarının yetərli kompensasiya təşkil etdiyini nəzərdə tutan prezumpsiya əsasında əmlaklarının magistral yola çıxan hissəsinin müsadirə olunmasına görə ərizəçilərin tam kompensasiya ala bilməməsi: *pozuntu baş verib*

[Bu qısa icmal Məhkəmənin rəsmi məlumatlar toplusundan (A seriyaları və ya “Qərar və qərardadlara dair məlumatlar toplusu”) götürülüb. Buna görə də onun formatı və quruluşu presedent hüququna dair məlumat bülletenlərində yer alan qısa icmallardan fərqlənə bilər.]

**I. Hökumətin ilkin etirazı (daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməməsi)**

Hökumətin ilkin etirazının birinci aspekti: Hökumət iddia etmişdi ki, ərizəçilər daxili məhkəmələrdəki icraatlarda 1 saylı Protokolun 1-ci maddəsinə istinad etməyiblər – Məhkəmə müəyyən etdi ki, Kassasiya Məhkəməsinin plenar iclasında ərizəçilər Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə və 1 saylı Protokolun 1-ci maddəsinə açıq-aydın istinad etmişdilər. İkinci aspekt: Hökumət iddia etmişdi ki, Kassasiya Məhkəməsinin Dördüncü bölməsindəki icraat hələ başa çatmayıb – Məhkəmə müəyyən etdi ki, Kassasiya Məhkəməsinin plenar iclasının 6 iyun 1991-ci il tarixli qərarından sonra bu cür icraatın ərizəçilər üçün heç bir uğur perspektivi yoxdur.

*Nəticə*: ilkin etiraz rədd edildi (yekdilliklə).

**II. Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi**

**A. Nəzərə alınmalı olan müddət**

Müddətin başlanma tarixi: Yunanıstanın Məhkəmənin fərdi şikayətləri qəbul etmək hüququnu tanıdığı barədə bəyanat verdiyi tarix.

Müddətin bitmə tarixi: Kassasiya Məhkəməsinin plenar iclasının qərar çıxardığı gün.

Ümumi müddət: beş il altı ay on yeddi gün.

**B. İcraatın uzun sürməsinin əsaslılığı**

Kassasiya Məhkəməsindəki icraat üç ildən bir az artıq davam etmişdi – belə uzun müddət bu faktdan irəli gəlirdi ki, işə məhkəmənin üç müxtəlif tərkibli hakimlər heyəti tərəfindən baxılmışdı.

*Nəticə*: pozuntu baş verməyib (yekdilliklə).

**III. 1 saylı Protokolun 1-ci maddəsi**

Ərizəçilər mülkiyyətlərindən məhrum olmuşdular – əmlaklarının müsadirəsi cəmiyyətin ümumi maraqlarına xidmət etməklə qanuni məqsəd daşıyırdı, yəni magistral yolun vəziyyətinin yaxşılaşdırılması məqsədini güdürdü.

Qanunvericilikdə nəzərdə tutulan və Kassasiya Məhkəməsinin rəyinə görə təkzibedilməz olan prezumpsiyanın mənası ondan ibarət idi ki, kompensasiyanın məbləği eni on beş metr olan sahənin dəyəri miqdarında azaldılır və mülkiyyətçilərin əslində bu işlərin nəticəsində müxtəlif məbləğlərdə itkilərə məruz qalmalarından şikayət etmələrinə icazə verilmir.

Bu sistem olduqca qeyri-mütəhərrik idi (və açıq-aydın məntiqi əsasa söykənmirdi) və mülkiyyət hüququnun müdafiəsi tələbi ilə cəmiyyətin ümumi maraqlarının tələbləri arasında ədalətli balansı təmin etmirdi, ərizəçilərin üzərinə fərdi və həddən artıq ağır yük qoyulmuşdu, bu vəziyyət yalnız o halda qanuni sayıla bilərdi ki, onlar daxili məhkəmələr tərəfindən

qiymətləndirilərək müəyyənləşdirilmiş kompensasiya məbləğini almaq imkanına malik olsunlar.

*Nəticə*: pozuntu baş verib (yekdilliklə).

**IV. Konvensiyanın 50-ci maddəsi**

A. Maddi ziyan: qərara alındı ki, bu məsələ həll olunmaq üçün hələ hazır deyil.

*Nəticə*: maddi ziyanla bağlı qərar çıxarılması təxirə salındı (yekdilliklə).

B. Məhkəmə xərcləri və digər məsrəflər: daxili məhkəmələrdəki icraatlarda və Konvensiya orqanlarında çəkilmiş xərclər qismən kompensasiya edildi.

*Nəticə*: cavabdeh dövlət qərarda göstərilən məbləği ərizəçilərə ödəməlidir (yekdilliklə).

≈ ≈ ≈

**4. Yeronoviçs (Jeronovičs) Latviyaya qarşı – ərizə № 44898/10** 05.07.2016 tarixli qərar [BP]

**Maddə 37**

**37-ci maddənin 1-ci bəndi**

**1 saylı Protokolun 1-ci maddəsinin ikinci hissəsi**

**Şikayətin baxılmalı işlərin siyahısından çıxarılması**

Hətta birtərəfli bəyanatın ardınca şikayətin baxılmalı işlərin siyahısından çıxarılması barədə qərar qəbul edildikdən sonra belə, cavabdeh dövlətin 3-cü maddə üzrə şikayətləri araşdırmaq öhdəliyi qüvvədə qalmaqda davam edir.

**Maddə 3**

**Səmərəli araşdırma**

Barəsində Hökumətin birtərəfli qaydada bəyanat verdiyi cinayət işinin icraatını təzələməkdən imtina edilməsi: *pozuntu baş verib.*

*Faktlar* – 1998-ci ildə ərizəçi polis əməkdaşları tərəfindən qəddar rəftara məruz qaldığını iddia edərək onlar barəsində cinayət işi başlanması üçün ərizə verdi. Son nəticədə həmin cinayət prosesinə xitam verildi. 2001-ci ildə ərizəçi Avropa Məhkəməsinə ərizə (№ 547/02) təqdim edərək digər məsələlərlə yanaşı qəddar rəftardan və səmərəli araşdırmanın aparılmamasından şikayət etdi. Hökumət bu şikayətlə bağlı birtərəfli qaydada bəyanat verərək 3-cü maddənin pozulduğunu etiraf etdi və ərizəçiyə kompensasiya təyin olunduğunu bildirdi. Sonradan 10 fevral 2009-cu ildə ərizədə yer alan və birtərəfli bəyanatda qeyd edilən şikayətlər baxılmalı işlərin siyahısından çıxarıldı idi. 2010-cu ildə dövlət orqanları cinayət işinin icraatının təzələnməsi barədə ərizəçinin vəsatətini rədd etdilər.

Avropa Məhkəməsinə təqdim etdiyi hazırkı ərizəsində ərizəçi şikayət etdi ki, onun Konvensiyanın 3-cü maddəsində nəzərdə tutulmuş hüquqlarının pozulduğunu Hökumətin etiraf etməsinə baxmayaraq, dövlət orqanları polis əməkdaşları tərəfindən törədilmiş qəddar rəftarı lazımi qaydada araşdırmayıblar. 3 fevral 2015-ci ildə Məhkəmənin Palatası Böyük Palatanın xeyrinə yurisdiksiyasından imtina etməyi qərara aldı.

*Hüquqi məsələlər* – 3-cü maddə

a) *Məhkəmənin birtərəfli bəyanatlarla bağlı presedent hüququ və praktikası* – Birtərəfli bəyanat əsasında Konvensiyanın 37-ci maddəsinin 1(c) bəndinə uyğun olaraq şikayət ərizəsini baxılmalı işlərin siyahısından bütünlüklə və ya qismən çıxarıb-çıxarmamaq barədə qərar verərkən nəzərə alınmalı olan mülahizələr aşağıdakılardır: i) irəli sürülmüş şikayətlərin xarakteri, Məhkəmənin çıxardığı qərarların icrası kontekstində cavabdeh dövlət tərəfindən görülmüş tədbirlərin xarakteri və əhatə dairəsi və bu tədbirlərin sözügedən işə təsiri; ii) birtərəfli bəyanatda əks olunan güzəştin xarakteri, konkret olaraq Konvensiyanın pozuntusunun etiraf edilməsi və həmin pozuntuya görə adekvat kompensasiyanın ödəniləcəyinin vəd edilməsi; iii) bu məsələ ilə bağlı müvafiq və ya “aydın və geniş” presedent hüququnun mövcud olması, başqa sözlə, ərizədə artıq Məhkəmə tərəfindən əvvəlki işlərdə həll edilmiş olan məsələlərlə müqayisə oluna bilən məsələlərin yer alması və s.) Hökumətin ərizəçini hansı üsulla kompensasiya ilə təmin etmək niyyətində olması və iddia edilən pozuntunun nəticələrini bu kompensasiya ilə aradan qaldırmağın mümkün olub-olmaması. Əgər yuxarıdakı sualların cavabları Məhkəməni qane edərsə, o, ərizədəki şikayətlərə və ya onların müvafiq hissəsinə baxılmasını davam etdirməyə haqq qazandıran əsasların qalıb-qalmadığını və insan hüquqlarına riayət olunmasının ərizəyə baxılmasını davam etdirməyi tələb edib-etmədiyini araşdırır. Bu şərtlər yerinə yetirilibsə, o, ərizədəki şikayətləri və ya onların müvafiq hissəsini baxılmalı işlərin siyahısından çıxarmağı qərara alır.

Hətta ona təqdim edilmiş birtərəfli bəyanatı qəbul etdikdən və ərizəni (və ya ərizədəki şikayətlərin müvafiq hissəsini) baxılmalı işlərin siyahısından çıxarmağı qərara aldıqdan sonra da Məhkəmə ərizəni (və ya ərizədəki şikayətlərin müvafiq hissəsini) baxılmalı işlərin siyahısında bərpa etmək hüququnu özündə saxlayır. Bu səlahiyyəti tətbiq edərkən Məhkəmə siyahıdan çıxarma qərarının qəbulu üçün əsas qismində qəbul edilmiş Hökumətin bəyanatında qeyd edilən müxtəlif öhdəliklərin həcmini və əhatə dairəsini hərtərəfli araşdırır və Hökumətin öhdəliklərinə riayət etməsini yoxlamaq üçün imkanın yaranacağı zamanı gözləyir. Beləliklə, Hökumətin birtərəfli

bəyanatı Məhkəmə tərəfindən yoxlanılmaq üçün iki dəfə təqdim edilə bilər. Birinci halda, Məhkəmə şikayət ərizəsinin baxılmalı işlərin siyahısından çıxarılması barədə qərarı qəbul etməzdən əvvəl birtərəfli bəyanatda yer alan güzəştlərin xarakterini, kompensasiyanın adekvat olub-olmadığını və insan hüquqlarına riayət olunmasının yuxarıdakı meyarlar əsasında ərizəyə baxılmasını davam etdirməyi tələb edib-etmədiyini araşdırır. İkinci halda isə, şikayət ərizəsinin baxılmalı işlərin siyahısından çıxarılması barədə qərar qəbul edildikdən sonra Hökumətin öhdəliklərini yerinə yetirməsinə Məhkəmə tərəfindən nəzarət edilməsi və ərizənin (və ya ərizədəki şikayətlərin müvafiq hissəsinin) baxılmalı işlərin siyahısında bərpa edilməsinə haqq qazandıran hər hansı "müstəsna halların" olub-olmadığının araşdırılması tələb oluna bilər. Hökumətin öhdəliklərini yerinə yetirməsinə nəzarət edərkən Məhkəmə həm birtərəfli bəyanatın, həm də şikayət ərizəsini baxılmalı işlərin siyahısından çıxarmaq barədə qərarın şərtlərini şərh etmək səlahiyyətinə malikdir.

b) *Şikayətin mahiyyəti* – Şikayətin baxılmalı işlərin siyahısından çıxarılması barədə qərarında Məhkəmə pozuntu etiraf edildikdən və kompensasiya ödənildikdən sonra səmərəli araşdırma aparmaq öhdəliyinin hələ də qüvvədə qaldığını, yoxsa aradan qalxdığını birmənalı şəkildə göstərməmişdi. Buna görə də Məhkəmə bu məsələni araşdırmalıdır ki, həmin öhdəlik Hökumətin birtərəfli bəyanatında yer alan öhdəlikdən və ərizəçinin şikayətinin baxılmalı işlərin siyahısından çıxarılması barədə Məhkəmənin qərarından irəli gəlirdimi, yaxud cinayət işinin icraatını təzələməkdən imtina edilməsi ərizədəki şikayətin siyahıdan çıxarılması barədə qərardan sonra mövcud olmaqda davam edən hər hansı prosessual öhdəliyə riayət edilmədiyini göstərirdimi?

Məhkəmə 10 fevral 2009-cu ildə işlərin siyahısından çıxarılmış olan 547/02 saylı ərizənin müvafiq hissəsinin baxılmalı işlərin siyahısında bərpa edilməsinə haqq qazandıra bilən heç bir müstəsna hal müəyyən etmədi. Bununla belə, o, 2009-cu il tarixli qərarda ərizənin müvafiq hissəsinin baxılmalı işlərin siyahısından çıxarılması barədə Məhkəmənin qərar çıxarmasının zəruri ilkin şərti qismində bu faktın qeyd edildiyini əhəmiyyətli hesab etdi ki, ərizəçi "kompensasiyaya nail olmaq üçün hər hansı digər hüquqi müdafiə vasitələrindən" istifadə etmək imkanını özündə saxlayır. Bu imkan cavabdeh dövlətin müvafiq öhdəliyi ilə, yəni ərizəçini dövlət nümayəndələri tərəfindən qəddar rəftara məruz qalmasının araşdırılması proseduru formasında hüquqi müdafiə vasitəsi ilə təmin etmək öhdəliyi ilə müşayiət olunmalı idi. Dövlət nümayəndələri tərəfindən bilərəkdən qəddar

rəftar baş verdiyi hallarda dövlətin 3-cü maddədən irəli gələn səmərəli araşdırma aparmaq öhdəliyi daşıdığını nəzərə alsaq, kompensasiyanın ödənilməsi yetərli olmaya bilərdi. Birtərəfli bəyanat proseduru müstəsna prosedurdur və onun məqsədi heç də ərizəçinin dostcasına həll prosedurundan imtina etməsindən yan keçmək və ya Hökumətin Konvensiyada yer alan təməl hüquqların pozuntularına görə məsuliyyətdən yayınmasına imkan yaratmaq deyil. Müvafiq olaraq, kompensasiya ödənilməsi və Konvensiyanın müxtəlif müddəalarının pozulduğunun etiraf edilməsi cavabdeh dövləti Konvensiyanın 3-cü maddəsi əsasında üzərinə düşən və davam etməkdə olan prosessual öhdəlikdən azad etmir.

Daxili qanunvericiliyə əsasən ərizəçi yeni aşkar edilmiş hallarla əlaqədar olaraq işin istintaqının təzələnməsi üçün vəsatət verə bilərdi və bu imkandan istifadə etmişdi. Lakin vəsatəti belə bir əsasa görə rədd edilmişdi ki, birtərəfli bəyanat sözügedən daxili qanunvericilik müddəasının məqsədləri üçün yeni aşkar edilmiş hal sayılmır. Baxmayaraq ki, Konvensiya xitam verilmiş işin icraatının təzələnməsini tələb etmək hüququnu prinsipcə təmin etmir, Məhkəmə bu məsələni nəzərdən keçirə bilər ki, ərizəçinin vəsatətinin Latviyanın dövlət orqanları tərəfindən araşdırılması üsulu qüvvədə qalmaqda davam edən səmərəli araşdırma aparmaq öhdəliyinə zidd olan nəticələr doğurmuşdumu? O, bu məsələ ilə bağlı bu qənaətə gəldi ki, milli qanunvericilikdəki maneələr dövlətləri bu cür öhdəliyi icra etmək vəzifəsindən azad edə bilməz. Əks halda dövlət nümayəndələri tərəfindən bilərəkdən törədilən qəddar rəftar hallarına dövlət orqanlarının reaksiyası sadəcə kompensasiya ödəməklə məhdudlaşardı və onlar təqsirkarları məsuliyyətə cəlb etməz və cəzalandırmazdılar. Bu, dövlət nümayəndələrinin bəzi hallarda nəzarətləri altında olan şəxslərin hüquqlarını faktiki olaraq cəzasız qalmaqla pozmalarına imkan yaradar, işgəncələrə və qeyri-insani və ləyaqəti alçaldan rəftara qoyulmuş ümumi qadağanın fundamental əhəmiyyətinə baxmayaraq onu praktikada səmərəsiz edərdi. Buradan belə nəticə çıxır ki, ərizəçi Konvensiyanın 3-cü maddəsi ilə tələb olunan səmərəli araşdırmadan istifadə etmək imkanına malik olmayıb.

*Nəticə*: pozuntu baş verib (yeddi səsə qarşı on səslə).

Maddə 41: Mənəvi ziyana görə 4.000 avro təyin edildi.

*Mənbə: Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

***Polad Həsənov***
*Naxçıvan Muxtar Respublikası*
*Hərbi Məhkəməsinin sədri*

## Hərbi xidmət əleyhinə olan inzibati xəta haqqında işlərə baxılmasının bəzi xüsusiyyətləri

Törədilmiş hüquq pozuntusunun xarakterindən asılı olaraq hüquq məsuliyyəti intizam, inzibati, maddi, mülki və cinayət məsuliyyət növlərinə ayrılır. İnzibati məsuliyyət hüquq məsuliyyətinin növlərindən biri olduğu üçün o, həm də hüquq məsuliyyətinə xas olan əlamətlərə də malikdir. Hüquq məsuliyyəti hüquqpozma törətmiş şəxsə qarşı hüquq normaları sanksiyalarının, onlarda əks olunmuş müəyyən məsuliyyət tədbirlərinin tətbiqindən ibarətdir. Müasir cəmiyyətdə hüquq məsuliyyəti ictimai qaydanın qorunmasına və ictimai təhlükəsizliyin təmin edilməsinə, vətəndaşların qanuna hörmət, hüquqauyğun davranışın zəruriliyi və faydalılığının dərk edilməsi ruhunda tərbiyə olunmasına yönəlmişdir.

Yazımızda inzibati məsuliyyətin əsasını təşkil edən inzibati xətalarla bağlı müəyyən məsələləri oxucuların diqqətinə çatdırmaq istəyirik. Bildiyimiz kimi, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 3 aprel 2019-cu il tarixli Fərmanı ilə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədi ilə müvafiq qanun layihələrinin hazırlanması Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə isə tapşırılmışdır. Həmin Fərmanının 2-ci bəndinə uyğun olaraq cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədi ilə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 41-ci fəsli hazırlanaraq Azərbaycan Respublikasının 1 may 2020-ci il tarixli Qanunu ilə Məcəlləyə əlavə edilmişdir. Bu fəsildə müəyyən edilən hərbi

xidmət əleyhinə olan inzibati xətalar hərbi qulluqçular tərəfindən törədilən cinayət məsuliyyətinə səbəb olmayan əməllər olub inzibati məsuliyyətə səbəb olan əməllərdir. Halbuki həmin fəsildə nəzərdə tutulmuş bəzi hərbi xidmət əleyhinə olan inzibati xətalar bu qanun qəbul edilənədək cinayət məsuliyyətinə səbəb olurdu.

İnzibati xətanın subyektinin (fiziki şəxslərin) iki növü mövcuddur: ümumi və xüsusi subyektlər. Ümumi subyektlər 16 yaşına çatmış, anlaqlı, fiziki şəxslər, xüsusi subyektlər yuxarıda göstərilən əlamətlərdən əlavə digər xüsusiyyətlərə malik olan fiziki şəxslərdir (vəzifəli şəxs, sürücü, hərbi vəzifəli şəxs). İnzibati xətanın xüsusi subyektinin əlamətləri onların hüquqi vəziyyətlərinin müxtəlifliyi ilə xarakterizə edilir və onların yerinə yetirdiyi peşəkar, eləcə də sosial funksiyalarla, sağlamlığının vəziyyəti və s. ilə ifadə edilir.

Hərbi xidmət əleyhinə olan inzibati xətaların subyekti xüsusi subyekt, yəni hərbi qulluqçulardır.

"Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən hərbi qulluqçular törətmiş olduqları hüquq pozuntularına görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq surətdə məsuliyyət daşıyırlar. Hərbi rütbəsindən və xidmət vəziyyətindən asılı olmayaraq hərbi qulluqçular qanun qarşısında bərabərdirlər. İntizam nizamnamələrində bilavasitə nəzərdə tutulmuş hallarda hərbi qulluqçular inzibati xətalara görə intizam məsuliyyəti, qalan hallarda isə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada inzibati məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular tərəfindən törədilən hərbi xidmət əleyhinə olan inzibati xətaların ictimai təhlükəliliyi digər şəxslər tərəfindən törədilmiş inzibati xətaların ictimai təhlükəliliyindən fərqlənir. Belə ki, hərbi qulluqçular tərəfindən törədilən hərbi xidmət əleyhinə olan inzibati xətaların ictimai təhlükəliliyi ondan ibarətdir ki, hərbi qulluqçunun törətmiş olduğu inzibati hüquq pozuntusu digər şəxslərin inzibati xətasından fərqli olaraq, həm inzibati hüquq münasibətlərinə, həm də hərbi hüquq münasibətlərinə zərər vurmuş olur. Hərbi qulluqçu inzibati, əmək, vergi və sair sahəvi hüquq normaları ilə yanaşı hərbi-hüquq normalarını da pozmaqla inzibati məsuliyyətin müstəsna subyekti olaraq konkret əməli, yəni inzibati hüquq pozuntusunu törətmiş olur.

İnzibati Xətalar Məcəlləsinin 16-cı maddəsinin Qeyd hissəsinin 1-ci bəndinə müvafiq olaraq, bu Məcəllənin 16.3-cü maddəsində "hərbi qulluqçular" dedikdə, müvafiq icra hakimiyyəti orqanının zabit heyəti,

gizirləri, miçmanları, müddətindən artıq xidmət hərbi qulluqçuları, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları başa düşülür.

Hərbi qulluqçunun hərbi xidmət əleyhinə olan inzibati xətalara görə məsuliyyəti üç əlaməti ilə fərqlənir:

- xüsusi subyekt tərkibinə görə (müvafiq icra hakimiyyəti orqanının zabit heyəti, gizirləri, miçmanları, müddətindən artıq xidmət hərbi qulluqçuları, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları və toplanışa çağırılmış hərbi vəzifəlilər);
- inzibati məsuliyyətə cəlb etmənin əsaslarına görə (yalnız İnzibati Xətalar Məcəlləsinin 610-618-ci maddələrində göstərilən hüquq pozuntularına görə);
- hərbi qulluqçulara münasibətdə ayrı-ayrı inzibati tənbeh növlərinin tətbiq edilməsi imkanının məhdudlaşdırılması ilə (İnzibati Xətalar Məcəlləsinin 28.4.6 və 30.2-ci maddələri).

Hərbi qulluqçuların inzibati məsuliyyətə cəlb edilməsi əsasları isə aşağıdakılarda ifadə olunur:

- inzibati məsuliyyəti müəyyən edən maddi-hüquqi əsaslar;
- hərbi qulluqçular tərəfindən inzibati xətanın törədilməsinə səbəb olan faktiki əsaslar;
- hərbi qulluqçuların inzibati məsuliyyətə cəlb edilməsinin qaydasını tənzimləyən prosessual-hüquqi əsaslar.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsinə əsasən bu Məcəllənin 162-1, 191.1, 195.1, 197.3, 197.4, 197.5, 205, 253-1.1.1 (yaşıllıqların kadastrının aparılmamasına münasibətdə), 253-1.1.2 (yaşıllıqların kadastr məlumatlarının təhrif edilməsinə münasibətdə), 284.2, 339.2 - 339.5, 340.2, 341, 376, 399, 410.3, 440-1.1 (dövlət orqanlarına (qurumlarına) və bələdiyyələrə münasibətdə), 440-1.2, 440-1.3, 445-1, 516-1.2 (qəbiristanlıqların qorunması tələblərinin pozulmasına münasibətdə), 516-1.3 (dəfnə icazə verilməyən ərazilərdə dəfnlərin həyata keçirilməsinə münasibətdə), 528-1.3, 531, 538-1.4-538-1.6, 540.5, 550.2-550.5, 558.2, 558.3, 559, 563.2, 567, 568, 569, 573, 594-1, 594-2, 595.2, 596, 601, 602-2.3, 602-2.4, 606.1 və 610-618-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar **prokuror** tərəfindən qəbul edilir. Maddənin məzmunundan göründüyü kimi İnzibati Xətalar Məcəlləsinin 41-ci fəslində (İnzibati Xətalar Məcəlləsinin 610-618-ci maddələri) nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərdə inzibati xəta

haqqında protokol tərtib olunmur və həmin protokolu prokuror tərəfindən tərtib olunmuş inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar əvəz edir. Həmin Məcəllənin 54.5-ci maddəsinə əsasən inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarda bu Məcəllənin 100-cü maddəsində olan məlumatlar göstərilir.

İnzibati Xətalar Məcəlləsinin 100-cü maddəsinə nəzər saldıqda 100.1-ci maddədə inzibati xəta haqqında protokolda göstərilməli olan hallara aydınlıq gətirildiyini, 100.2, 100.3, 100.4-cü maddələrdə isə proses iştirakçılarının qanunvericilikdə tanınmış hüquqlarına (prosessual təminatlarına) yer verildiyini görə bilərik.

İnzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarda bu Məcəllənin 100-cü maddəsində olan məlumatların göstərilməsi ilə bağlı hüquq normalarını özündə əks etdirən İnzibati Xətalar Məcəlləsinin 54.5-ci maddəsinə diqqətlə nəzər saldıqda görərik ki, qanunverici orqan prokurorun qərarında İnzibati Xətalar Məcəlləsinin 100-cü maddəsində protokol üçün nəzərdə tutulan məlumatların göstərilməsini qeyd edərkən İXM-in 100-cü maddəsini hər hansı bir hissəyə bölməmiş, həmin maddənin müddəalarını bütövlükdə prokuror tərəfindən qəbul edilən qərara da şamil etmişdir. İXM-in prosessual təminatlarla bağlı müddəaları özündə əks etdirən 100.2, 100.3, 100.4-cü maddələri barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan fiziki şəxslərə bu Məcəllədə nəzərdə tutulmuş hüquqları və vəzifələri barədə məlumat almaq, tərtib edilmiş inzibati xəta haqqında protokolla tanış olmaq və.s kimi imkanlar yaradır.

Qanunvericiliyin yuxarıda qeyd olunan müddəaları, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan hərbi qulluqçuların da barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan hər bir şəxs kimi təbii olaraq öz barəsində olan və onu gələcəkdə müəyyən məhrumiyyətlərə düçar edə biləcək qərar barəsində məlumatlanmaq, həmin qərarın surətini almaq və bu qərara qarşı öz müdafiəsini təşkil etmək kimi hüquqlarının olmasını müəyyən edir.

İnzibati Xətalar Məcəlləsinin 43.4-cü maddəsinə uyğun olaraq, İnzibati Xətalar Məcəlləsinin 610-618-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, habelə bu Məcəllənin 43.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətaları hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər törətdikdə, inzibati xətalar haqqında işlərə hərbi məhkəmələr baxır.

İnzibati Xətalar Məcəlləsinin 43.1 və 610-618-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalara görə hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər ümumi əsaslarla inzibati məsuliyyət daşıyırlar. Hərbi

qulluqçular tərəfindən inzibati hüquq pozuntularının törədilməsi zamanı onların barəsində inzibati tənbeh tədbirlərinin tətbiqi nəzərdə tutulmuşdur. Hərbi qulluqçulara münasibətdə inzibati tənbehin tətbiq edilməsi preventiv və mühafizə məqsədləri daşıyır. Preventiv məqsəd hərbi qulluqçular tərəfindən inzibati hüquq pozuntularının törədilməsinin qarşısının alınmasında, mühafizə məqsədi isə hərbi-hüquq münasibətlərinin subyektlərinin hüquq və azadlıqlarının təmin edilməsi, ictimai asayişin mühafizəsinin və müdafiəsinin, hərbi qulluqçuların hərbi xidmətkeçmə qaydalarının təmin olunmasında ifadə olunur.

Qanunvericilik hərbi qulluqçular barəsində yalnız hərbi xidmət əleyhinə olan inzibati xətaların (İnzibati Xətalar Məcəlləsinin 41-ci fəslində nəzərdə tutulmuş xətaların) törədilməsinə görə inzibati həbsin tətbiq edilməsini nəzərdə tutmuşdur. Belə ki, hərbi qulluqçuların inzibati məsuliyyətini müəyyən edən İnzibati Xətalar Məcəlləsinin 16.3-cü maddəsinə görə, intizam nizamnamələrində bilavasitə nəzərdə tutulmuş hallarda hərbi qulluqçular inzibati xətalara görə intizam məsuliyyəti, qalan hallarda isə ümumi əsaslarla inzibati məsuliyyət daşıyırlar. Hərbi qulluqçulara ictimai işlər, həmçinin bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə inzibati həbs tətbiq edilə bilməz. Eyni ilə İnzibati Xətalar Məcəlləsinin 30.2-ci maddəsinə əsasən də, bu Məcəllənin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətalar istisna olmaqla digər inzibati xətalara görə hərbi qulluqçular barəsində inzibati həbs tətbiq edilə bilməz.

Məhkəmələr tərəfindən hərbi xidmət əleyhinə olan inzibati xəta haqqında işlərə baxılan zaman təcrübədə bir sıra problemlərə rast gəlinir. Təcrübədə rast gəlinən bəzi problemli məsələləri oxucularla bölüşmək istərdik.

Birinci, təcrübədə ən çox rastlaşdığımız problemli məsələlərdən biri hərbi qulluqçu tərəfindən İnzibati Xətalar Məcəlləsinin 41-ci fəslində nəzərdə tutulan hər hansı bir inzibati xətanın xidmət zamanı törədilməsi, lakin sonradan hərbi qulluqçu hərbi xidmətdən tərxis olunaraq həmin statusu itirdiyi təqdirdə, həmin şəxsə inzibati həbs tətbiq olunduğu halda, onun saxlanma yeri ilə bağlı olurdu. Bildiyimiz kimi İnzibati Xətalar Məcəlləsinin 156.2-ci maddəsinə əsasən, barəsində inzibati həbs tətbiq edilmiş bu Məcəllənin 610-618-ci maddələrində göstərilən xətaları törətmiş şəxslər hauptvaxtda, digər şəxslər isə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi yerlərdə mühafizə altında saxlanılır. İşlərə baxılması zamanı barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə inzibati həbs tətbiq edilirdi, ancaq həmin şəxs artıq hərbi xidmətdən tərxis olunaraq

hərbi qulluqçu statusunu itirdiyindən onun hauptvaxtda saxlanılması mümkün olmurdu. Lakin Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 22 dekabr 2021-ci il tarixli qərarı ilə bu problemli məsələ öz həllini tapdı. Belə ki, Gəncə Hərbi Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 22 dekabr 2021-ci il tarixdə “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 34-1 və 156.2-ci maddələrinin həmin Məcəllənin 30.2, 610-618-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair” konstitusiya işinə baxmış və belə qərara gəlmişdir ki, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 41-ci fəslində nəzərdə tutulmuş inzibati xətaları törətmiş, lakin hərbi xidmətdən tərxis olunduğuna görə hərbi qulluqçu statusunu itirən şəxsin hauptvaxtda saxlanılması bu Məcəllənin 156.2-ci maddəsinin hüquqi mahiyyətinə və məqsədinə uyğun olmadığından, onlar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi yerlərdə mühafizə altında saxlanılmalıdır.

Təcrübədə rast gəlinən bəzi problemli məsələlərdən ikincisi kimi barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə aid eyni fakt üzrə inzibati tənbeh tətbiq etmək haqqında səlahiyyətli orqanın qərarının olması hallarını göstərmək olar. Belə ki, bəzi hallarda daxil olmuş inzibati xəta haqqında iş materiallarını *Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 106-cı maddəsinin tələblər*inə uyğun olaraq məhkəmə iclasında baxılmağa hazırlayarkən, barəsində inzibati icraat aparılan hərbi qulluqçuların inzibati xəta haqqında işin predmeti olan hərəkətə (əmələ) görə artıq hərbi hissə komandanlığı tərəfindən intizam qaydasında cəzalandırılması müəyyən olunur. Bu hallar isə artıq inzibati xətalar haqqında işlər üzrə icraatı rədd edən hallardan biridir. Belə hallarda işə baxan hakim başlanmış inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi və barəsində inzibati icraat aparılan hərbi qulluqçuların inzibati məsuliyyətdən azad edilməsi barədə qərar qəbul etmək məcburiyyətində qalır. Çünki, *Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 53.1.7-ci maddəsinin tələbinə əsasən,* barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə aid eyni fakt üzrə inzibati tənbeh tətbiq etmək haqqında hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarı olduqda inzibati xətalar haqqında işlər üzrə icraat başlanıla bilməz, başlanmış icraata isə xitam verilir. Həmin məcəllənin *109.2-ci maddəsinin tələbinə əsasən,* inzibati xəta haqqında işin baxılmağa hazırlanması zamanı bu məcəllənin 53 və 104.1-ci maddələrində nəzərdə tutulmuş hallar olduqda inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi və ya inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərar qəbul

edilir.

Bu halların yaranmasının əsas səbəblərindən biri hərbi qulluqçu hərbi intizamı, yaxud ictimai asayişi pozan zaman müvafiq komandanlığın hərbi qulluqçuları bu hərəkətlərinə görə cəzalandırılmaq səlahiyyətinin olmasıdır. Belə ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam Nizamnaməsinin 43-cü bəndinə əsasən hərbi qulluqçu hərbi intizamı, yaxud ictimai asayişi pozarsa, komandir (rəis) ona vəzifə borcunu xatırlatmalı, lazım gələrsə, intizam cəzası verməlidir.

Komandir (rəis) öz səlahiyyəti çatan və nalayiq hərəkət etmiş hərbi qulluqçuya onun fikrincə daha çox tərbiyəvi təsir göstərə bilən hər hansı cəzanı verə bilər.

Azərbaycan Respublikası Silahlı Qüvvələri İntizam Nizamnaməsinin 58-ci bəndinə əsasən Alay (briqada) komandirinin əsgərləri, matrosları və çavuşları 7 sutkayadək həbs etmək hüququ vardır.

İşlərə baxılması zamanı inzibati xəta haqqında işin materiallarının tədqiqi nəticəsində müvafiq hərbi hissə komandanlığı tərəfindən həmin inzibati xəta hadisəsinə görə hərbi intizamın pozulması haqqında müvafiq icraatın aparılması və hərbi qulluqçulara intizam qaydasında müəyyən cəza təyin edilməsi müəyyən olunur. Bu səbəbdən də işə baxan hakim barəsində inzibati icraat aparılan hərbi qulluqçuların müvafiq hərbi hissə komandanlığı tərəfindən intizam qaydasında cəzalandırılmasını onların artıq həmin inzibati xəta hadisəsinə görə cəzlandırılmış kimi qəbul edərək təkrar cəzalandırılmalarını mümkün hesab etmir. Bu yanaşma inzibati xətalar qanunvericiliyinin müəyyən etdiyi prinsiplərə tam uyğundur. Həmin prinsiplərə görə inzibati xətalar qanunvericiliyi insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət edilməsi, qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, ədalətlilik və inzibati xətaların qarşısının alınması prinsiplərinə əsaslanır. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müəyyən etdiyi ədalətlilik prinsipinə görə isə bir inzibati xətaya görə heç kim iki dəfə inzibati məsuliyyətə cəlb oluna bilməz. Bu prinsip *"Non bis in idem-* "Heç kəs eyni bir əmələ görə ikinci dəfə məsuliyyətə cəlb edilə bilməz" prinsipi adlanır və Azərbaycan Respublikası Konstitusiyasının 64-cü maddəsində, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8.2-ci maddəsində, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 34-cü maddəsində, o cümlədən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 9.2-ci maddəsində öz əksini tapmışdır. Avropa İnsan Hüquqları Konvensiyasına dair 7 saylı Protokolun 4-cü maddəsinə əsasən heç kəs hər hansı dövlətin qanunlarına və ya cinayət

prosessual normalarına müvafiq olaraq artıq bəraət aldığı və ya məhkum edildiyi cinayətlərə görə, həmin dövlətin yurisdiksiyası çərçivəsində cinayət qaydasında təkrar məhkum edilə və ya cəzalandırıla bilməz.

Hüququn hamılıqla qəbul edilmiş *non bis in idem* (təkrar cəzalandırılmamaq) prinsipini ifadə edən konstitusiya normasının mənasına görə bir şəxs eyni əmələ görə təkrar olaraq məsuliyyətə cəlb edilə və cəzalandırıla bilməz. Bu prinsip şəxsin eyni bir əməlinə görə təkrar cəzalandırılmasının qarşısını alan qayda kimi dar mənada təfsir olunmur, həm də eyni bir halın iki dəfə, həm əməlin tövsifi zamanı, həm də cəza (tənbeh) təyin edilməsi zamanı nəzərə alınmasını istisna edir və hər hansı bir hüquq xarakterli tədbirin əmələ hüquqi qiymət verilərkən təkrarən tətbiq olunmasına qadağa qoyur.

Həmçinin qeyd etmək lazımdır ki, Avropa Məhkəməsinin "Sergey Zolotuxin Rusiya Federasiyasına qarşı iş" üzrə 07 iyun 2007-ci il tarixli qərarında göstərilmişdir ki, Konvensiyanın 7 saylı Protokolunun 4-cü maddəsində istifadə edilən "məhkum etmə" və "cəzalandırma" ifadələri şəxsin təkrar məhkum edilməsi ilə yanaşı, ikiqat cəzalandırılmasının da qadağan edildiyini göstərir. Əks təqdirdə "cəzalandırıla" sözünün "məhkum edilə" ifadəsinə əlavə olunmasına zərurət olmazdı, çünki bu adi təkrarçılıq kimi görünərdi. Konvensiyanın 7 saylı Protokolunun 4-cü maddəsi hətta şəxs cinayət məsuliyyətinə cəlb olunduğu, lakin iş üzrə ittiham hökmü çıxarılmadığı hallarda da tətbiq olunur. Avropa Məhkəməsinin mövqeyi belə olmuşdur ki, 7-ci protokolun 4-cü maddəsi eyni və ya əsasən eyni faktlardan doğan ikinci "pozuntu" üzrə istintaq aparmaq və ya məhkəmə keçirmək qadağandır (§§ 78-82).

Avropa Məhkəməsi həmin qərarında qeyd edir ki, Avropa İnsan Hüquqları üzrə Konvensiyasına dair 7 saylı Protokolun 4-cü maddəsinin müddəaları yalnız iki dəfə cəzalandırmanı qadağan etmir, onlar həm də iki dəfə məhkəmə məsuliyyətinə cəlb olunmanın, təkrar mühakimənin yolverilməzliyini nəzərdə tutur ("Frans Fişer Avstriyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 29 may 2001-ci il tarixli qərarı, paraqraf 29; "Ziqarella İtaliyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin 3 dekabr 2002-ci il tarixli qərarı). Avropa Məhkəməsi vurğulayır ki, Konvensiyaya dair 7 saylı Protokolun 4-cü maddəsi biri digərindən fərqlənən üç təminatı nəzərdə tutub ki, onlardan birinə əsasən, heç kəs eyni bir cinayətə görə təkrarən mühakiməyə cəlb edilə bilməz, ikincisinə görə təkrarən məhkum edilə bilməz və nəhayət üçüncüsünə görə təkrarən cəzalandırıla bilməz ("Nikitin Rusiyaya qarşı" iş üzrə Avropa Məhkəməsinin qərarı, 50178/99 nömrəli ərizə, paraqraf 36).

Bütün bunlara görə belə hesab edirik ki, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin eyni hüquq pozuntusuna görə cəzalandırıldığını bilə-bilə, onu yenidən cəzalandırmaq olmaz və bu kimi hallarda inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi və şəxsin inzibati məsuliyyətdən azad edilməsi doğru yanaşmadır.

Təcrübədə rast gəlinən digər problemli bir məsələ isə məhkəmələr tərəfindən ədalət mühakiməsini həyata keçirərkən sanksiyasında inzibati həbs tənbeh növü nəzərdə tutulan inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 111.3-cü maddəsində nəzərdə tutulduğu qaydada, yəni inzibati xəta haqqında protokolun (prokurorun qərarının) daxil olduğu gün baxılması ilə bağlıdır. Belə ki, inzibati **həbs** nəzərdə tutan inzibati xəta haqqında protokol (prokurorun inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarı) müəyyən səbəblərdən barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin icraatda iştirakı təmin edilmədən, ona hüquq və vəzifələri izah edilmədən, şəxs öz barəsində olan müvafiq qərarla tanış edilmədən tərtib edilir və müvafiq qərarın surəti ona rəsmi olaraq təqdim edilmədən iş materialları baxılması üçün məhkəməyə göndərilir. Belə hallarda işə baxan məhkəmə qeyd edilən halları inzibati xəta haqqında materialın natamamlığı kimi qiymətləndirərək, inzibati xəta haqqında iş üzrə icraata başlamaq haqqında qərar və ona əlavə olunmuş sənədlərdə qeyd olunmuş çatışmazlıqların aradan qaldırılması üçün onu tərtib etmiş orqana geri qaytarır. Lakin belə halda da inzibati xəta haqqında qərar qəbul etmiş orqanlar bu natamamlıqları (barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin icraatda iştiraka cəlb edilməsinin, ona hüquq və vəzifələrinin izah edilməsinin, şəxsin öz barəsində olan müvafiq qərarla tanış edilməsinin və müvafiq qərarın surətinin rəsmi olaraq ona təqdim edilməsinin, o cümlədən barəsində inzibati xəta haqqında iş üzrə icraata başlamaq haqqında qərar tərtib edilmiş şəxsin səlahiyyətli orqan tərəfindən məhkəməyə təqdim edilməsinin) aradan qaldırmadan İnzibati Xətalar Məcəlləsində inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmiş prokurorun üzərinə konkret vəzifə qoyulmadığına istinad edərək, məhkəmə tərəfindən bu işlərin geri qaytarılması ilə bağlı qəbul edilmiş qərardadlarda göstərilmiş çatışmazlıqları aradan qaldırmadan həmin işləri baxılması üçün təkrar məhkəməyə göndərərək məhkəmələrdəki iş yükünün əsassız çoxalmasına səbəb olurlar. Belə hallarda hakim yenidən iş materiallarını geri qaytarır və bu hallar çatışmazlıqlar aradan qaldırılanadək davam edir. Bu cür hallar əsassız vaxt itkisinə, məhkəmələrdə bir işin bir neçə dəfə qeydə alınaraq iş sayının əsassız artmasına gətirib çıxarır. Halbuki

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 103.2-ci maddəsinə əsasən inzibati **həbs** nəzərdə tutan inzibati xəta haqqında protokol (prokurorun inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarı və ya bu Məcəllənin 102.6-cı maddəsində nəzərdə tutulmuş qaydada tərtib etdiyi protokol) tərtib edildikdən dərhal sonra baxılması üçün hakimə göndərilir. Həmin Məcəllənin 111.3-cü maddəsinə əsasən inzibati həbs tənbeh növü nəzərdə tutan inzibati xətalar haqqında işlərə inzibati xəta haqqında protokol **daxil olduğu gün,** inzibati qaydada tutulan şəxslər barəsində isə onların tutulduğu vaxtdan ən geci 48 saat keçənədək baxılır. Həmin məcəllənin 61.5-ci maddəsinə əsasən isə **inzibati həbs**, Azərbaycan Respublikasının hüdudlarından kənara əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri inzibati qaydada çıxarma və ya ictimai işlər nəzərdə tutan inzibati xətalar haqqında işlərə baxılarkən barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan **şəxsin iştirakı məcburidir.** Göründüyü kimi qanunvericilik digər inzibati xətalar haqqında işlərə 15 gün, bəzən isə (inzibati xəta haqqında iş üzrə icraatın iştirakçılarının vəsatəti və ya əlavə müəyyən edilməli hallar olarsa, işə baxan hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) özünün əsaslandırılmış qərardadı ilə) işin baxılmasını bir ayadək müddətə uzadılaraq baxılmasını nəzərdə tutduğu halda, inzibati həbs tənbeh növü nəzərdə tutan inzibati xətalar haqqında işlərə inzibati xəta haqqında protokol daxil olduğu gün (inzibati qaydada tutulan şəxslər barəsində isə onların tutulduğu vaxtdan ən geci 48 saat keçənədək) və barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan **şəxsin məcburi iştirakı ilə** baxılmasını nəzərdə tutmaqla inzibati xətalar haqqında işlərə baxılmasının xüsusi qaydasını müəyyən etmişdir. Heç təsadüfi deyildir ki, İnzibati Xətalar Məcəlləsinin 13-cü fəsli inzibati xətaların qarşısını almaq, şəxsiyyəti müəyyən etmək, işlərə vaxtında və düzgün baxılmasını, inzibati xətalar haqqında işlərə dair qərarların icrasını təmin etmək məqsədi ilə inzibati xəta haqqında iş üzrə icraatın təmin edilməsi tədbirlərinin tətbiqini nəzərdə tutan qaydaları müəyyən etmişdir. Belə ki, həmin fəslin 86.1-ci maddəsinə əsasən inzibati xətaların qarşısını almaq, şəxsiyyəti müəyyən etmək, işlərə vaxtında və düzgün baxılmasını, inzibati xətalar haqqında işlərə dair qərarların icrasını təmin etmək məqsədi ilə səlahiyyətli vəzifəli şəxs bu Məcəllə ilə müəyyən edilmiş hallarda aşağıda göstərilən tədbirləri tətbiq edir:

86.1.1. gətirilmə;

86.1.2. inzibati qaydada tutma;

86.1.3. şəxsi axtarış, fiziki şəxsdə olan əşyaları yoxlama;

86.1.4. nəqliyyat vasitəsinə baxış;

86.1.5. əşyaları və sənədləri götürmə;
86.1.6. nəqliyyat vasitəsinin idarə olunmasından kənarlaşdırma;
86.1.7. sərxoşluq vəziyyətini müayinə etmə;
86.1.8. nəqliyyat vasitəsini saxlama və onun istismarını qadağan etmə.

Göstərilən maddədə inzibati qaydada tutma təmin tədbiri bilavasitə inzibati xəta haqqında işin düzgün və vaxtında baxılmasının və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi üçün tətbiq edilən təmin tədbiridir. Həmin məcəllənin 88-ci maddəsinə əsasən hərbi xidmət əleyhinə olan inzibati xəta törədildikdə müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri inzibati xəta haqqında işin düzgün və vaxtında baxılmasının və ya inzibati xəta haqqında iş üzrə qərarın icrasının təmin edilməsi üçün fiziki şəxsin azadlığının qısa müddətə məhdudlaşdırılmasını yəni, inzibati qaydada tutmanı tətbiq etmək hüququna malikdirlər. Buradan gəlinən nəticə odur ki, qanunvericiliyin yuxarıda göstərilən tələblərinin yerinə yetirilməsi üçün, inzibati xəta haqqında işin düzgün və vaxtında, yəni indiki halda inzibati həbs tənbeh növü nəzərdə tutan inzibati xətalar haqqında işlərə inzibati xəta haqqında protokol **daxil olduğu gün** baxılmasının təmin edilməsi üçün inzibati icraatın başlanması barədə qərar qəbul etmiş orqan qanunvericiliyin yaratmış olduğu bu hüquqi vasitələrdən səmərəli istifadə etməlidir.

Bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, inzibati icraatın başlanması barədə qərar qəbul etmiş orqanın (prokurorun), barəsində inzibati xəta haqqında iş üzrə icraat başlanılmış şəxsin məhkəməyə təqdim olunması vəzifəsinin olması "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın 298-ci bəndinə nəzər yetirdikdə də müəyyən olunur. Belə ki, "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın 298-ci bəndinə əsasən inzibati **həbs tənbeh növü** nəzərdə tutan inzibati xətalar haqqında işlərə protokol daxil olduğu gün baxılmalı olduğundan məhkəmə iclası katibi (məsləhətçi) ***protokol tərtib etmiş orqanın əməkdaşlarının iştirakı ilə*** məhkəmə iclasına çağırılmalı olan şəxslərin həmin gün məhkəməyə gətirilmələrini təşkil etməlidir.

İnzibati Xətalar Məcəllənin 48-ci maddəsinə görə inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələri şəxslərin hüquqlarını və azadlıqlarını, onların qanuni mənafelərini qorumaqdan, inzibati xəta haqqında hər bir işin hallarını vaxtında, hərtərəfli, tam və obyektiv surətdə aydınlaşdırmaqdan, inzibati xəta törətmiş şəxsi aşkar etməkdən və onu inzibati məsuliyyətə cəlb etməkdən, çıxarılmış qərarın icrasını təmin etməkdən, habelə inzibati xətanın

törədilməsinə kömək edən səbəbləri və şəraiti aşkar etməkdən və inzibati xətaların qarşısını almaqdan ibarətdir.

Qanunvericiliyin tanımış olduğu və yaratdığı bütün imkan və hüquqi vasitələrdən düzgün və vaxtında istifadə etməklə inzibati xətalar haqqında işlər üzrə icraatın vəzifələrinin yerinə yetirilməsinə nail olmağa çalışmaq hər bir inzibati xətalar haqqında işlər üzrə icraat aparan orqanın bilavasitə vəzifəsidir. Ümid edirik ki, yazımızda toxunduğumuz məsələlər qanunvericiliyin tətbiqində yaranan və təcrübədə rast gəlinən müəyyən çətinlikləri həll etməyə kömək edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**


1. Azərbayan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2023
2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin Kommentariyası, Bakı, Qanun nəşriyyatı, 2011
3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 34-1 və 156.2-ci maddələrinin həmin Məcəllənin 30.2, 610-618-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 22 dekabr 2021-ci il tarixli qərarı
4. Azərbaycan Respublikası məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat



# AZAD TRİBUNA


***Hicran Muradov***
***Naxçıvan Muxtar Respublikası***
***İnzibati Məhkəməsinin sədri***


## İnzibati icraat haqqında qanun və onun tətbiqinin bəzi məsələləri haqqında mülahizələr

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Həmin məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikasında geniş sosial iqtisadi və hüquqi islahatlar həyata keçirilmiş, Azərbaycan Respublikasının qanunvericilik sistemi daim inkişaf edən və dəyişən ictimai münasibətlərin hüquqi tənzimlənməsinin təmin edilməsi məqsədi ilə təkmilləşdirilmiş, yeni qanunvericilik aktları qəbul edilmişdir.

21 oktyabr 2005-ci il tarixdə qəbul edilmiş «İnzibati icraat haqqında» Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikasının 30 iyun 2009-cu il tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ölkəmizin hüquq sistemində yenilik yaratmışdır.

Hər iki qanunvericilik aktı 01 yanvar 2011-ci il tarixdən qüvvəyə minmişdir. "İnzibati icraat haqqında" Qanunun məqsədi inzibati orqanlar tərəfindən insan hüquq və azadlıqlarına əməl olunmasını təmin etməkdən və qanunun aliliyinə nail olmaqdan ibarətdir. Həmin Qanunda inzibati orqanların fiziki və ya hüquqi şəxslərlə münasibətlərindəki fəaliyyət formaları, eləcə də inzibati orqanların inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı fəaliyyəti həyata keçirərkən nəzərə almalı olduqları ümumi və prosedur prinsiplər, həmçinin inzibati orqanların qanunun tələblərinə ciddi şəkildə bağlı olduqları öz əksini tapmışdır. Qanunun müddəaları inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətinə (hərəkətlərinə) də şamil olunur. Bundan başqa, "İnzibati icraat haqqında" Qanunda inzibati orqanların hüquqazidd qərarlarının yoxlanılması, onların ləğv edilməsi və ya onlara

dəyişiklik edilməsi məqsədi ilə maraqlı şəxslər üçün hüquqi müdafiə imkanları müəyyən edilmişdir. Həmin Qanunun 72-ci maddəsinin müddəalarına əsasən, maraqlı şəxslər hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə inzibati aktdan və ya inzibati aktın qəbul edilməsindən imtinadan şikayət vermək hüququna malikdirlər. İnzibati aktdan şikayət inzibati qaydada və ya məhkəmə qaydasında verilə bilər. İnzibati aktlardan məhkəmə qaydasında şikayət (inzibati iddia) Azərbaycan Respublikasının müvafiq qanunu ilə müəyyən olunmuş qaydada verilir.

Bu gün inzibati icraat real hüquqi hadisə kimi başqa hüquq sahələri ilə yanaşı qanunvericilik sistemində öz layiqli yerini tutmaqdadır, lakin inzibati icraat hüqüqunun mahiyyətinə olan baxışlar heç də birmənalı deyildir. Ölkəmizdə inzibati hüquq sahəsində son illər aparılan islahatlar və beynəlxalq təcrübə inzibati hüquq sahəsində yeni baxışların formalaşmasına zəmin yaratdı. Vaxtilə S.S.Studenikin qeyd edirdi ki, inzibati proses icra-sərəncam fəaliyyətinin həyata keçirilməsinə hüquqi əsas yaradan müəyyən davranış qaydalarının məcmusunu təşkil edir. Eyni fikirlər A.E. Lunev tərəfindən də söylənilirdi.

Uzun illər ərzində inzibati proses anlayışı ətrafında əsas müzakirələr iki əsas istiqamətin nümayəndələri arasında aparılırdı. İnzibati hüquq sahəsində bir qrup nəzəriyyəçilər O.M.Yakuba, Q.İ.Petrov, A.P.Korenev, V.D.Sorokin, D.N.Baxrax və sair), "inzibati proses" anlayışını geniş mənada qəbul edirdilər. Digər qrup alimlər isə (N.Q.Salişeva, A.P. Klyuşniçenko, M.l.Piskotin və sair) həmin anlayışı dar mənada başa düşürdülər. N.Q.Salişevanın fikirlərinə görə inzibati proses bir-biri ilə tabeçilik münasibətlərində olmayan tərəflər arasında publik hüquq sahəsində konkret məsələ ilə bağlı yaranan mübahislərin həlli sahəsində həyata keçirilən fəaliyyətin qanunla nizama salınmasıdır.

Yuxarıda qeyd olunan fikirlərdən fərqli olaraq A.P.Klyuşniçenko inzibati proses anlayışına bir qədər geniş şərh verir. Onun fikirlərinə görə inzibati proses inzibati idarəçilik sahəsində inzibati məcburiyyət tədbirlərinin tətbiqi, şikayətlərin, ərizələrin baxılması, konkret məsələlərin həlli ilə bağlı qərarların qəbul edilməsi sahəsində dövlətin spesifik fəaliyyət növüdür. A.V.Samoylenko fikirlərinə görə isə inzibati prosesin çərçivəsi məntiqi olaraq inzibati məcburiyyət tədbirlərinin tətbiqi ilə qapanmalıdır.

Dövlət və vətəndaş münasibətlərində bu günümüzün əsas tələbi insan hüquq və azadlıqlarının müdafiəsi təşkil edir. Məhz publik hüquq sahəsində bu münasibətlərin hüquqi mexanizminin müəyyən edilməsi insan hüquq və azadlıqlarının qorunması sahəsində dövlət orqanlarının məsuliyyətini bir

daha artırır. İnzibati icraat inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən həyata keçirilən fəaliyyətdir. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.6-cı maddəsində deyilir: "İnzibati icraat - fiziki və ya hüquqi şəxslərin müraciəti əsasında və ya inzibati orqanların öz təşəbbüsü ilə inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi, habelə inzibati şikayətlərə baxılması üzrə müvafiq inzibati orqanlar tərəfindən bu Qanunla müəyyən olunmuş prosedur qaydalar daxilində həyata keçirilən fəaliyyətdir". Bu anlayışdan göründüyü kimi, inzibati icraat iki formadan ərizə üzrə icraatdan və şikayət üzrə icraatdan ibarətdir. Ərizə üzrə icraat maraqlı şəxsin ərizəsi əsasında inzibati aktın qəbul edilməsi, icra olunması, dəyişdirilməsi və ya ləğv edilməsi məsələsini həll etdiyi halda, şikayət üzrə icraatda həmin inzibati aktlardan subordinasiya baxımından yuxarı inzibati orqana edilən şikayətlərin baxılması ehtiva olunur.

İctimai münasibətlərin bir növü olmaqla inzibati hüquq münasibətlərinin subyektləri (iştirakçıları) olmadan inzibati icraat təsəvvür edilə bilməz, çünki hüquq münasibətləri hüquq və vəzifələrin daşıyıcıları olan şəxslər arasında meydana gəlir. Hüquq münasibətləri iştirakçılarının subyektiv hüquqları və vəzifələri bu münasibətlərin məzmununu şərtləndirir.

İnzibati hüquq münasibətləri subyektlərin hüquqları və qanuni maraqları ilə əlaqədardır. İnzibati hüquq münasibətlərində bu marağın məzmununu ona məxsus hüquqların həyata keçirilməsi ilə bağlı inzibati aktın qəbul edilməsi, dəyişdirilməsi, ləğv edilməsi və inzibati şikayətə baxılması təşkil edir. Buradan belə bir nəticə çıxarmaq olar ki, subyektiv hüquqların məzmununu təşkil edən maddi nemət (sahiblik fəaliyyəti, ovçuluq hüququnun əldə edilməsi, aptekin fəaliyyəti üçün lisenziya) inzibati hüquq münasibətlərinin obyektidir. Hərəkətlər də inzibati hüquq münasibətlərinin obyekti kimi çıxış edir.

İnzibati icraat bir sıra xüsusi əlamətlərə malikdir:

1) inzibati icraatın ikili təbiəti vardır: bir tərəfdən o, hüquqi prosesin bir növü kimi, digər bir tərəfdən isə inzibati fəaliyyətin növü kimi çıxış edir;

2) inzibati icraat dövlət idarəetmə orqanlarının hakimiyyət fəaliyyətinin növü olmaqla həmin hakimiyyətə məxsus səlahiyyətin müəyyən bir hissəsini ifadə edir;

3) inzibati icraat inzibati hüquq normaları ilə nizama salınır. Maddi inzibati normaların tətbiqi inzibati qanunvericiliklə müəyyən olunmuş xüsusi qaydada həyata keçirilir;

4) inzibati icraatın xarakterik əlamətlərindən biri ondan ibarətdir ki, onun iştirakçılarından biri qismində bir qayda olaraq, inzibati orqanlar çıxış edirlər.

*Məqaləmizdə inzibati icraatın mərhələləri, inzibati icraatın iştirakçıları və inzibati icraatda hüquqi varislik məsələləri barədə öz fikir və mülahizələrimizi oxucularla bölüşəcəyik.*

**İnzibati icraatın mərhələləri.** İnzibati mübahisələrə dair işlər üzrə icraat bir neçə mərhələdən keçir. Bu mərhələlərdən hər biri inzibati icraatın qarşısında duran ümumi vəzifələrdən irəli gələn konkret vəzifələrə malik olmaqla, inzibati prosessual hərəkətlərin məzmunu ilə xarakterizə olunur. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda inzibati icraatın mərhələləri haqqında xüsusi müddəalar yoxdur. Lakin "İnzibati icraat" adlanan IV fəsildə prosessual hərəkətlərin hüquqi mahiyyətindən və nəticələrindən asılı olaraq inzibati icraatı aşağıda göstərilən dörd mərhələyə bölmək olar:

1) inzibati icraatın başlanması;
2) ərizənin ilkin öyrənilməsi;
3) ərizənin mahiyyəti üzrə baxılması və inzibati aktın qəbul edilməsi;
4) inzibati aktın icrası.

Göstərilən mərhələlərin hər biri ayrılıqda konkret vəzifələrə malik olmaqla biri digərini tamamlayır və inzibati icraatın vahid sistemini yaradır. İnzibati icraatın hər bir mərhələsi inzibati mübahisələrə dair iş üzrə obyektiv həqiqətin müəyyən edilməsinə təminat yaradır.

***İnzibati icraatın başlanması.*** "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 28-ci maddəsində inzibati icraata başlanılması üçün aşağıdakı əsaslar müəyyən edilir:

*fiziki və ya hüquqi şəxsin ərizəsi;*

*inzibati orqanın təşəbbüsü;*

*qanunla nəzərdə tutulmuş hallarda inzibati orqanın inzibati aktı qəbul etmək vəzifəsi;*

*inzibati aktdan şikayət verildiyi halda, inzibati şikayət.*

Fiziki və ya hüquqi şəxsin ərizəsi və ya inzibati şikayət olduqda inzibati icraat müvafiq olaraq ərizənin və ya şikayətin qeydiyyata alındığı andan başlanır. İnzibati orqanın təşəbbüsü və ya qanunla nəzərdə tutulmuş hallarda inzibati orqanın inzibati aktı qəbul etmək vəzifəsi əsas kimi çıxış etdikdə isə inzibati icraat maraqlı şəxsə icraat haqqında məlumat verildiyi və ya maraqlı şəxsə münasibətdə ilk prosessual hərəkətin həyata keçirildiyi andan başlanır.

***Ərizənin ilkin öyrənilməsi.*** Ərizə maraqlı şəxsin inzibati aktın qəbul edilməsi və ya ona məxsus olan hər hansı hüququn həyata keçirilməsi ilə bağlı

inzibati orqana yazılı müraciətidir. Beləliklə, ərizə iki hal üçün nəzərdə tutulmuşdur:

1) inzibati aktın qəbul edilməsi;
2) maraqlı şəxsə məxsus olan hər hansı hüququn həyata keçirilməsi;

Ərizəni verməklə maraqlı şəxs ilk növbədə arzuladığı inzibati aktın qəbul edilməsinə nail olmaq istəyir. Bu baxımdan ərizə, daha dəqiq desək, ərizədə qaldırılan məsələ qəbul ediləcək inzibati aktın məzmun obyektini müəyyən edir. Bir qayda olaraq, inzibati aktda tənzimlənən məsələlər insan hüquqları ilə bağlı olur.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə fiziki və hüquqi şəxslərin bir çox hüquqları və azadlıqları təsbit edilmişdir. Həmin hüquqların həyata keçirilməsi maraqlı şəxsin səlahiyyətli inzibati orqana ərizə ilə müraciəti əsasında mümkündür.

Ərizə icraatın başlanması üçün hüquqi fakt rolunu oynayır. Ərizənin təqdim edilməsi ərizəni verən tərəf - maraqlı şəxs ilə ərizənin təqdim edildiyi səlahiyyətli inzibati orqan arasında inzibati hüquq münasibətlərinin yaranmasına səbəb olur.

Ərizə maraqlı şəxs tərəfindən həmin ərizədə qaldırılmış məsələ ilə əlaqədar inzibati akt qəbul etmək səlahiyyətinə malik olan müvafiq inzibati orqana şəxsən təqdim olunur və ya poçt rabitəsi vasitəsi ilə, yaxud elektron üsulla göndərilir. Ərizə tərtib edildikdən sonra hökmən səlahiyyətli inzibati orqana təqdim edilməlidir. Ərizə təqdim edilmədikdə icraat başlana bilməz. İnzibati icraatda ərizənin rolu məhkəmə prosesində inzibati iddia ilə eyni əhəmiyyət daşıyır.

Ərizə yazılı formada tərtib olunmalıdır. Ərizədə aşağıdakı məlumatlar göstərilməlidir:

- ərizəçinin müraciət etdiyi inzibati orqanın adı; ərizəçi fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı və ünvanı, şəxsiyyətini təsdiq edən sənəd haqqında məlumatlar;
- ərizə hüquqi şəxsin adından verildikdə onun adı və hüquqi ünvanı;
- tələbin qısa məzmunu;
- ərizənin tərtib edildiyi tarix və ərizəçinin imzası; hüquqi şəxsin rəhbərinin və ya nümayəndəsinin imzası və hüquqi şəxsin möhürü;
- ərizəyə əlavə edilmiş sənədlərin siyahısı.

Təqdim olunması qanunla nəzərdə tutulmuş bütün sənədlər ərizəyə qoşma kimi əlavə olunur.

Ərizə yuxarıda qeyd olunan tələblərə cavab vermədikdə, inzibati orqan ərizədə həmin tələblərə uyğun olaraq düzəlişlərin edilməsi üçün qısa müddət

təyin edir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini, yəni onun baxılmamış saxlanması haqqında inzibati aktın qəbul edilə biləcəyi barədə ərizəçiyə xəbərdarlıq edilir.

İnzibati orqan ərizəçi tərəfindən şəxsən təqdim olunmuş və ya poçt rabitəsi vasitəsi ilə daxil olmuş ərizəni qəbul etməli və həmin gün qeydiyyata almalıdır. İnzibati orqan ərizənin qəbul edildiyi gündən ən geci üç gün müddətində ərizənin qeydiyyat tarixi və nömrəsi haqqında ərizəçiyə arayış verməyə və ya göndərməyə borcludur. Belə bir arayışın maraqlı şəxsə verilməsi onun tərəfindən inzibati icraat müddətinə əməl olunmasına nəzarət etməyə imkan yaradır. Ərizəni öyrənərkən inzibati orqan ərizədə qaldırılan məsələnin onun səlahiyyətinə aid olub-olmamasını, ərizənin formal tələblərə uyğun olaraq tərtib edilməsini, ərizəyə əlavə olunmuş sənədlərin yetərincə olmasını və digər məsələləri müəyyən edir. Səlahiyyətli inzibati orqan ərizə barəsində iki hərəkətə yol verə bilər. Ərizənin baxılmamış saxlanılması barədə və ya ərizdə qaldırılan konkret məsələ ilə bağlı inzibati akt qəbul edə bilər.

Ərizə səlahiyyətli inzibati orqan tərəfindən aşağıdakı hallarda baxılmamış saxlanıla bilər:

1) ərizə vermiş şəxs (şəxslər) barəsində və ərizədə göstərilmiş həmin əsaslar üzrə həmin inzibati orqan və ya müvafiq yuxarı inzibati orqan tərəfindən əvvəllər qərar qəbul olunduğu müəyyən edildikdə;
2) həmin iş üzrə qanuni qüvvəyə minmiş məhkəmə qərarı olduqda;
3) "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində nəzərdə tutulmuş tələblərə əməl olunmadıqda.
4) Maraqlı şəxs 1-ci və 2-ci halda ərizə ilə yenidən inzibati orqana müraciət edə bilməz. Çünki, ərizədə qaldırılan məsələ ilə bağlı inzibati orqanın və ya məhkəmənin qərarı var və həmin qərar qüvvədədir. Maraqlı şəxs "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsində nəzərdə tutulmuş tələblərə əməl etdikdə o, ərizə ilə yenidən inzibati orqana müraciət edə bilər. Beləliklə, 1-ci və 2-ci hal ərizənin baxılmamış saxlanılmasının mütləq əsaslarıdır. Bu əsaslar qüvvədə olduğu müddətə maraqlı şəxsin eyni məsələ ilə bağlı yenidən inzibati orqana müraciəti səmərəsiz bir hərəkət olaraq qalacaqdır.

• **Maraqlı şəxs**

"İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 2.0.3-cü maddəsinə uyğun olaraq ***maraqlı şəxs:***

1. inzibati aktın qəbul edilməsi və ya müvafiq hərəkətin edilməsi ilə bağlı inzibati orqana müraciət etmiş şəxsdir;

2. barəsində inzibati akt qəbul edilmiş şəxsdir;
3. barəsində müvafiq hərəkət (hərəkətsizlik) edilmiş şəxsdir;
4. inzibati orqan tərəfindən qəbul edilməsi nəzərdə tutulan və ya qəbul edilmiş inzibati aktın və ya inzibati orqanın hərəkətinin hüquqlarına və ya qanunla qorunan maraqlarına birbaşa təsir etdiyi və ya təsir edə biləcəyi şəxsdir;
5. maraqlı şəxsin öz vəsatətinə əsasən inzibati icraata cəlb edilmiş şəxsdir;
6. xidməti vəzifəsindən irəli gələn hallarda inzibati orqanın təşəbbüsü ilə inzibati icraata cəlb edilən fiziki və ya hüquqi şəxsdir.

Yalnız yetkinlik yaşına çatmış və tam fəaliyyət qabiliyyəti olan şəxslər ərizə ilə müraciət etmək və inzibati icraatda digər prosessual hərəkətləri həyata keçirmək hüququna malikdirlər. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 28-ci maddəsinə uyğun olaraq fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti, o, yetkinlik yaşına, yəni on səkkiz yaşına çatdıqda tam həcmdə əmələ gəlir.

Fiziki və hüquqi şəxslərin inzibati icraata cəlb olunması məsələsini həll edərkən qanunverici imperativ və dispozitiv yanaşmalardan istifadə etmişdir. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 36.3-cü maddəsinə görə qəbul olunması nəzərdə tutulan inzibati aktın digər fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanunla qorunan maraqlarına birbaşa təsir edəcəyi güman olunduğu hallarda, inzibati orqan həmin şəxslərin üçüncü (maraqlı) şəxs qismində icraatda iştirakını təmin etməyə borcludur ***(imperativ cəlbetmə).*** Həmin qanunun 36.4-cü maddəsində isə deyilir: “Qəbul olunması nəzərdə tutulan inzibati akt üçüncü şəxslərin qanunla qorunan maraqlarına toxunacağı halda, inzibati orqan onları öz təşəbbüsü ilə və ya həmin şəxslərin vəsatətinə əsasən iştirakçı kimi icraata cəlb edə bilər ***(dispozitiv cəlbetmə).***

İmperativ cəlbetmənin başlıca tələbi inzibati aktın digər fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanunla qorunan maraqlarına birbaşa təsir edəcəyi ehtimalıdır. Birbaşa təsir dedikdə, inzibati icraat zamanı qəbul ediləcək inzibati aktın icraata cəlb olunmuş üçüncü şəxs barəsində hüquqi nəticənin yaranması (hüquqların müəyyən edilməsi, dəyişdirilməsi və ya ləğv edilməsi) başa düşülür.

Dispozitiv cəlbetmə inzibati aktın üçüncü şəxslərin qanunla qorunan maraqlarına toxunacağı ehtimalı ilə bağlıdır. Bu məsələnin həlli inzibati orqanın diskresion səlahiyyətinə aid olan bir məsələdir. Dispozitiv cəlbetmə üçüncü şəxslərin qanunla qorunan maraqlarını təmin etməyə və bu yolla

gələcəkdə yarana biləcək mübahisələrdən inzibati orqanın sığortalanmasına hüquqi şərait yaradır, mütənasiblik və formal tələblərdən sui-istifadənin qadağan olunması prinsiplərinin tələblərinə əməl olunmasını təmin edir. Dispozitiv cəlbetmənin praktiki əhəmiyyəti bir də onunla izah olunur ki, o, iş üzrə əhəmiyyət kəsb edən halların daha operativ həll edilməsinə, ətraflı aydınlaşdırılmasına, sübutların və dəlillərin düzgün qiymətləndirilməsinə və inzibati aktın əsaslandırılmasına xidmət edir.

İnzibati icraata cəlb olunması haqqında vəsatət vermək üçüncü şəxsin subyektiv hüququdur. O, bu hüququna əsaslanaraq və "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsini rəhbər tutaraq onun inzibati icraata cəlb olunması haqqında inzibati orqan tərəfindən düzgün inzibati aktın qəbul olunmasını tələb edə bilər.

• ***Nümayəndə.***

Fiziki və ya hüquqi (maraqlı) şəxs inzibati icraatda şəxsən iştirak edə bilər və yaxud nümayəndə vasitəsilə təmsil oluna bilər. Şəxsin inzibati icraatda şəxsən iştirakı onu həmin iş üzrə nümayəndə ilə təmsil olunmaq hüququndan məhrum etmir. Nümayəndənin səlahiyyətləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq rəsmiləşdirilmiş etibarnamə ilə təsdiq olunur. Nümayəndə təmsil etdiyi şəxsin adından icraatla bağlı bütün prosessual hərəkətləri yerinə yetirmək hüququna malikdir. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsləri inzibati icraatda onların qanuni nümayəndələri təmsil edirlər. Qanuni nümayəndələr inzibati orqana öz səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidirlər. Qanuni nümayəndələr icraatda iştirak etməyi nümayəndə qismində seçdikləri başqa şəxsə tapşıra bilərlər. Nümayəndə təmsil etdiyi şəxsin maraqlarını vicdanla müdafiə etməyə borcludur. İnzibati orqan inzibati icraatda həmin orqanın rəhbəri, onun müavini və ya həmin orqanın rəhbəri tərəfindən təyin olunmuş digər vəzifəli şəxs vasitəsilə təmsil olunur. Qanunda başqa qayda nəzərdə tutulmamışdırsa, inzibati orqan inzibati icraatla bağlı bütün məsələlər üzrə nümayəndəyə müraciət edir.

**İnzibati icraatda hüquqi varislik.** "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda hüquqi varisliklə bağlı müfəssəl müddəalar yoxdur. Həmin Qanunun 36.6-cı maddəsində deyilir: *"İnzibati icraatda maddi hüququn hüquqi varisliklə bağlı müddəaları tətbiq edilir. İştirakçının şəxsiyyəti ilə birbaşa bağlı olan hüquqların hüquqi varislik qaydasında keçməsinə yol verilmir".* Bu baxımdan həmin məsələnin daha dərindən başa düşülməsi üçün Azərbaycan Respublikasının Mülki Məcəlləsinə istinad etmək lazımdır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1133-cü maddəsinə uyğun olaraq ölmüş şəxsin (miras qoyanın) əmlakı başqa şəxslərə (vərəsələrə) qanun üzrə və ya vəsiyyət üzrə və ya hər iki əsasla keçir. Qanun üzrə vərəsəlik (ölmüş şəxsin əmlakının qanunda göstərilmiş şəxslərə keçməsi) o zaman qüvvədə olur ki, miras qoyan vəsiyyətnamə qoymur, yaxud vəsiyyətnamə tamamilə və ya qismən etibarsız sayılır.

Hüquq varisliyinin insan şəxsiyyəti ilə qırılmaz şəkildə bağlı olan hüquqlar barəsində tətbiqi qeyri-mümkündür. Bir qayda olaraq hüquq varisliyin mümkünlüyü üçün ilkin şərtlər təmin edilməlidir.

Şəxsiyyətlə qırılmaz bağlı olan subyektiv hüquqların hüquq varisliyi qaydasında keçməsi istisna təşkil edir. Eyni qayda mülki hüquqda da tətbiq olunur. Lakin inzibati icraatın həyata keçirilməsi zamanı bu şərt daha bariz şəkildə özünü göstərir.

Məsələn, sürücülük vəsiqəsi, silahı saxlamaq hüququ verən sənəd, xüsusi razılıq (lisenziya) tələb edən fəaliyyətlə məşğul olmaq üçün verilmiş sənədlər hüquqi varisliyin predmeti ola bilməz, çünki onlar həmin sənədlərin sahibi olmuş şəxsin keyfiyyətləri və bacarığı ilə vəhdət təşkil edir və bu mənada onunla sıx bağlıdır.

İnsan şəxsiyyəti ilə sıx bağlı olmayan bir sıra hüquqlar da vardır ki, onlar inzibati icraat zamanı xüsusi əhəmiyyət kəsb edir.

**Misal.** *Mülki hüquqda hüquq varisliyinin mövcud olması üçün bütün ilkin şərtlər müəyyən edilmişdir. Lakin inzibati icraatın həyata keçirildiyi zaman ölüm faktına görə inzibati icraatın iştirakçıları sırasından çıxmış iştirakçının əvəzinə hüquq varisliyi əldə etmiş vərəsənin iştirakının hansı qaydada təmin olunması sual doğurmaya bilməz. Bunun üçün varis inzibati icraata cəlb olunmalı və yaxud iştirakçı statusunu avtomatik olaraq əldə etməlidir.*

*"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda bu məsələlər öz əksini tapmamışdır. Bu məsələni Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 58-ci maddəsinə uyğun olaraq həll etmək mümkündür.* Həmin maddədə deyilir:

"58.1. Mübahisə edilən hüquq münasibətində və ya qətnamə ilə müəyyən edilən hüquq münasibətində tərəflərdən biri sıradan çıxdıqda (şəxs öldükdə, hüquqi şəxs yenidən təşkil edildikdə, tələb güzəşt edildikdə, borc köçürüldükdə və maddi hüquq münasibətlərində şəxslərin dəyişməsinin digər hallarında) məhkəmə həmin tərəfi onun hüquq varisi ilə əvəz etməyə yol verir. Hüquq varisliyi prosesin hər hansı mərhələsində mümkündür.

58.2. Hüquq varisi prosesə daxil olana qədər prosesdə edilmiş bütün hərəkətlər, onun əvəz etdiyi şəxs üçün məcburi olduğu kimi, hüquqi varisi

üçün də məcburidir”.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 254-cü maddəsinə əsasən isə hakimin aşağıdakı hallarda iş üzrə icraatı dayandırmalı olduğu göstərilir.

- işdə tərəf olan şəxs öldükdə və ya hüquqi şəxs yenidən təşkil edildikdə,
- mübahisə edilən hüquq münasibəti hüquq varisliyinə və ya işdə tərəf olan hüquqi şəxsin xitamına yol verərsə;
- tərəf fəaliyyət qabiliyyətini itirərsə;
- iddiaçı, yaxud cavabdeh Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin və başqa silahlı birləşmələrinin hərbi əməliyyatlarında olduqda;
- Konstitusiya Məhkəməsinin icraatı qaydasında, mülki, cinayət və ya inzibati qaydada baxılan başqa bir iş həll edilməyincə işə baxmaq mümkün olmazsa;
- Azərbaycan Respublikası Ali Məhkəməsinin icraatında eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə mübahisəyə dair xarici dövlətin məhkəməsinin qərarının tanınması və icra edilməsi haqqında ərizə olarsa.

Yuxarıda göstərilən maddələrdən göründüyü kimi, inzibati icraatda iştirak edən şəxsin ölümü inzibati icraatın xitamına deyil, ancaq onun dayandırılmasına əsas ola bilər. Beləliklə, inzibati icraat zamanı ölmüş iştirakçının hüquq varisi inzibati icraata daxil olana qədər inzibati icraat zamanı edilmiş bütün hərəkətlər, ölmüş iştirakçı üçün məcburi olduğu kimi, onun hüquqi varisi üçün də eyni dərəcədə məcburidir.

İnzibati icraatın başlanması üçün əsas olmuş hallardan asılı olaraq hüquqi varisin hərəkətləri və iradəsi az əhəmiyyət kəsb etməyə bilməz. Əgər inzibati icraat ölmüş maraqlı şəxsin ərizəsi əsasında başlanmışdırsa, onda inzibati icraata daxil olan hüquqi varis, ərizədə qaldırılan məsələyə öz münasibətini bildirməlidir. Onun ərizədə qaldırılan məsələyə olan münasibəti inzibati icraatın sonrakı taleyini həll edə bilər. Belə güman edək ki, hüquqi varis ərizədə qaldırılan məsələyə münasibət bildirmir və inzibati icraatın davam etməsində iştirak etmir, işin mahiyyəti ilə bağlı maraqlanmır və inzibati icraatda iştirak etmir. Hüquqi varisin inzibati icraatda iştirak etməməsi, inzibati orqan tərəfindən ona məlumat verilməsinə baxmayaraq inzibati icraata maraq göstərməməsi hüquqi varisin faktiki olaraq ərizədən imtina etməsi kimi başa düşülməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 261-ci maddəsinə görə "iddiaçı iddiadan imtina etmişsə və bu imtina məhkəmə tərəfindən qəbul olunmuşsa" inzibati icraata xitam verilməlidir.

İnzibati icraat inzibati orqanın xidməti vəzifəsindən irəli gələn hallarda onun təşəbbüsü ilə başlandıqda bu halda hüquqi varisin inzibati icraatda iştirakı vacibdir və onun iradəsi bu məsələ ilə bağlı artıq heç bir əhəmiyyət kəsb etmir.

Sonda onu da qeyd edək ki, liberal-demokratik ölkələrin təcrübəsi də göstərir ki, dövlət orqanlarının va ya inzibati orqanların idarəçilik fəaliyyətinin vahid icraat qaydalarının müəyyən olunması hakimiyyətdən sui-istifadənin, vətəndaşların hüquq və azadlıqlarının pozulmasının qarşısının alınmasında daha səmərəli təminat vasitəsidir. Hüquqi dövlətdə ümumi-hüquqi idarəçilik fəaliyyəti ilə bağlı icraat qaydalarının, qanunla nəzərdə tutulmuş qadağalarla, icazələrlə, qeydiyyatla va sairlə bağlı səlahiyyətlərin həyata keçirilməsi üzrə icraat qaydalarının tənzimlənməsi kimi çox mühüm məsələlərin inzibati orqanların hər biri tərəfindən ayrılıqda müəyyən olunması məqbul sayıla bilməz. Hər bir dövlət orqanı vətəndaşlarla münasibətlərini dəqiq və aydın şəkildə müəyyən olunmuş qaydalar əsasında qurmalıdır. Nəzərə almaq lazımdır ki, dövlət orqanının vətəndaşa qarşı davranışı həmin şəxsin bütövlükdə dövlətə qarşı münasibətinin formalaşmasına və bu münasibətin xarakterinə təsir edən faktordur. Dövlət orqanı öz davranışında məhz bu faktordan çıxış etməli və vətəndaşlarla qarşılıqlı inama və əməkdaşlığa əsaslanan münasibətlər qurmalıdır. Konstitusiya ənənələrinə malik demokratik ölkələrdə dövlət idarəçilik orqanları ilə vətəndaşlar arasında münasibətlərin bütün prosedur qaydaları inzibati icraat haqqında qanunlarla müəyyən olunur. Bu isə o deməkdir ki, heç bir dövlət orqanı, vəzifəli şəxs və dövlət qulluqçusu bu və ya digər məsələni qanunla müəyyən edilmiş qaydadan kənar, özünün şəxsi mülahizələri prizmasından həll edə bilməz.

### İstifadə edilmiş ədəbiyyat siyahısı


1. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi, Bakı, Hüquq Yayın Evi, 2023
2. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanunu
3. S.Kərimov, G.Vəliyeva "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununun Komentariyası, "Hüquq ədəbiyyatı nəşriyyatı", Bakı 2006
4. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin Kommentariyası, Bakı 2009



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2023-cü ilin dekabr-2024-cü ilin iyun aylarında keçirilən tədbirlərin xülasəsi

2023-cü il dekabrın 21-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.

Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında məhkəmə-hüquq sahəsində aparılan islahatlar və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər barədə məlumat verib, qarşıda duran vəzifələri diqqətə çatdırıb.

İclasda məhkəmə fəaliyyətinin ayrı-ayrı istiqamətləri ilə bağlı məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Bundan başqa, iclasda hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məsələlərinə və intizam icraatı üzrə işlərə baxılıb.



Eyni zamanda, təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyətləri ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfələr verdiklərinə görə “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” yubiley medalı, fəxri fərman və fəxri döş nişanı ilə təltif ediliblər.

≈≈≈

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən məhkəmələr arasında mini futbol turniri baş tutub.

Tədbir Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb, daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələri təmsil edən 8 komandanın iki qrupda mübarizə apardığı turnirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi birinci, Kəngərli və Sədərək Rayon Məhkəmələrinin birgə komandası ikinci, Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsi üçüncü yerin qalibi olub.



Turnirin bağlanış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış edərək ulu öndərin 100 illik yubileyinə həsr olunmuş tədbirin əhəmiyyətindən danışıb. Bu ilin ölkəmizin qazandığı zəfərlərlə xüsusilə əlamətdar olduğunu qeyd edən xanım sədr turnirdə iştirak edən komandalara öz təbrikini çatdırıb. Sonda qaliblərin mükafatlandırılma mərasimi keçirilib. Birinci yerin sahibinə kubok, medal və diplom, ikinci və üçüncü yerlərə yiyələnmiş komandalara medallar və diplomlar təqdim edilib.

Qeyd edək ki, turnir ölkəmizdə bütün digər sahələrdə olduğu kimi, idmanın inkişafına da böyük diqqətlə yanaşmış Ulu Öndər Heydər Əliyevin xatirəsinin anılması, eləcə də sağlam həyat tərzinin təşviqi məqsədilə təşkil olunub.

≈≈≈

2024-cü il yanvar ayının 10-da Naxçıvan Regional Asan Xidmət Mərkəzində Seçki hüquqlarının pozulmasına dair mübahisələrin məhkəmə qaydasında həlli mövzusunda seminar-müşavirə keçirilib. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi ilə birgə layihəsi əsasında təşkil olunmuş seminarda region üzrə dairə seçki komissiyalarının sədrləri iştirak edib.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının üzvü Ramiz İbrahimov bildirib ki, Mərkəzi Seçki Komissiyası tərəfindən regionlarda və

Naxçıvanda keçirilən bu maarifləndirmə tədbirləri seçkilərdə öz müsbət təsirini göstərəcək.

Seminarda Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin hakimləri Əli Allahverdiyev və Səxavət Bəylərli, Mərkəzi Seçki Komisiyası Katibliyinin Hüquq Şöbəsinin müdiri Rafiq Abbasov çıxış ediblər.



Qeyd edək ki, seminarda Azərbaycan Respublikası Prezident seçkilərində seçki hüquqlarının müdafiəsi ilə bağlı qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi və məhkəmədə seçki hüquqlarının müdafiəsi ilə bağlı işlər üzrə icraat təqdimatı olub.

≈≈≈

2024-cü ilin yanvarın 26-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.



İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov çıxışında 2023-cü ildə məhkəmə-hüquq sahəsində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə məlumat verib. Cari il ərzində qarşıda duran hədəflər diqqətə çatdırılıb.

İclasda məhkəmə fəaliyyətinin ayrı-ayrı istiqamətləri ilə bağlı məruzələr dinlənilib, fikir mübadiləsi aparılıb.

Bundan başqa, iclasda hakimlərin fəaliyyətinin qiymətləndirilməsi məsələlərinə və intizam icraatı üzrə işlərə baxılaraq, müvafiq qərarlar qəbul olunub.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*

Fevral ayının 1-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının sədri Hafiz Nəsibov, Kommersiya kollegiyasının sədri Kəmalə Abiyeva, Məhkəmənin İnzibati kollegiyasının hakimi Zakir Quliyev və Mülki kollegiyanın hakimi Vüqar Həsənovla yanaşı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, ölkəmizdə insan hüquqlarının təmin olunması və müasir standartlara cavab verən məhkəmə-hüquq islahatlarının aparılması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin demokratik təsisatların bərqərar edilməsini və məhkəmə sisteminin müasirləşdirilməsini şərtləndirən hüquq islahatları hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün bu islahatlar ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.



Səadət Bəktaşi qeyd edib ki, hazırda hüquq institutlarının təkmilləşdirilməsi və ədalət mühakiməsinin keyfiyyətinin daha da artırılması istiqamətində geniş miqyaslı işlər görülməkdədir. 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsi, hüquqi-maarifləndirmə işinin daha da gücləndirilməsi, vətəndaşların müraciətlərinə vaxtında baxılması sahəsində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

2023-cü il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində qəbul olunmuş tədbirlər planına uyğun olaraq keçirilmiş silsilə tədbirlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirib ki, il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən hüquqi maarifləndirmə sahəsində diqqətəlayiq işlər həyata keçirilib və keçirilməkdədir. İl ərzində Ali Məhkəmə tərəfindən müxtəlif səpkili elmi-parktik konfranslar, muxtar

respublika məhkəmələrinin sədr və hakimlərinin iştirakı ilə seminarlar keçirilmiş, seminarlarda təcrübədə hakimlərin qarşılaşdığı problemlər, onların həlli üsulları müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən geridə qoyduğumuz 2023-cü il ərzində ölkəmiz üçün əlamətdar günlər xüsusi qeyd olunmuş, Məhkəmə tərəfindən xeyriyyə və idman tədbirləri həyata keçirilmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin gündəliyinə salınmış məsələlərə baxılmış, muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş işlər üzrə məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinin nəticələri və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kassasiya şikayəti verilmiş qərarlarının sabitlik göstəriciləri ətraflı təhlil edilmişdir.

İclasda çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət kollegiyasının sədri Hafiz Nəsibov ölkəmizdə ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi istiqamətində aparılan islahatlara uyğun olaraq Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat vermiş, vahid təcrübənin tətbiqi ilə bağlı qarşıda duran məsələlər barədə iclas iştirakçılarını məlumatlandırmışdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının sədri Kəmalə Abiyeva, Məhkəmənin İnzibati kollegiyasınn hakimi Zakir Quliyev və Mülki kollegiyanın hakimi Vüqar Həsənov öz çıxışlarında Naxçıvan Muxtar Respubliası Ali Məhkəməsi tərəfindən baxılmış işlər üzrə verilmiş kassasiya şikayətlərinin say və həmin qərarların sabitlik göstəricilərini, qanunun tələblərinə və vahid təcrübənin tətbiqi qaydalarına uyğun təhlil etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd etmişdir ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun həyata keçirməklə ölkədə aparılan mütərəqqi hüquq islahatlarının uğurla davam etdirilməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, vətəndaş məmnuniyyətinin təmini və onların hüquqlarının bərpasına, eyni zamanda ədalət mühakiməsinə əlçatanlığın təmini və məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈

Fevralın 29-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.



İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov son dövrlərdə məhkəmə sahəsində görülmüş işlər barədə məlumat verib. Bildirilib ki, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması istiqamətində islahatlar həyata keçirilməkdədir. Məhkəmə sistemi beynəlxalq standartlara uyğun təkmilləşdirilir, bu sahədə fəaliyyəti tənzimləyən qanunvericilik bazası əsaslı şəkildə yenilənir, məhkəmə hakimiyyətinin nüfuzu artırılır.

İclasda Məhkəmə-Hüquq Şurası tərəfindən ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində qarşıda duran vəzifələr də diqqətə çatdırılıb.

Sonra iclasda iştirak edən Ali Məhkəmənin İnzibati kollegiyasının sədri Xəqani Məmmədovun "İnzibati məhkəmələrdə ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti barədə" məruzəsi dinlənilib. İnzibati icraat zamanı inzibati orqanların fəaliyyətindən irəli gələn məsələlərin həlli ilə bağlı təşkilati, qanunvericilik və məhkəmə fəaliyyətinə aid olan tədbirlər qeyd edilib, qanunvericiliyə dəyişiklər edilməsi barədə təkliflər səsləndirilib. İnzibati məhkəmələrin icraatında olan işlərin sayı, iş yükünün çoxluğu, hakimlər arasında işlərə baxılma müddəti və digər məsələlərə dair statistik göstəricilər barədə Şura üzvlərinə geniş məlumat təqdim olunub.

Həmçinin iclasda intizam icraatı üzrə işlərə baxılaraq müvafiq qərarlar qəbul edilib.

≈≈≈

2024-cü il martın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini Əsgər Novruzov "Femida Könüllüləri" Təşkilatının sədri Nilgün Məmmədova ilə görüşüb.

Əsgər Novruzov qonağı salamlayaraq görüşdən məmnunluğunu ifadə edib, “Femida Könüllüləri” layihəsinin ölkəmizin hüquq ictimaiyyəti üçün çox faydalı bir təşəbbüs olduğunu bildirib. Əsgər Novruzov qeyd edib ki, layihə məhkəmə və hüquq sistemində çalışacaq yüksək peşəkarlığa malik, təcrübəli və bacarıqlı kadrların formalaşdırılması işinə mühüm təkan verəcəkdir.



Səmimi qəbula görə təşəkkür edən Nilgün Məmmədova çıxışında Təşkilatın cari fəaliyyəti və gələcək məqsədləri barədə məlumat verib. Nilgün Məmmədova bildirib ki, Məhkəmə-Hüquq Şurası ilə “Femida Könüllüləri” Təşkilatı arasında imzalanmış “Məhkəmə-hüquq sistemində könüllülük fəaliyyətinin təşkili haqqında” Memorandum məhkəmələrdə gənclərin iştirakçılığını artırmaq prosesinin daha sistematik formada həyata keçirilməsinə geniş şərait yaradacaq.

Görüşdə könüllülərin məhkəmələrdə könüllülük fəaliyyətinə cəlb olunmalarının detalları barədə fikir mübadiləsi aparılıb.

≈≈≈

2024-cü ilin martın 3-dən 9-dək Türkiyə Respublikasının Ali Məhkəməsi (Yargıtay) ilə təcrübə mübadiləsi proqramı çərçivəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının hakimləri və apellyasiya instansiyası məhkəmələrinin Mülki kollegiya sədrlərindən ibarət nümayəndə heyəti Türkiyədə səfərdə olub. Nümayəndə heyətinin tərkibində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının sədri Əli Allahverdiyev səfərdə iştirak edib.

Səfər çərçivəsində nümayəndə heyəti Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca və Türkiyənin Baş prokuroru Bəkir Şahin tərəfindən qəbul edilib. Görüşdə iki qardaş ölkənin məhkəmə-hüquq sahəsində əməkdaşlığı istiqamətində görülən işlər yüksək qiymətləndirilib.



Sonra hakimlərimiz türkiyəli həmkarları ilə vərəsəlik, əsassız varlanma, mənəvi ziyanın tutulması, ər-arvadın ümumi əmlakının bölünməsi, habelə mülki hüququn digər sahələri ilə bağlı məhkəmə təcrübəsi ətrafında qarşılıqlı fikir mübadiləsi aparıblar.

Nümayəndə heyəti tərəfindən Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərə - Anıtqəbir və Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin Ankara şəhərindəki abidəsi ziyarət edilib.

≈≈≈

2024-cü il mart ayının 4-də Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə Ali Məhkəmədə Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə səhnələşdirilmiş məhkəmə prosesi təşkil olunub.

Simulyasiya çərçivəsində Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri tərəfindən cinayət prosesinin məhkəmə baxışı mərhələsi səhnələşdirilib.



Səhnələşdirilmiş məhkəmə prosesində oğurluqda təqsirləndirilən şəxsin Cinayət Məcəlləsinin müvafiq maddəsi üzrə təqsirləndirilməsinə dair məhkəmə baxışı canlandırılıb. Məhkəmə baxışının gedişində məhkəmə istintaqının aparılması, tərəflərin və şahid ifadələrinin alınması, müşavirə otağında məhkəmə hökmünün hazırlanması və hökmün elan edilməsi tələbələr tərəfindən əyani şəkildə nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimləri İlqar Mirzəyev, Səxavət Bəylərli və Fərman Abbasov münsif qismində tələbələrin iştirakını izləyiblər. Məhkəmə simulyasiyasından sonra simulyasiya üzrə

münsif hakimlərlə tələbələrin görüşü keçirilib səhnələşdirilmiş məhkəmə prosesinin nəticələri müzakirə olunub. Tələbələrin diqqətinə çatdırılıb ki, bu qəbildən tədbirlərin yetişməkdə olan gənc hüquqşünasların gələcək peşə vərdişlərinin formalaşdırılmasındakı rolu danılmazdır. Görüş zamanı Məhkəmənin Naxçıvan Dövlət Universiteti ilə imzaladığı Memorandum diqqətə çatdırılıb və qeyd olunub ki, hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərlə yanaşı, təcrübi biliklərinin də artırılması Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin diqqət mərkəzindədir və gələcəkdə də bu qəbildən layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Tədbir məhkəmə simulyasiyasında müvafiq rolları canlandıran tələbələrə sertifikatların təqdim edilməsi və xatirə şəklinin çəkilməsi ilə yekunlaşıb.

≈≈≈



2024-cü ilin martın 29-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi və müasir çağrışlara uyğun təkmilləşdirilməsi, məhkəmələrin fəaliyyətinin daha optimal şəkildə qurulması məqsədilə görülmüş işlərdən bəhs edilib. Bildirilib ki, hakim korpusunun çevik komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesləri şəffaf və təkmilləşdirilmiş mərhələlər üzrə davam etdirilir.

İclasda cari məsələlərə, o cümlədən Hakimlərin Seçki Komitəsinin müraciətinə də baxılıb. Müsabiqəni uğurla başa vurmuş və böyük əksəriyyəti gənc nəsil hüquqşünaslardan ibarət olan hakimliyə namizədlərlə fərdi söhbətlər aparılıb, onlara tövsiyələr verilib və yekunda birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunmaları üçün təkliflərin hazırlanması qərara alınıb.

Həmçinin Məhkəmə-Hüquq Şurasının üzvləri çıxış edərək, hakimliyə namizədlərin müxtəlif hüquq sahələrində çalışdıqlarını və gələcəkdə ədalət mühakiməsinin və məhkəmə sisteminin inkişafında öz töhvələrini verəcəklərinə əminliklərini bildiriblər.

≈≈≈

2024-cü ilin aprelin 15-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiya sədrləri, həmçinin Ali Məhkəməyə yeni təyin olunmuş hakim Müşfiq Həsənov və Naxçıvan Şəhər Məhkəməsinin sədri vəzifəsinə təyin olunmuş Gülnar Səfərəliyeva kollektivə təqdim olunub.

Təqdimetmə mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra öz fəaliyyətində qanunun aliliyinə, insan hüquqları və demokratiyanın müdafiəsinə xüsusi önəm verir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə–hüquq islahatlarını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ölkəmizdə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər həyata keçirilir, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədi ilə məhkəmə hüquq sisteminin inkişafı daim diqqət mərkəzində saxlanılır. Ədalət mühakiməsinin həyata keçirilməsində aşkarlığın və qərəzsizliyin daha dolğun şəkildə təmin edilməsi məqsədilə hakim korpusu yenilənir və gənc hakimlərin hesabına genişləndirilir. Səadət Bəktaşi yeni vəzifələrə təyin olunan hakimləri məhkəmənin kollektivi və öz adından təbrik edib və onların öz fəaliyyətlərində qazandıqları təcrübənin məhkəmə hakimiyyətinin nüfuzunun möhkəmləndirilməsinə və cəmiyyətimizdə ədalət mühakiməsinə olan etimadın daha da artırılmasına töhfə verəcəyinə şübhə etmədiyini bildirib.

Sonra yeni vəzifələrə təyinat alan hakimlər çıxış edərək onlara göstərilən yüksək etimadı layiqincə doğrultmağa çalışacaqlarını bildiriblər.

≈≈≈

Azərbaycan Arbitraj Assosiasiyası təşkilatçılığı ilə, ölkəmizin dövlət və hökumət nümayəndələrinin, yerli və xarici hakimlərin, eləcə də beynəlxalq arbitraj üzrə ekspertlər və hüquqşünasların iştirakı ilə baş tutan tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya kollegiyasının sədri Səxavət Bəylərli iştirak edib. 25-26 aprel tarixlərində keçirilmiş konfransda arbitraj institutunun mübahisələrin alternativ həlli üsulu kimi əhəmiyyəti vurğulanıb, qeyd olunub ki, ötən il Azərbaycanda "Arbitraj haqqında" Qanunun qəbul edilməsi ilə arbitraj institutunun inkişafı istiqamətində irəliyə doğru addım atılıb. Yeni Qanun Beynəlxalq Kommersiya Arbitrajı haqqında BMT-nin Model Qanunu əsasında hazırlanıb, bu isə o deməkdir ki, burada sınaqdan keçmiş işlək beynəlxalq

təcrübə nəzərə alınıb. Bununla da ölkəmizdə ilk dəfə olaraq qanunvericiliklə həm beynəlxalq, həm də daxili arbitrajın həyata keçirilməsi ilə bağlı münasibətlər tənzimlənəcəkdir.



Tədbirin təşkilində əsas məqsəd ölkəmizdə mübahisələrin alternativ həlli yollarından olan beynəlxalq arbitrajın inkişafı və onun regionda, eləcə də dünyada beynəlxalq investisiya və kommersiya mübahisələrinin həlli üçün arbitraj məkanı kimi tanınmasına nail olmaqdır.

≈≈≈

Mayın 8-də Azərbaycan Respublikası Vəkillər Kollegiyası və Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyasının təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasında “Blokada şəraitində hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi” mövzusunda konfrans, habelə vəkilliyə namizədlərin təntənəli andiçmə mərasimi keçirilib.

Konfrans Ulu Öndər Heydər Əliyevin 101 illiyi və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov, onun başçılıq etdiyi nümayəndə heyəti, eləcə də deputatlar, vəkillər və digər dövlət rəsmilərinin iştirakı ilə keçirilmiş konfransda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iştirak edib. Mərasim Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, Ümummilli Liderin və Azərbaycanın müstəqilliyi, ərazi



bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Prezidentin səlahiyyətli nümayəndəsi F.Nəcəfli çıxış edərək bildirib ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində qanunun aliliyinə strateji məsələ kimi yanaşıb, hüquq sistemində işlək və çevik mexanizmlər tətbiq olunub, ədalət mühakiməsinin səmərəliliyinə və insan hüquqlarının etibarlı təminatına nail olunub. O, müstəqillik dövründə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda Konstitusiyamıza əsaslanan təkmil qanunvericilik bazasının formalaşdırıldığını, hüquq təsisatlarının səmərəli fəaliyyətinə nail olunduğunu deyib.

F.Nəcəfli qeyd edib ki, bu gün ölkə Prezidenti cənab İlham Əliyev 100 illiyini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasında da hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi işini diqqət mərkəzində saxlayır, ardıcıl islahatlar həyata keçirilir. Ölkə Prezidentinin qayğısı ilə 2006-cı ildə müvəkkil təsisatı formalaşdırılıb, həmçinin 2008-ci ildə Naxçıvan Muxtar Respublikası Vəkillər Kollegiyası təsis edilib. Muxtar respublikada hüquq institutlarının elektron xidmətlər göstərməsi təmin olunub və hazırda muxtar respublikada "Elektron məhkəmə", "Elektron notariat" və digər xidmətlər uğurla tətbiq edilir.

F.Nəcəfli nəzərə çatdırıb ki, ötən 30 ilə yaxın bir dövrdə Naxçıvan Muxtar Respublikasında dövlət tərəfindən əlverişli şərait yaradılmasına və maddi-texniki təminatın yaxşılaşdırılmasına baxmayaraq, ədalət mühakiməsinin və insan haqlarının qorunması sahəsində nöqsanlara da yol verilib. Vətəndaşların mülkiyyət hüquqlarının pozulması və bu kimi hallara hüquq-mühafizə orqanlarında və məhkəmələrdə laqeyd yanaşılması, cinayət qanununun normalarının düzgün tətbiq edilməməsi, sübutların tam və hərtərəfli qiymətləndirilməməsi kimi ciddi hüquq pozuntuları qeydə alınıb. Hazırda dövlət başçısının tapşırıqlarına uyğun olaraq, bu istiqamətdə sistemli tədbirlər görülür. Xüsusilə aparılan kadr islahatları muxtar respublikada hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi işində yeni mərhələnin əsasını qoyub.

Tədbirdə ARVK Rəyasət Heyətinin qərarına əsasən, Naxçıvan MR-də vəkilliyin inkişafına verdiyi töhfələrə görə F.Nəcəflinin ARVK-nın "Fəxri vəkili" adı ilə təltif olunması üzrə diplom və rəmzi vəkil mantiyası Prezidentin səlahiyyətli nümayəndəsinə təntənəli surətdə təqdim olunub. Həmçinin F.Nəcəfli "Azərbaycan vəkilliyinin 100 illiyi" yubiley döş nişanı ilə təltif edilib, ona gələcək fəaliyyətində uğurlar arzulanıb.

Naxçıvan MR Ali Məhkəməsinin sədri Səadət Bəktaşi çıxış edərək 1993-cü ildə Ulu Öndərin xalqın istəyi ilə Azərbaycana qayıdışı və islahatların aparılması, müstəqilliyimizin təhlükə altına düşməsinin qarşısını alması, xalqımız üçün misilsiz xidmətlər göstərməsi barədə vurğulayıb. O, Ulu Öndərin 17 iyun 1999-cu il tarixli Fərmanına əsasən, Naxçıvan MR Ali Məhkəməsinin hakimlərinin sayının 14 nəfər müəyyən olunduğunu və 2000-ci ilin sentyabrından 2003-cü ilin yanvarınadək məhkəmə hakim heyəti ilə tam komplektləşdirildiyini xatırladıb.



Səadət Bəktaşi Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin fəaliyyətinin müasir tələblər səviyyəsində təşkil olunmasında muxtar respublikada hüquq institutlarının inkişafı haqqında Azərbaycan Prezidentinin 2 noyabr 2006-cı il tarixli Fərmanının rolundan bəhs edərək, muxtar respublikada hakimlərin, məhkəmə aparatı işçilərinin keyfiyyətli və səmərəli fəaliyyət göstərməsi üçün zəruri şəraitin yüksək səviyyədə təmin edildiyini bildirib.

≈ ≈ ≈

Azərbaycan Respublikası Prezidentinin 13 may 2024-cü il tarixli Sərəncamı ilə vəzifələri dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Kommersiya və İnzibati Məhkəmələrinin hakimi vəzifələrinə təyin olunan Qabil Məmmədov və Elnur Hüseynov, həmçinin hakim vəzifəsinə qəbulla bağlı müsabiqədə uğur qazanaraq Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsinin hakimi vəzifəsinə təyin olunan Arzuyar Kərimov kollektivə təqdim olunub.

Təqdimat zamanı çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi ölkəmizdə aparılan məhkəmə-hüquq islahatlarının tərkib hissəsi kimi ölkənin hakim korpusunun daim yenilənməsi, təcrübəli hakimlərlə yanaşı, gənc kadrların fəaliyyətinə geniş şərait yaradılması, ədalət mühakiməsinə çatımlılığın yüksələn xətlə inkişaf etdirilməsi üçün görülən tədbirlər barədə məlumat verərək yeni təyin olunan

hakimləri məhkəmənin kollektivi və öz adından təbrik edib və onların öz fəaliyyətlərində məhkəmə hakimiyyətinin nüfuzunun möhkəmləndirilməsinə və cəmiyyətimizdə ədalət mühakiməsinə olan etimadın daha da artırılmasına töhfə verəcəklərinə şübhə etmədiyini bildirib.

Yeni vəzifələrə təyin olunan hakimlər onlara göstərilən yüksək etimadı layiqincə doğrultmağa çalışacaqlarını bildiriblər.

≈ ≈ ≈

May ayının 30-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib. İclasda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.

İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi ölkəmizdə insan hüquqlarının təmin olunması və məhkəmə sisteminin müasirləşdirilməsini şərtləndirən hüquq islahatları ilə yanaşı məhkəmənin cari fəaliyyəti, işlərə operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından görülən işlər barədə məlumat verib.



Sonra muxtar respublikanın ixtisaslaşdırılmış məhkəmələri tərəfindən 2023-cü ildə baxılıb nəticə verilmiş işlər üzrə məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinin nəticələri və qərarlarının sabitlik göstəriciləri ətraflı təhlil edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd edib ki, məhkəmələrin qarşısındakı əsas vəzifələr məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətin davamlılığını təmin etməkdir. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi də bu istiqamətdə fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈

Ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimiz dövlətimiz və xalqımız tərəfindən hər zaman ehtiramla yad edilir, onların ailələrinə diqqət və qayğı göstərilir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivi Vətən müharibəsi şəhidlərinin ailələrini Qurban bayramı münasibətilə ziyarət edib. Kollektivin üzvləri Vətən müharibəsinin şəhidləri Əli Babayevin, Aqil İsmayılovun və Murad Xəlillinin ailələri ilə görüşüb, şəhidlərin əziz xatirəsini yad ediblər. Görüşlər zamanı bildirilib ki, Vətən müharibəsi və Antiterror əməliyyatında Müzəffər Ordumuz Ali Baş komandan İlham Əliyevin başçılığı ilə Qarabağı və digər ərazilərimizi işğaldan azad etməklə 30 illik yurd həsrətinə son qoydu. Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri döyüş meydanında əsl qəhrəmanlıq göstərərək Şanlı tariximizi möhtəşəm Qələbə ilə şərəfləndirdi.



Şəhidlərimizin ailələri qazanılan qələbədə övladlarının da payı olduğu üçün fəxr etdiklərini bildiriblər. Sonra şəhidlərimizin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açılıb. Hər bir şəhidimizin hələ yeniyetmə yaşlardan milli təəssübkeşliyə, vətənpərvərliyə, mübarizliyə, mərdliyə malik olduqları vurğulanıb.

Vətən yolunda canından keçən şəhidlərimizin ruhları qarşısında baş əydiklərini bildirən kollektiv üzvləri onlara Allahdan rəhmət, ailələrinə səbir diləyiblər.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



“Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü” və “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində qəbul olunmuş tədbirlər planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi may və iyun aylarında muxtar respublikanın rayonlarında vətəndaşları qəbul edib.

Qəbuldan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi yad edilib.

Qəbul zamanı vətəndaşları narahat edən məsələlər diqqətlə dinlənilib, qaldırılan problemlərin operativ araşdırılması və qanunamüvafiq şəkildə tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.



Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə ölkə prezidentinə minnətdarlıqlarını bildiriblər.

# HAKİM STUDİYASI

## “Hakim studiyası” televiziya verilişinin icmalı




2024-cü ilin fevral ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yeni televiziya layihəsi start götürmüşdür. Naxçıvan Dövlət Televiziyasının efirində Məhkəmənin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisinin təqdimatı ilə yayımlanan “Hakim Studiyası” televiziya verilişi əhali arasında hüquqi maarifləndirmə işinin aparılması, cəmiyyətin hüquqa çatımlılığına mümkün töhfənin verilməsi, hüquq ictimaiyyətinin qarşılıqlı fikir mübadiləsi apara biləcəyi və məlumatlanacağı platformanın yaradılması, ictimaiyyətin məhkəmə təcrübəsi barədə məlumatlandırılması, gənc və gələcək hüquqşünasların yararlana biləcəyi video formatlı hüquqi material bazasının zənginləşdirilməsi məqsədilə hazırlanmışdır. Muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin hakimlərinin və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin dəvət olunduğu verilişin hər sayında hüququn müxtəlif sahələri barədə nəzəri məlumatlarla yanaşı qanunvericiliyin tələbləri və formalaşmış məhkəmə təcrübəsi barədə tamaşaçılara ətraflı məlumatlar verilir.



**“Hakim Studiyası” verilişinin ilk sayı** seçki prosesində yaranan hüquq pozmalara məhkəmələrdə baxılması qaydalarına həsr olunmuşdur. 05 fevral 2024-cü il tarixdə efirə gedən ilk sayda Naxçıvan Muxtar Respublikası Ali

Məhkəməsinin hakimləri Səxavət Bəylərli və Səxavət Novruzovun iştirakları ilə seçki prosesində yaranan hüquq pozmalara münasibətdə məhkəmələrin funksiyası, şikayət vermək hüququna malik olan şəxslər, şikayət müddətləri, bu qəbildən olan şikayətlərin obyektləri, məhkəmələr tərəfindən seçkilərlə bağlı mübahisələrə baxılması zamanı əsas diqqət edilməli prosessual qaydalar, mübahisələrə məhkəmələrdə baxılması müddətləri, sübutlar və sübut etmə vasitələri, bu qəbildən olan mübahisələr üzrə məhkəmə qərarından yuxarı instansiyalara şikayət imkanı, seçki hüquqlarının pozulması zamanı inzibati xəta və cinayət hesab olunan əməllərin dairəsi və bu əməllər üçün nəzərdə tutulmuş cəzalar barədə tamaşaçılara ətraflı məlumatlar və izahlar verilmişdir.



**28 mart 2024-cü il tarixdə "Hakim Studiyası" verilişinin ikinci sayı** təqdim olunmuşdur. Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri Hicran Muradov və Naxçıvan Şəhər Məhkəməsinin sədri Gülnar Səfərəliyevanın iştirakı ilə yaşayış sahəsinin tərkib hissəsindən istifadə hüquqları və dövlət orqanlarının qanunsuz hərəkətləri nəticəsində mülkiyyət hüquqlarından məhrum olmuş şəxslərin malik olduqları hüquqi müdafiə mexanizmləri müzakirə olunmuşdur. Verilişdə həmçinin Naxçıvan Dövlət Universitetinin tələbələrinin iştirakları ilə mövzu ilə bağlı məhkəmə simulyasiyası təqdim olunmuş, verilişin qonaqları simulyasiyada canlandırılan mübahisəyə tətbiq olunmalı qanun normaları və müddəalar barədə geniş məlumatlar vermişlər.




Verilişdə yaşayış sahəsindən istifadə hüququnun əhatə dairəsi, bu hüquqa malik olan şəxslər, həmçinin həmin hüququn yaranması və xitam olunması əsasları, yaşayış sahəsindən istifadə hüququnun kompensasiya imkanları ilə yanaşı dövlət orqanlarının qanunsuz hərəkətləri nəticəsində öz mülkiyyət hüquqlarından məhrum olmuş şəxslərin hüquqi müdafiə

imkanları, həmin şəxslərin müraciət etməli olduqları orqanlar, müddətlər, inzibati orqanların vəzifələri, inzibati icraatın xarakteri və s. müzakirə olunmuşdur.



**Aprel ayının 30-da "Hakim Studiyası" verilişinin növbəti sayı** efirə təqdim olunmuşdur. Verilişin qonaqları qismində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki kollegiyasının sədri Əli Allahverdiyev və Ordubad Rayon Notariat Ofisinin notariusu Yadigar Novruzov dəvət olunmuşlar. Vərəsəlik münasibətlərinə həsr olunmuş növbəti sayda qonaqlar miras əmlak kütləsi, vərəsələrin dairəsi, mirasın qəbulu ilə bağlı müraciətlərin xüsusiyyətləri, vəsiyyətnamələrin tərtibi, vərəsəlik şəhadətnamələrinin verilməsi qaydaları və müddəti, miras bölgüsü ilə bağlı əhəmiyyətli məqamlar, mübahisə halında işlərə məhkəmələrdə baxılması qaydaları, həmçinin 26 dekabr 2023-cü il tarixdə qəbul olunmuş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsinə uyğunluğunun yoxlanılmasına dair" Qərarı ilə nəzərdə tutulmuş vərəsəlik münasibətlərinin hüquqi tənzimlənməsi ilə bağlı mühüm məqamları tamaşaçıların diqqətinə çatdırılmışdır.

**"Hakim Studiyası" verilişinin dördüncü sayı** uşaqların hüquqlarının müdafiəsinə həsr olunmuşdur. **30 may 2024-cü ildə təqdim olunan buraxılışda** Şərur Rayon Məhkəməsinin sədri Mehdi Əliyev və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin aparat rəhbəri Eltun Həziyevin iştirakları ilə uşaqların müdafiəsində beynəlxalq və ölkə daxili qanunvericiliyin rolu, boşanmaların uşaqların mənafelərinə təsirləri, boşanmış ailələrdə uşaqların maddi təminatı, uşaqların ünsiyyət hüquqları,



uşaq əməyinin istismarı, erkən nikah, ailədaxili zorakılığa məruz qalan uşaqların hüquqlarının müdafiəsi müzakirə olunmuşdur.



**27 iyun 2024-cü il tarixdə "Hakim Studiyası" verilişinin növbəti sayı** təqdim olunmuşdur. Babək Rayon Məhkəməsinin sədri Zamiq Əliyev və həmin Məhkəmənin hakimi Günay İsmayılın iştirakı ilə ər-avadın ümumi birgə mülkiyyəti ilə bağlı mübahisələr müzakirə olunmuşdur. Verilişdə payın bölünməsi və əşyanın bölünməsi məfhumlarının fərqi, ər-arvadın ümumi birgə əmlakının əhatə dairəsi, faktiki nikah münasibətlərində və ya nikah münasibətlərindən kənar qazanılmış əmlakın hüquqi rejimi, əmlak bölgüsü zamanı əmlak passivlərinin nəzərə alınması mexanizmləri, məhkəmələr tərəfindən ərarvadın birgə əmlakının bölünməsi zamanı diqqət edilən məqamlar, həmçinin ər-arvadın ümumi əmlakının bölünməsi ilə bağlı mübahisələrdə qanunvericiliyin tətbiqi təcrübəsi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 12 mart 2024-cü il tarixli Qərarı ilə müəyyən olunmuş məhkəmə təcrübəsi müzakirə olunmuşdur.

Verilişdə həmçinin Naxçıvan Dövlət Universitetinin tələbələrinin və "Femida könüllüləri"nin birgə iştirakı ilə ər-arvadın birgə əmlakının bölgüsü ilə bağlı məhkəmə simulyasiyası təqdim olunmuş, verilişin qonaqları simulyasiyada canlandırılan mübahisəyə tətbiq olunmalı qanun normaları və müddəalar barədə məlumatlar vermişlər.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

4700000000
053-2022

Yığılmağa verilmiş: 28.08.2024.
Çapa imzalanmış: 30.08.2024.
Formatı 70x100 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 6,5 ç.v.
Sifariş № 323. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.